# AİLƏ SƏADƏTİNƏ NECƏ NAİL OLAQ?



# *AİLƏ SƏADƏTİNƏ NECƏ NAİL OLAQ?*

*MÜƏLLİF: AYƏTULLAH HÜSEYN MƏZAHİRİ*

***Tbilisi 2015***

# *AİLƏ SƏADƏTİNƏ NECƏ NAİL OLAQ?*

*AYƏTULLAH HÜSEYN MƏZAHİRİ*

Redaktor: E. Kələyev

Dizayn: E. Orucov

"Bütün Gürcüstan Müsəlmanlar İdarəsi" nəzdində
"Müsəlman Qadınlar İcması"

Tbilisi 2015

*BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM*

## *GİRİŞ*

Allah-Taalaya edilən həmd və şükür, Onun elçisinə, haqq İmamlara və İslam şəhidlərinin parlaq ruhlarına salamdan sonra xatırlatmaq yerinə düşərdi ki, əlinizdəki kitab Ayətullah Hüseyn Məzahirinin 19 əxlaq məclisində toplandıqdan sonra böyük ustadın nəzarəti altında çapa hazırlanmışdır.

Kitabda çox mühüm və əsas məsələlərdən biri sayılan "İslamda ailə əxlaqı" mövzusunda qısa və yığcam surətdə toxunulmuş, şərif ayə və hədislərdən yerindəcə istifadə olunaraq ibrətamiz söhbət və hekayələr şirin və aydın bir dillə qələmə alınmışdır.

Eləcə də ailə məsuliyyətlərinin növü, kişi və qadın fərqinin fəlsəfəsi, ər-arvad və övladın qarşılıqlı vəzifəsi, dostluq və mehribanlığın ailədəki müsbət təsiri, övlad tərbiyəsində nəvazişin rolu, ləyaqətli qadın xüsusiyyətlərinin Quran və Məsum İmamların tərəfindən qiymətləndirilməsi, qadını nəsihət etməyin və ailə ixtilaflarının həll olunma qaydaları, problemlərin yaranma səbəbləri, amilləri, müqəddəs İslam şəriəti baxımından ailə qurmağın əhəmiyyəti, valideynin uşaqlara təsiri, ailə mühitində maddi və mənəvi işlərin yüngül tutulması, kişi və qadının bir-birini əfv edib bağışlaması, övlad tərbiyəsi, gələcəkdə övladın şəxsiyyətinə təsir edəcək maddi və mənəvi amillərin səbəbi və s. kimi bir çox faydalı mövzularla qarşılaşacaqsınız.

## *BÜTÜN ALƏM ZƏRRƏCİKLƏRİ MƏSULİYYƏTƏ MALİKDİR*

Qəlb (bəsirət) gözü ilə varlıq dünyasına nəzər salsaq maddi və qeyri-maddi (mücərrəd) əşyaların ayrı-ayrılıqda müxtəlif vəzifə daşıdıqlarının şahidi olarıq. Dünyada məsuliyyət yükünü çiyninə almamış və ixtiyarına vəzifə qoyulmamış bir şey tapmaq qeyri-mümkündür. Məsələn, elektronun proton ətrafındakı hərəkəti müəyyən nəzm və sürət üzrə olmalıdır.

Yerin Günəş ətrafına fırlanması məxsus keyfiyyət və kəmiyyətlə olmalı və bu vəzifəni müəyyən nəzm və sürətlə yerinə yetirməlidir ki, bu nizamdan heç vaxt (belə ki, 160 növ məsuliyyət (hərəkət) onun üçün sübut olmuşdur) kənara çıxmasın. Neçə illər bundan qabaq sabit və hərəkətsiz hesab olunan Günəş "Veqa" adlı bir ulduzun ardınca (bizə naməlum olan) müəyyən məqsədə doğru hərəkətdədir. Quran dili ilə desək,

"Günəş öz müəyyən oxu ətrafında (maneəsiz) hərəkətdədir, bu alim olan Allahın qüdrətinə dəlildir."[1]

Günəşin hərəkəti o qədər tez və sürətlidir ki, hesab elmi belə onun qarşısında acizdir. Günəşin hər saatda neçə milyon kilometr yol qət etməsi ilə yanaşı, eləcə də bu sistemin kürələri, o cümlədən Yer, onun ardınca bizim üçün naməlum olan məqsədə doğru hərəkət etməkdədir.

Əgər kainat aləmindən olanlardan biri bir anlıq olsa belə, öz vəzifəsinə əməl etməzsə bütün nizam və sistem pozular, bir çox mövcudatın məhvinə səbəb olar.

Mücərrəd aləmdə də vəziyyət bu cürdür. Yəni mələklərin hər biri özünə məxsus vəzifə daşıyaraq maddi aləmin

---

1"Yasin" surəsi, ayə:38

hərəkətində və ilahi ibadətlərin yerinə yetirilməsində məsuliyyət sahibidirlər ki, əgər bir an öz vəzifələrini yerinə yetirməkdən boyun qaçırsalar, məhv olarlar. Məsələn, merac gecəsində Həzrəti Cəbrail Rəsuli-Əkrəm (səlləllahu əleyhi və alih)-in ardınca gələrək elə bir yerə yetişir ki, artıq irəliyə getməyə icazəsi olmur. Peyğəmbər (səlləllahu əleyhi və alih) ondan irəli gedərək Cəbrailə buyurur:-İrəli gəl. Amma Cəbrail cavab verir:-Artıq ora gələ bilmərəm. Əgər bir az da yaxınlaşsam yanaram.

## *İNSANIN MƏSULİYYƏTİ İXTİYARİDİR*

İnsanın məsuliyyətinin ixtiyari olmasına əsasən bütün mövcud zərrəciklər məsuliyyətə malikdirlər. Məxluqatın ən şərəflisi, əşrəfi sayılan insan yaranış aləminin hədəfidir və öhdəsində ən ağır məsuliyyət vardır.

Sair mövcudatın məsuliyyətlərinin (cansız, bitki, heyvan, göy cisimləri və başqa) insanla olan fərqi onların məsuliyyətinin cəbri (məcburi) və yaranış aləminin hesabına olmasıdır. Hətta mücərrəd mövcudatlar belə (mələklər kimi) bir növ cəbridirlər, lakin insanın məsuliyyəti ixtiyari olmaqla heç bir məcburi vəzifə daşımır.

"Biz (haqq və batil) yolu ona (insana) göstərdik. Əgər istər hidayəti qəbul edər (və öz məsuliyyətini yerinə yetirər), ya da istər küfri nemət (nankorluq) edər."[1]

İnsan üç növ məsuliyyət daşıyır ki, bunun müqabilində olan vəzifəsi bir neçə cürdür:

1) İbadi məsuliyyət; bu məsuliyyət insan ilə Allah arasında olan məsuliyyətdir. Əgər bu vəzifənin yerinə yetirilməsində süstlüyə yol versə, insan Allaha bəndəlikdən xaric olar.

2) Fərdi məsuliyyət; bu məsuliyyət də iki qismdir:

---

[1]"İnsan" surəsi, ayə:3

a) insanın öz bədən üzvləri müqabilindəki vəzifəsi.

İnsan bədəni bir minik vasitəsinə bənzəyir ki, onun uca və əlyetməz aləmlərə yüksəlməsi üçün lazım olan vasitədir. Elə buna görə də onun öz cismi qarşısında olan məsuliyyəti böyükdür və onların da yerinə yetirilməsində süstlüyə yol verilərsə bu onun mənəvi xüsusiyyətlərində nöqsanın yaranmasına səbəb, insanın xətakar olmasına bir növ zəminə yaradır. Məhz bu səbəblər üzündən insanın öz bədənini daim nəzarət altında saxlaması, onu daima qoruması vacibdir.

b) İnsanın ruhi və mənəvi cəhəti qarşısında olan vəzifəsi.

Belə ki, bu vəzifə çox ağır və önəmli sayılaraq onun yerinə yetirilməsində süstlük, yaxud nöqsan baş verərsə, ruh xəstəliyə düçar olub insanın bütün işlərini öz mənfi təsiri altına alacaqdır. Nəticədə ruh və mənəviyyat bu xəstəlik üzündən aradan gedərsə, həmin şəxs Quranın şərif ayəsinin belə bir adam haqqında buyurduğunun bariz nümunəsi olacaqdır:

"Həqiqətən, Allah dərgahında ən alçaq canlılar mənəviyyatları məhv olub və haqq söz qarşısında kar və lal olanlardır ki, onlar əql qüvvəsini işə sala bilmirlər."[1]

Zalım və cinayətkarların vücuda gəlməsinə səbəb mənəvi ruhiyyənin olmamasıdır.

3) İctimai məsuliyyət: bu vəzifənin mənşəyi insanın ictimai təbiəti sayılaraq onun təkamülü bu xüsusiyyətə borcludur. Belə ki, əgər insan ictimaiyyətdə, cəmiyyət arasında yaşamazsa təkamül mərhələlərini qət etmək onun üçün mümkün olmayacaqdır. İslam bu məsuliyyətə işarə edərək buyurur:

"İslamda rahiblik və tərki-dünyalıq yoxdur."[2] İnsan boynunda olan ictimai məsuliyyətlər isə iki dəstəyə bölünür:

a) ailəyə aid olan vəzifələr (onların "evin idarə olunması və tədarükü" adlandırılması da mümkündür).

---

1"ənfal" surəsi, ayə:22

2"Səfinətül-bihar", 1-ci cild, səh.540

b) insanların bir-birinə qarşı olan ümumi vəzifələri. Əgər bu və yuxarıda adı çəkilən məsuliyyətlərin (ibadi və fərdi) yerinə yetirilməsində süstlüyə yol verilərsə, insan günahkar hesab olunaraq insani vəzifələrdən məhrum olacaqdır.

## *AİLƏ MƏSULİYYƏTİ*

Bu məsuliyyət sadalanan məsuliyyətlərin ən ağırıdır. Bu vəzifənin müxtəlif cəhət və proqramları ilə yaxından tanış olaraq, onların yerinə yetirilməsində Allah hökmlərinə, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih) və Məsum İmamların (əleyhimussalam) şəriət–yaşayış qaydalarına əsaslanaraq geniş surətdə diqqət edib çalışmaq gərəkdir.

İslam dininin yarandığı ilk vaxtlardan Cəhənnəm əhlinin əzabı barəsində bir ayə nazil olmuşdur. Belə ki bu cür əzaba düçar olmalarının qorxusundan bir neçə cavan öz adi yaşayışlarından əl çəkərək səhraya üz tutdular. Onlardan biri, bir daha öz həyat yoldaşı ilə birlikdə yatmayacağına, qadınla təmas tutmayacağına söz verdi. İkincisi camaatla əlaqəni birdəfəlik kəsəcəyinə, üçüncüsü isə heç vaxt ləzzətli yeməklər yeməməyi qərara alır.

Bu üç nəfərin həyat yoldaşları, Peyğəmbər (səlləllahu əleyhi və alih)-in yanına gələrək öz ərlərinin vəziyyətlərini ona danışdılar. Həzrət bu macəranı eşitdikdə narahat olub, tez məscidə tələsir. Evdən elə təcili halda çıxır ki, əbası yerlə sürünür. Məhz elə bu halətdə “qeyri-adi vəziyyəti” aydınlaşdırmaq üçün camaatı məscidə yığaraq belə buyurur: “Mən sizin peyğəmbəriniz olmaqla bərabər həm evlənmiş, həm yemək yeyir, həm də bədənimin qayğısına qalıram. Günümü camaat arasında keçirməklə sizinlə ünsiyyətdəyəm.

Hər kim mənim yaşayış tərzimdən üz döndərsə məndən deyil."[1]

Müqəddəs Quran da bu barədə buyurur:

**"Dul qadınlar, arvadsız kişilər, ləyaqətli və xoşrəftar kənizlərinizi, bir-birinizlə evləndirin! Əgər onlar yoxsul olsalar Allah Öz rəhmət və fəzli sayəsində onları ehtiyacsız edər. Allah çox əta edən və (geniş rəhmət və fəzilət sahibi, bəndələrinin halından) agahdır."[2]**

Məlum olur ki, yoxsulluq Peyğəmbər şəriətindən uzaqlaşmaqla nəticələnməməlidir, əksinə evlənib ailə qurmağın özü ruzinin artması səbəblərindən biridir. Bütün bunlarla yanaşı ailə məsuliyyəti çox ağır və həssasdır. Ailə saxlamaq və uşaq təlim-tərbiyəsi xüsusi qayda-qanuna malik olub, ailə böyüklərinin hər birinin öhdəsində öz vəzifələri vardır. Ailə üzvlərinin mehriban olmasının yeganə yolu bu vəzifələri düzgün yerinə yetirməkdən ibarətdir.[3]

***"Ey iman gətirənlər, (Allah hökmlərinə tabe olmaqla) özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan (Cəhənnəm odundan) qoruyun!"[4]***

***"Həqiqətən ən çox zərər görmüş şəxslər onlardır ki, həm özləri, həm də ailələrini (pis, düzgün olmayan tərbiyə, yaxud təlim-tərbiyədə süstlük səbəbinə əsasən) Qiyamət günü ziyana saldılar. Agah olun! Aşkar ziyankarlıq elə budur!"[5]***

Bu kitabda ailə saxlamağın müxtəlif vəzifə və qayda-qanunundan geniş surətdə söhbət açacağıq. Arvadın ər, ərin arvad, övladın ata-ana, onların da övlad qarşısındakı

---

1"Sünənün-Nəbi" (mərhum Əllamə Təbatəbai), səh.147; "Biharul-ənvar", (Əllamə Məclisi) 22-ci cild, səh.124.

2"Nur" surəsi, ayə:32

3"Təhrim" surəsi, ayə:6

4"Zümər" surəsi ayə:15

5"Zümər" surəsi, ayə:15

vəzifələrini hərtərəfli araşdırmaqla yanaşı, eləcə də ailə mühitinin mənəvi dəyərlərini lazımınca saxlamağı öyrənəcəyik. Ailənin ruhdan düşərək mənəvi şəraitin soyuması uşaq, qadın və kişinin həyatında ən böyük dərddir. Övladlarımızın pis mühitdə böyüməsi, ürək sıxıntısı, ruhi xəstəliklərə və başqa müxtəlif narahatlıqlara düçar olmasının qarşısını almaq hamımızın ümdə vəzifələrindən biridir. Övladlarımız ailənin bu çatışmazlıqları ilə gərək ictimaiyyətə qədəm qoymasınlar, çünki bu addım insan cəmiyyətinin faciəsi və məhvinin başlanğıcıdır.

***"Allahın nişanələrindən biri budur ki, sizin üçün özünüzdən həyat yoldaşı yaratdı ki, onunla birlikdə rahatlıq tapasınız və sizin aranızda mehr-məhəbbət və rəhmət qərar verdi. Bu iş üzərində fikirləşənlər üçün (hikmət və) nişanələr vardır."***[1]

---

1"Rum" surəsi, ayə:21

## BİRİNCİ FƏSİL

### *ƏXLAQ UYĞUNLUĞU*

Ailə qurmaq vəzifəsi çətin olub onları yerinə yetirmək daha ağırdır. Belə ki, ilk növbədə gözəl əxlaq, mənzil tədarükü, əxlaq uyğunluğunu və s. tələb edir. Eləcə də süstlük, zəiflik və müxtəlif çatışmazlıqlar yaradır ki, bu da bəzən ədəb qaydalarının pozulmasına gətirib çıxarır. Ailə işlərinin idarə olunması bərabərliyə riayət edərək ictimai ağıla sahib olmaq, mehr-məhəbbət, mehribanlıq, elm və siyasət tələb edir.

Kişi müxtəlif mənzil problemlərini düzgün üslubla, xoş əxlaqla elə həll etməlidir ki, qəlblər onun böyüklüyünü duysunlar. O özünü özbaşınaçılıqdan qoruyaraq həmişə öz gözəl rəftarı ilə ailə mühitinin isti və yüksək ruha malik olan mənəviyyatını saxlamalıdır. Bu mühüm vəzifəni yerinə yetirmək ailə üzvlərinin mənəvi bağlılığını daha da möhkəmlədərək onları bir-birinə arxa və köməkçi edər. Qurani-Şərif bu məsuliyyəti aşağıdakı ayədə xatırladaraq insanı bu vəzifəyə əməl etməyə səsləmişdir:

***"Ey iman gətirənlər, özünüzü və əhli-əyalınızı yanacağı insanlar və daşlar olan oddan (Cəhənnəm odundan) qoruyun!"***[1]

Ailə məsuliyyəti ictimai bir vəzifədir ki, ailəni qurmaqla bərabər insanın özünü də düzəltməsi, saflaşdırması, özünə nəzarət etməsi də lazımdır ki, ziyankarlardan olmasın.

### *KİŞİ QADININ HİMAYƏÇİSİDİR*

Müqəddəs Quranda ev idarəçiliyi barəsində çoxlu qaydalar mövcuddur, o cümlədən:

---

1 "Təhrim" surəsi, ayə:6

*"(İşgüzar) kişilərin qadınlara böyüklük və onları qorumaq haqqı vardır, ona görə ki, Allah bəzilərini bəzilərindən üstün qərar verib və ona görə ki, kişilər öz mallarından qadınların məişət və yaşayış xərclərini ödəyirlər."*[1]

Buna əsasən evin böyüklüyü kişi ilə bağlı olaraq onun qadın üzərində böyüklük haqqı vardır. Başqa sözlə desək, idarə işləri, mənzil tədarükü maddi və mənəvi cəhətdən kişinin öhdəsinədir. Əlbəttə, bu ağır vəzifəni yerinə yetirmək yalnız qəlblərə hakim kəsilməklə mümkündür ki, tənha maddi bədənə malik olmağın təsiri yoxdur. Çünki, zor və qüvvət daimi deyildir.

Qanunvericilikdə müvəffəqiyyət qanuna riayət edənlərin qəlblərinə hakim kəsilməkdir. Kişinin də ailədə böyüklük etməsinin müvəffəqiyyəti ailə üzvlərinin ürəklərinə hakim olması ilə bağlıdır. Belə olan halda kobudluq və tünd xasiyyətliyə yol verilmir və nəticədə ev mühiti başqa İslami mühitlər kimi, zorakılıq, dava-dalaş və bədrəftarlıqdan uzaq olur.

## ƏR-ARVADIN AĞIL VƏ ATİFƏSİ (EMOSİONAL XÜSUSİYYƏTİ)

Qeyd olunan ayədən məlum olduğu kimi, kişilərin ailədə hakim olmalarının bir neçə dəlili vardır ki, onlardan biri də kişilərin yüksək fikir və düşüncə qabiliyyəti, qadınların isə güclü atifəyə (emosianal xüsusiyyətə) malik olmasıdır. Fikir və düşüncə tələb edən qayğılar kişinin, məhəbbət və mehribanlıq rəftarı isə qadınların öhdəsinədir.

---

[1] "Nisa" surəsi, ayə:34

Evdarlıq, ailə qayğıları, eləcə də uşaqların təlim-tərbiyəsində məhəbbət və mehribanlığın rolu böyükdür. Fitrət və yaranış xüsusiyyətinə görə bu cür vəzifələr doğrudan da qadının rəftar, istedad, təbiət və bacarığı ilə münasibdir, bir halda ki, kişilər bu vəzifələri yerinə yetirməyin öhdəsindən, fitrətləri qadın fitrət və təbiətindən fərqli olduğu üçün gələ bilmirlər.

Kişinin vücudu uşaq saxlamaq və ya evdarlıq işləri üçün yaranmamışdır. Kişidə yüksək fikir və düşüncə qabiliyyətinin olması onun fitrət və təbiətinin ağır ictimai işlərlə münasibliyindən doğur.

## *AYƏNİN MƏNASI*

"Qadın qızılgül, kişi isə uca və gövdəli bir ağaca bənzəyir. Zərif və təravətli qızılgülün qızmar günəş istiliyinə, küləyə, tufana və qışın sərt soyuğuna dözümü olmadığı kimi, qadının da ağır və yorucu ictimai işlər qarşısında müqavimət və dözümü yoxdur."

Beləliklə, kişi və ya qadının vücudu olmazsa cəmiyyətdə çatışmazlıq və naqisliyin olmağı nəzərə çarpacaqdır. Bu cəhətdən kişinin təlabatına əsasən, mənzil tədarükü və ağır işlər evdarlıq və zərif işlər isə təbiətinə əsasən qadının öhdəsinə verilmişdir. Aydın məsələdir ki, bu kişinin qadından üstün olmasına dəlil ola bilməz. Quran "kişilər qadınlardan üstündür"[1] buyurduğunun mənası budur ki, kişi qadına nisbətən vücud üstünlüyü deyil, yüksək "fikir və düşüncə üstünlüyü"nə malikdir. Eyni zamanda qadının da kişiyə nisbətən üstünlüyü vardır ki o da "atifə, mehr-məhəbbət və mehribanlıq üstünlüyüdür." Quran kişinin qadına olan

1 "Nisa" surəsi, ayə:34

üstünlüyünü bəyan etmək qəsdində deyildir və bu ayə qadının yüksək məqamına təhqir kimi hesab edilməsin.

## *KİŞİ İLƏ QADININ TƏBİƏT FƏRQİ RƏHMƏT NİŞANƏSİDİR*

Sözümüzün əvvəlində kişinin güclü fikir və düşüncə qabiliyyətinə malik olub nəticədə qadından daha artıq ayıq və huşlu olduğunu, eləcə də qadının güclü atifə, məhəbbət və mehribanlıq hislərinə malik olduğunu və bunun da nəticəsində kişidən daha artıq atifəli, mehr-məhəbbətli olduğunu qeyd etdik.

Kişi və qadın arasındakı bu fərqi onlardan birinin digəri üzərində üstünlüyü kimi düşünmək düzgün deyildir. Bu fərq yalnız kişi və qadınlar arasında asayiş, məhəbbət və mehribanlıq mənşəyi olmaqla yanaşı, Allahın

"Allahın nişanələrindən biri də budur ki, sizlərə özünüzdən həyat yoldaşı yaratdı ki, onların yanında rahat olasınız. Və sizin aranızda məhəbbətlə mehribanlıq yaratdı. Bu mühüm məsələ (ər-arvad arasında mehribanlıq həmdəmlik və ünsiyyətin olmasıdır ki, həqiqətdə həyatın möhkəm dirəyi sayılıb asayiş və rahatlıq mənşəyidir) təfəkkür və düşüncə əhli üçün Allah hikmətindən bir nişanədir.[1]

## *QADINLAR AĞILDAN NAQİS DEYİLLƏR*

İslamın qadının ağıldan az və naqis yaradılaraq ictimaiyyətə bu cür tanıtdırması yalanı qərblilər tərəfindən planlaşdırılmış bir bəhanədir. Xatırlatmaq lazımdır ki, qadında ağıl azlığı yoxdur. Amma qadının ağlı güclü məhəbbət, atifi hislərin təsiri altında olduğu, atifi qanunlara tabe olduğu üçün öz əsl qabiliyyətini əldən verir. Elə bu səbəbdən İslam

---

1"Rum" surəsi, ayə:21

qadınları qəzavət, hökm vermə, hökumət, cihad və s. kimi atifənin təsiri altında olmamalı məsuliyyətlərdən çəkindirmişdir.

Beləliklə, qadın bu cəhətlərdən asayiş və rahatlıq meyarı hesab olunaraq nigaranlıq və pərişanlığı aradan apardığına görə kişidən yüksək dərəcəyə malikdir. Kişi də ictimaiyyətin ağır işlərini yerinə yetirmək və mənzil tədarük görmək üzündən qadından üstün sayılır.

Elə isə, qadın və kişinin dünya nəzmini idarə etməsində bir olmaları gərəkdir. Elə bu cəhətdən kişinin vücudu yüksək fikir və düşüncəyə malik olduğu üçün pul və maliyyə tədarükü, evin idarəsi, ailə üzvlərini tərbiyə etmək onun öhdəsinə verilmişdir. Buna görə qadın gərək əri qarşısında təvazökar və sözeşidən olsun.

## *LƏYAQƏTLİ QADINLARIN NİŞANƏLƏRİ*

"Həm təvazökar, həm də itaət edən qadınlar pak və təqvalıdırlar."[1]

Allah ismətli qadının iki xüsusiyyətinə təkidlə işarə etmişdir:

***1) Təvazökarlıq və itaət etmək.***

Qadın öz ərinə itaət edərək onun müqabilində təvazökar olmalıdır. Əgər bir qadın əri qarşısında etinasızlıq və saymazlıq göstərərsə, həqiqətdə öz ilahinin ona verdiyi fitri qanunun əksinə hərəkət etmişdir. İslam nəzərincə ləyaqətli qadın odur ki, ərinə itaət etsin və kişi də evdə böyük kimi sayılsın. Amma gərək amansızlıq və zorakılıq deyil, əksinə ailənin idarəsi və məsləhətinə uyğun təbii bir tərzdə böyüklük

---

[1] Təqva–iman əhlinin ən көzəl xüsusiyyətindəndir ki, onlar Allahın ədalətindən qorxub Onun əmrinə qeydsiz-şərtsiz itaət edirlər. "Nisa" surəsi, ayə:34

etsin. Qadının öz ərinin buyuruğunda diqqətli olması ümdə vəzifələrindən biridir.

### *ƏRİN ARVAD ÜZƏRİNDƏKİ HAQQI*

Xatırlamaq lazımdır ki, kişinin paltar yumaq, xörək bişirmək və s. işlər barədə tələbi olmamalıdır. Çünki, belə işlərdə kişinin qadın üzərində heç bir haqqı olmayıb təkcə "şəhvət ehtiyacını təmin etməkdə" tələb etmə haqqı vardır. Kişinin qadına paltar yumaq, yemək hazırlamaq və sair işlərdə əmr etməyə haqqı olmadığına baxmayaraq, qadın öz vəzifəsini bilməlidir. Belə ki, kişinin paltarını təmizləməli, xörək bişirməli və evi rahat yaşayış üçün hazırlamalıdır. Ləyaqətli qadın o qadındır ki, əri evə gəlməmişdən qabaq asayiş və rahatlıq üçün lazım olan şeyləri tədarük görüb hazırlasın. Qadın-kişi münasibəti rəfiqlik, dostluq, səfa-səmimiyyət xarakteri daşıyır. Onların əlaqəsi qanun və vəzifə ilə deyil, eşq-məhəbbət və zövq üzərində qurulmalıdır. Belə də deyil ki, kişinin şəriətə əsasən qadın üzərində hansı haqqı vardısa, qadın təkcə o sahədə söz qəbul etməlidir. Əksinə, ər-arvad bir-birindən müəyyən bir şey tələb edərlərsə hətta tələb olunan o şey şəriət qanunu üzrə onların vəzifəsi olmasa belə, onlar məhəbbət, eşq və səfa-səmimiyyət əsasında bir-birinin tələbini qəbul etməlidirlər.

***2) Pak və haramdan uzaq olmaq.***

İslamın ləyaqətli qadın üçün qeyd etdiyi ikinci xüsusiyyət "ismət, iffət və paklıqdır". İstər gizlində, istərsə də aşkarda qadın haram işlərdən uzaq olaraq öz iffətini qorumalı, hər zaman "ismətli və pak" olmalı, ərinin onun yanında olub-olmaması qadının paklığına təsir etməməlidir.

## *QADININ VƏZİFƏLƏRİ*

Ərinin evə gəlişindən qabaq onu qarşılamağa hazırlıq görməsi, üz-üzə gələrkən onunla təbəssümlə salamlaşması və onun yanında oturaraq deyib-gülməsi, şadlıq və xoşhallıq yaratması qadının ümdə vəzifələrindən sayılır.

## *QADIN İTAƏTSİZLİK EDƏNDƏ KİŞİNİN VƏZİFƏSİ*

Qurani Kərim bu barədə belə buyurur:

***"İtaətsizlik və özbaşınalıqlarından qorxduğunuz qadınlara nəsihət və moizə edin."***[1]

Moizə (nəsihət) olunan sözlər mehribanlıq və məhəbbətlə dolu olmalıdır. Moizə günəş təki ona nur və istilik saçıb dəlil-sübut əsasında olmalıdır.

Camaatın ruhiyyəsi müxtəlif və bir-birindən fərqlənir. Məsələn, qadınlarla söhbətdə atifəli, zərif dəlillərdən istifadə etmək lazımdır, təkcə dəqiq əqli dəlillərin lazımlı təsiri yoxdur. Belə ki, Qurani Kərim də dostluq və mehribanlığa işarə edərək buyurur:

"Allah-Taala sizin aranızda məhəbbət və dostluq yaratdı."

Buna əsasən əgər qadın vəzifələrinin yerinə yetirilməsində süstlük etsə, onu məhəbbətli və mülayim nəsihətlə moizə etmək lazımdır. Məsələn, evə daxil olub yoldaşınızı kədərli və yorğun görsəniz, özünüzdən çıxaraq onu danlamayın, əksinə mülayim və məhəbbətlə rəftar edib, bu cür rəftarın ailə münasi- bətlərinin soyuqluğuna səbəb ola bilməsini xatırladın.

---

[1] "Nisa" surəsi, ayə:34

## *BİR PSİXOLOQUN NƏZƏRİ*

Psixoloqlardan biri bu barədə belə deyir: "Yaxşı kişi odur ki, evə daxil olmazdan əvvəl ayaqqabısına palçıq yapışmış olarsa onu təmizləyib sonra evə daxil olsun. Qəm-qüssə və narahatlıq da ayaqqabının altına yapışmış palçıq misalına bənzəyir ki, evə daxil olmazdan gərək təmizlənsin. Eləcə də ləyaqətli qadın evi süpürüb zibili otaqdan çıxartdığı kimi, ailə mühitindəki qəm-qüssə və narahatlığı da bir zibil kimi təmizləməlidir."

## *İSLAMİ DAVRANIŞDAN NÜMUNƏ*

Təsəvvür edin ki, evə daxil olduğunuz vaxt evin səliqəsiz olduğunu görür və belə ev mühitini İslama uyğun yaşayış üçün münasib hesab etmədikdə, yoldaşınızı nəsihət edərək mehribanlıqla çatışmazlıqları ona göstərib "təmizlik iman nişanəsidir"-söyləmək borcunuzdur.

Daha sonra ev mühitinin təmiz olmasının uşaqların düzgün tərbiyəsində, böyüməsində və sağlamlığında göstərdiyi müsbət təsirə işarə edib ata-ananın bu zəminədə olan vəzifələrini xatırladın və buna bənzər mülayim sözlər söyləyin ki, həyat yoldaşınız nəsihətinizi qəbul edib öz səhvini düzəltsin. Nəsihət məhəbbətlə başlayıb düzgün dəlil ilə sona yetərsə mütləq öz müsbət təsirini göstərəcəkdir.

Bəzən mətləbin müxtəlif sözlərlə, müxtəlif şəkillərdə təkrar edilməsi sözün düzgün təsir göstərməsinə səbəb olur. Amma nəsihət və onun dəfələrlə təkrar olunması möhkəm əsəb sistemi və ürək genişliyi tələb edir, ki, qüssə və dad-fəryad etmək lazım gəlməsin. Əgər insan geniş ürəkli olub öz əsəblərini tam surətdə ələ ala bilərsə, böyük bir qələbəni ələ gətirmişdir. Necə ki, Musa Kəlimullah (əleyhissalam) öz peyğəmbərlik vəzifəsini yerinə yetirmək üçün Allah-Taaladan qəlbinin genişliyini istədi:

"Ey Allah, mənim sinəmi geniş və işimi asan elə, dilimin düyününü aç və sözümü onlara düşündür."[1]

Bu ayədən məlum olur ki, əgər insan geniş ürəkli və öz əsəblərini tam surətdə ələ ala bilsə, çətinlikləri aradan qaldırar, işləri asan edib, sözünü qəbul etdirər, nəticədə isə başqalarının ürəyinə nüfuz edər.

[1] "Taha" surəsi, ayə:25-28.

## İKİNCİ FƏSİL

### *MEHRİBANLIĞIN AİLƏ HƏYATINDA ROLU*

Ailə məsuliyyətlərini yerinə yetirmək güzəşt, geniş ürək, siyasət, ağıl, səbr, alicənablıq, bağışlamaq və elm tələb edir. Evin böyüklüyü ailəni qorumaq və ondan muğayat olmaqdadır. Necə ki, "bir millətin və ya cəmiyyətin başçısı onun xidmətçisidir" demişlər.

Yuxarıda qeyd etdik ki, nəsihətin müsbət təsir bağışlanmasında mehribanlıq, məhəbbət və mülayimliyin rolu böyükdür. Qurani Kərim "Loğman" barəsində buyurur:
***"Loğman oğlunu nəsihət edərkən belə dedi: Ey mənim əziz oğlum, Allaha şərik qoşma, çünki şəksiz şirk böyük günahdır."***[1]

Bu ayədə Loğmanın nəsihət etdiyi vaxt mehribanlıq və məhəbbətlə danışdığının və oğlunu mülayimliklə nəsihət etdiyinin şahidi oluruq. Sonra isə dediklərini dəlil ilə əsaslandırır. Çünki kobudluq və tündlük nəsihətin təsir imkanını aradan aparmaqla bərabər ədəbsizlik və həyasızlıq nümunəsidir.

### *MOİZƏ ZAMANI HƏDİSLƏRDƏN İSTİFADƏ ETMƏK*

Ailəyə nəsihət etmək üçün Əhli-beyt (əleyhimussalam) hədisləri xüsusilə də baş vermiş hadisə və ya məsələ ilə nəsihət etmək daha münasib, daha səmərəlidir. Məsələn, moizə zamanı həmin məsələyə işarə edərək İmamlarımızdan gəlib çatan hədisi belə zikr edəsiniz. Hədislərdə deyilibdir ki, "qadın əri qarşısında uzundillik edərsə, qiyamət günü onun dili o qədər uzanacaq ki, bütün məhşər əhli onu tapdalayacaqlar." Və yaxud bu hədis: Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih)

---

[1] "Loğman" surəsi, ayə:13

merac gecəsində Cəhənnəmdə öz dillərindən asılmış bir dəstə qadın görür. Bunun səbəbini Cəbraildən soruşanda, Cəbrail "bunlar ərləri qarşısında uzundillik edən qadınlardır"-deyə cavab verir

Əlbəttə, nəsihət zamanı bu hədislərin bəyanının son dərəcədə mülayim və məhəbbətlə olmasını unutmamalıyıq. Çalışmaq lazımdır ki, heç vaxt kobudluq və bəd xasiyyətlə nəsihət olunmasın. Əks halda nəsihət lazım olan təsiri göstərməməklə yanaşı, mənfi və pis təsirini bağışlayacaqdır.

## *ƏR-ARVAD ARASINDA İXTİLAFIN MƏNŞƏYİ*

Qeyd etmək lazımdır ki, ər-arvad arasındakı narazılıq və ixtilafların səbəbi adətən hər iki tərəfin təqsiri üzündən baş verir. Təkcə qadın və ya kişinin müqəssir sayılaraq qınanması düzgün deyildir. İxtilafların mənşəyi xudbinlik, öz sözünü yeritmək və geniş ürəyin olmamasıdır. Belə ki, əgər cəmiyyət geniş ürəyə malik olub xudbinliyi özündən kənar edərsə çəkişmələr və narahatlıqlara da son qoyular. Belə olan təqdirdə çətinlik və narazılıq da yaranmaz.

Aydın məsələdir ki, iki nəfər, o cümlədən çox vaxt ər-arvad arasında tam müvəffəqiyyət hasil olmur. Çünki, bu müvafiqlik təkcə ruhları bir, eləcə də Allahın əmrinə qeydsiz-şərtsiz təslim olan peyğəmbər və ilahi övliyalar arasında mövcuddur. Elə buna görə də ailədə ər-arvadın bütün məsələlərdə bir-biri ilə tam razılığa gəlmələri mümkün deyildir. Bir məsələ barəsində nəzərlərin müxtəlif olması təbiidir. Bu da gözəl ailə münasibətlərini öz mənfi təsiri altına salmamalı, hətta ailə mühitini belə tənəzzülə uğratmamalıdır.

Ailədəki nəzər və xasiyyətlərin müxtəlif olmasının çarəsi geniş ürəyə malik olub ixtilaf və çətinliklərlə qarşılaşarkən tündlük göstərməkdən, dad-fəryad etməkdən çəkinməkdədir. Belə ki, ağıl və səbrlə ixtilaf və ya çətinliyin kökünü tapıb həll

edilməsinin, aradan qaldırılmasının yolları barədə fikirləşməlidirlər.

### *KİŞİNİN ÖZ SƏHVİNİ ETİRAF ETMƏSİ*

İxtilafın yaranmasında müqəssir kişidirsə, gərək öz səhvini iqrar edib çəkinmədən üzr istəsin. Çünki bunun özü mərdlik və onun tələbidir. Əgər kişi təqsirkar olub öz səhvini boynuna almazsa nə qadını nə danlaya bilər, nə də nəsihətinin müsbət təsiri olar. Bu zaman kişinin özü daha artıq nəsihətə möhtacdır.

Böyük ustadımız, əzəmətli İslam İnqilabının rəhbəri İmam Xomeyni həzrətləri bu barədə belə buyururdu: Xalq arasında işlənən "kişinin sözü bir olar" atalar məsəli doğru deyildir. Əsl kişi odur ki, səhvə düçar olarkən öz səhvini etiraf etsin. Çünki biz məsum deyilik, səhvlərimiz də çoxdur. Buna görə də lazımdır ki, səhvlərimizi boyunumuza alaq.

İnsan haqq qarşısında diz çökməyi bacarmalıdır. İctimai mühitdə yalnız mülayim və öz səhvini qəbul edənlər müvəffəqiyyət əldə edə bilərlər. Belə olmazsa insan cəmiyyətdən uzaqlaşacaqlar.

Mürüvvət və mərdlik nişanələrindən biri də ixtilaf zamanı haqqı sahibinə verməkdir. Bəzilərinin "əgər kişi öz səhvini etiraf edərsə qadın qorxmaz və ədəbsiz olub kişinin hörmətini saxlamaz" deməsi şeytan vəsvəsəsidir. Haqqın qarşısında hər bir şey qiymətsizdir, haqqa baş əymək gərəkdir.

İmam Həsən Müctəba (əleyhissalam) səhabələrindən biri olan Cünadəyə belə buyurdu:

***"Əgər bir adam qohum-əqrəbası olmadan əziz olmaq, ürəklərə nüfuz tapıb heç bir qüdrətə malik olmadan heybətli və hörmətli olmaq istəyərsə, günahın xar və zəlillik libasını***

***əynindən çıxardıb Allaha bəndəçiliyin izzət və şərəfli libasını geyinməlidir."*** [1]

Bu barədə Qurani Kərim belə buyurur:

"İman gətirib yaxşı əməllər görənləri, Rəhman Allah məhbub edəcəkdir."

## *QARŞILIQLI GÜZƏŞT VƏ XƏTALARI ÖRTMƏK*

Ər-arvadın ailədə möhtac olduqları iki mühüm xüsusiyyət qarşılıqlı güzəşt və xətaları örtməkdir.

Bu gözəl xislət özünü ilahi peyğəmbərlərin və məsum İmamların (əleyhimussalam) rəftarında tam və bariz şəkildə göstərmişdir. O alicənab və nümunəvi insanlar çox güzəşt edib xəta və səhvləri gizlədirdilər.

Bir gün şamlı bir nəfər Mədinə şəhərinə gələrək İmam Həsən (əleyhissalam)-la rastlaşır, amma o həzrəti tanımır. Həzrətdən kim olduğunu soruşduqda onu tanıyır. Əhli-beyt düşmənlərinin apardıqları xoşagəlməz və yanlış təbliğatın təsiri ona da nüfuz etdiyindən "qürbətən iləllah" (Allaha xoş getsin deyə) o həzrətə nalayiq sözlər deyərək ürəyindəki kin-küdurəti aşkara çıxartdı, öz ədəbini göstərdi. Bu nalayiq hərəkit müqabilində İmam Həsən (əleyhissalam) əsəbiləşmədən, narahtlığını büruzə vermədən mülayim və məhəbət dolu nəzərini o kişiyə salır və gözəl xasiyyətə sahib olmaq haqqında onun üçün bir neçə Quran ayəsi tilavət edir və sonra buyurur: "Mən sənə hər cür kömək və xidmət göstərməyə hazıram." Sonra həzrət ondan soruşur: "Şam əhlindənsən?" O kişi cavab verir: "Bəli". Həzrət belə buyurur: "Sən bizim şəhərdə qəribsən, əgər bir şeyə ehtiyacın varsa sənə kömək etməyə hazıram, gəl səni öz evimə qonaq aparım. Paltarın yoxdursa, səni geyindirim, pulun yoxdursa sənə pul

---

[1] "Məryəm" surəsi, ayə:96

verim." Şamlı kişi öz yaramaz əxlaqı müqabilində kəskin reaksiya gözləyirdi və bu cür güzəşt və əfvi təsəvvür etmirdi. Amma İmamın bu cür mülayim rəftarından sonra elə dəyişdi ki, "o vaxt arzu etdim kaş yer aralanaydı və mən yerə girəydim ki, bu cür ədəbsizlik və ölçüsüz kobudluğa yol verməyəydim. O vaxta kimi mənim üçün yer üzündə Həsən ibni Əli və atasından, (Allahın salamı onlara olsun) başqa bir düşmən yox idi, amma bu hadisədən sonra mənim ondan və atasından yaxın və məhbub bir kəsim yoxdur" deyə xatırlayırdı.[1]

### *HƏDİSLƏRDƏN DAHA BİR NÜMUNƏ*

İmam Sadiq (əleyhissalam) bu barədə buyurub:

"Qüdrət sahibi olan zaman əfv edib bağışlamaq Allah peyğəmbərləri və təqvalı insanların adətidir."

Həzrət Əmirəl-möminin Əli (əleyhissalam) əfv etmək haqqında buyurmuşdur: "Qüdrət sahibi olduğunuz zaman əfv edin ki, Allahın sizə verdiyi qüdrətin şükrü əfv etməkdir."[2]

Həzrət Yusif (əleyhissalam)-ın öz qardaşları və Züleyxanın günahından geçərək onları bağışlaması Allah övliyalarının ardıcılları üçün tutarlı bir nümunədir. Allah peyğəmbəri qardaşlarının ona etdikləri böyük zülmün qarşısında yüksək qüdrət və izzət sahibi olduğu halda böyüklük və alicənablıqla güzəşt edərək onlara deyir: "Siz məni Misrin şərafətlisi və böyüyü etdiniz." Qırx ildən sonra atası ilə görüşərkən ona "Şeytanın mənimlə qardaşlarım arasında fitnə-fəsad saldığını" söyləyir.

Doqquz illik zindan əziyyətini unudaraq və Züleyxanın günahından keçərək onu bağışlayır.

---

1"Səfinətül-bihar", 2-ci cild, səh.207

2"Səfinətül-bihar", 2-ci cild, səh.208

Beləliklə, peyğəmbər və din rəhbərlərinin (əleyhissalam) günahı bağışlayaraq güzəştə getmələrindən ibrət dərsi öyrənməklə yanaşı özümüzü Quran ayəsinə layiq göstərək. Quran bu zəminədə buyurur:

"İman əhli gərək güzəşt etsinlər və başqalarının günahını üzə vurmasınlar. Məgər istəmirsiniz ki, Allah sizin günahınızdan keçsin?! Əlbəttə, Allah daha çox bağışlayan və mehribandır."[1]

## *GÜZƏŞTİN TƏSİRİ*

İnsan ailə və ya cəmiyyətdəki kiçik səhvləri görməməzliyə vurub güzəştə getsə, belə bir hərəkətin o mühitdə müsbət təsiri vardır ki, öz ardınca səfa-səmimiyyət gətirəcəkdir. Ən başlıcası budur ki, belə bir hərəkət Qiyamət günündə Allah-Təalanın insanın xəta və pisliklərinə göz yumaraq onu bağışlamasına səbəb olar. Əfv və güzəştin olması ailə mühitini hərarətli saxlayaraq günahların bağışlanmasına səbəb olacaqdır. Bəs hər vaxt bir-birinizin səhv və ya xətası ilə qarşılaşsanız, güzəşt, mehribanlıq və əfv şölələrini qəlblərinizdə alovlandırıb isti ailə ocağınızda bir-birinizi bağışlayaraq əfv və rəhmət gölgəsində başdan-başa məhəbbət və şövqlə dolu, xoş və mənəviyyatlı bir həyat keçirəsiniz.

## *QARŞILIQLI ANLAŞMANIN TƏSİRİ*

Ailədəki mənəviyyat, ləzzət və şirinlik ailə üzvlərinin bir-biri ilə keçinərək qarşılıqlı anlaşması sayəsindədir. Əgər ailə üzvləri bir-birini düşünüb yola gedərlərsə ailədəki nəzm və nizamın möhkəm olacağına şübhə ola bilməz.

---

1 "Nur" surəsi, ayə:22

Sünnülərin rəhbərlərindən biri olan Əhməd ibni Hənbəl özünün tanınmış "Müsnəd" kitabında Ayişənin dilindən belə nəql edir:

"Bir gün Allahın Rəsulu mənim evimdə idi, Onun arvadı Səfiyyə bişirdiyi xörəkdən həzrət üçün yolladı. Xörək gətirən kənizi görcək bədənim əsməyə başladı və ixtiyarsız xörək qabını onun əlindən alıb yerə çırpdım. Peyğəmbərin gözlərinin mənə dikildiyini gördükdə bu rəftarımın qəzəb və nifrət cizgilərini onun simasında müşahidə etdim. Allah Rəsulunun qəzəbindən o həzrətə pənah apardım və dedim: Ümidvaram ki, mənə qarğış etməyəsiniz. Peyğəmbər buyurdu: Ayişə, tövbə et!

Bu əməlimi necə düzəldim?-deyə o həzrətdən soruşdum.

Həzrət buyurdu: Səfiyyənin bişirdiyi xörək kimi, xörək bişir və onun qabına oxşar bir qab alıb həmin xörəkdən onun üçün göndər.[1]

Belə və buna bənzər hallarda Allah Peyğəmbəri (səlləllahu əleyhi və alih) ürək genişliyi və alicənablıq göstərərək səy edirdi ki, çətinliklərə məhəbbət və düşüncə ilə yanaşaraq onları razılıqla aradan qaldırsın. Həzrət Quran buyuruğuna arxalanaraq onlara həmişə nəsihət edirdi.

Biz də öz sevimli peyğəmbərimizin yolunu davam edərək səhvləri görən zaman özümüzü görməməzliyə vurub lazım olan surətdə tam ədəblə nəsihəti və ürəkyanğısını ifadə edən sözləri xatırladaq. İxtilaf və səhvi gördüyümüz zaman dad-fəryad edib, kötək və acı dildən uzaq olaq.

Məsum və pak Əhli beytin (əleyhissalam) rəftar və hədislərindən istifadə edərək ibrət dərsi alaq, bir-birimizi moizə edək, o böyük şəxsiyyətlərin başdan-başa nəsihətamiz

---

1"Müsnədi-Əhməd", 6-cı cild, səh.272.

yaşayışını ülgü götürək və onların qızıl tək sözlərini xatırlayaraq heç vaxt unutmayaq.

## *BİR NEÇƏ HƏDİS*

Mövzunun mühüm olmasıyla əlaqədar məsum İmamlarımızdan (əleyhissalam) bir neçə nümunəvi hədisi qeyd etmək yerinə düşərdi.

Məsumlar (əleyhissalam) buyururlar: "Qadınlarınızın ən yaxşısı o qadındır ki, hər zaman yoldaşını əsəbiləşdirsə və ya onu qəzəbli halda görsə, ona "mənim əlim sənin əlindədir və təkcə sənə təsliməm" söyləsin.[1]

Eləcə də buyurublar: "Əgər bir qadın, əri ondan razı olmadığı halda yuxuya getsə, Allah mələikələri sübhə qədər ona lənət edərlər."[2]

Kişinin belə hədisləri təbəssüm, aramlıq və mülayim halda, əsəbiləşmədən həyat yoldaşı üçün oxuya bilməsi çox yaxşı və müsbət təsirə malik bir hərəkətdir.

## *GÖZƏL ƏXLAQ*

Kişinin müxtəlif növ ixtilaf və çətinliklərin əmələ gəlməsində təqsiri olmasa belə, yoldaşı ilə pis və tündlüklə rəftar etməyə haqqı yoxdur. Ər və arvadın isti ailə ocağını, uşaqların ilk təlim-tərbiyə məktəbini soyutmağa haqları yoxdur.

İslam tarixində oxuyuruq: Allah Rəsulunun (səlləllahu əleyhi və alih) səhabələrindən (dostlarından) biri dünyadan köçdüyü zaman Həzrət onun dəfn mərasimində iştirak edir və mübarək əli ilə onu torpağa tapşırarkən ölənin anası üzünü

---

1"Biharül-ənvar", 103-cü cild.

2"Biharül ənvar", 103-cü cild.

qəbrə sarı tutub deyir “Sənin üçün ağlamıram, axı nə üçün ağlayım? Bir halda ki, Peyğəmbər (səlləllahu əleyhi və alih)-in əli ilə torpağa tapşırıldın, mütləq xoşbəxtsən”. Anası qəbrin üstündən çəkilən zaman, Peyğəmbər (səlləllahu əleyhi və alih) üzünü səhabələrə tutub buyurur: “Elə bu saat qəbir onu elə sıxdı ki, sinəsinin sümükləri sınıq-sınıq oldu.” Səhabələr soruşdular: “Ya Peyğəmbər, o ki yaxşı adam idi!”

Həzrət buyurdu: “Bəli, amma evdəki rəftarı pis idi.”

Əgər insan əsəblərini cilovlayıb qəzəbini boğarsa, həm ailə problemləri öz həllini tapar, həm də ilk qəbir gecəsində rahat olar və Allah-Taala Qiyamət günü onu bağışlayar. İnşaallah!

## *HÜSNÜ-NİYYƏTLİ OLMAQ*

Böyük əhəmiyyətə malik olan məsələlərdən biri də, insanın cəmiyyət və ailədə mənfi baxışlı olmaması və bütün məsələlərə hüsnü-niyyətlə yanaşmasıdır. Mənfi baxışlı olmaq insanda kin, qüssə, qeybət və şayiələrin yaranmasına bais olur. Mənfi nəzərli adamlar Qiyamət günü məhşər səhnəsinə milçək şəklində daxil olacaqlar, çünki dünyada milçək kimi həmişə çirkinlik, eyb, nöqsan və iyrənc işlər ardıncadırlar.

Buna görə də dost və həmkarların yaxşılıqlarını, ələlxüsus ailənin yaxşı cəhətlərini nəzərə alaraq zəif nöqtələrinə göz yummalıyıq.

Həzrət İsa (əleyhissalam) bir gün öz səhabələrindən bir neçəsi ilə yol gedirdilər ki, murdar olmuş bir keçi ilə rastlaşdılar. Səhabələrdən hər biri o heyvanın bir eybini sadalamağa başladılar, amma Həzrət İsa (əleyhissalam) “Bu murdar olmuş heyvanın nə qəşəng ağ dişləri vardır!”-deyə onların eybləri sadalamaqlarının qarşısını aldı.

Allah peyğəmbərinin bu rəfarı bizə başqalarının eybini axtarmamağı, hətta bir murdarın belə cəsədində müsbət bir nöqtəni görməyi öyrədir.

## ÜÇÜNCÜ FƏSİL

### *LƏYAQƏTLİ QADININ SİFƏTLƏRİ*

Ötən səhifələrdə ləyaqətli qadınların iki xüsusiyyətinə işarə olundu, beləliklə söhbətimizi onların başqa sifətlərini saymaqla davam etdiririk.

### *HƏYAT YOLDAŞINI HİMAYƏ ETMƏK*

Ləyaqətli qadının digər gözəl və təqdirəlayiq sifətlərindən biri budur ki, öz ərini bütün dünyaya belə dəyişməsin. Bu məsələ bir neçə surətdə isbata yetir:

Birinci: Qohum-əqrəba və ya tanışlardan bəzisinin qadınının ərinə qarşı onun ardınca xoşagəlməz sözlər danışarsa qadın tam cəsarət, cürət və ədəblə öz ərinin tərəfini saxlamalıdır.

İkinci: Ailənin maddi vəziyyəti istər aşağı, istərsə də yuxarı həddə olduqda, başqa sözlə desək, ailənin pullu və pulsuz olması qadının rəftar və münasibətində dəyişiklik yaratmamalıdır. Əksinə, kasıbçılıq zamanı və maddi çətinliklərlə qarşılaşarkən ərinə qarşı daha artıq məhəbbət və mehribanlıq göstərməlidir. Əsla səbirsizlik edib öz qüdrət və dözümünü əldən verməməlidir.

Üçüncü: Süstlük, zəiflik, yaxud kiçik bir səhv müşahidə etdikdə, heç vaxt onu özgəsinə açıb söyləməməli, evin çatışmamazlıqlarını başqalarına bildirməməlidir.

### *QURAN VƏ HƏDİSLƏRİN YOL GÖSTƏRMƏSİ*

Şərif Quran bu barədə belə yol göstərir.

Ümumiyyətlə Quran bu nəzərə malikdir ki, insan gərək başqalarının eyblərini örtməklə yanaşı, eyni zamanda bilməlidir ki, özü başdan-ayağa eyb, nöqsan, günah və üsyankarlıqdadır. Əgər eybləri örtən Allah onun eyblərini camaatın gözündən gizlətməsəydi hər yerdə rüsvay olardı.

Bu böyük nemət müqabilində şükr edərək gözlərimizi başqalarının nöqsan və çatışmamazlıqlarından örtərək eyblərini görməməliyik. Bu mühüm məsələdə hamıdan çox qadın çalışmalı və bilməlidir ki, pullu və pulsuz olmağın hər ikisi insan üçün bir imtahandır. Yəni Allah insanı pullu və pulsuz olmaqla yoxlayır.

Qadın pulsuzluğuna görə heç vaxt ərini təhqir etməməli və yaşayışda yoxsulluq ilə üzləşdikdə öz ərini digər tanışları, həmkarları və qohumları ilə müqayisə etmək fikrinə düşməməlidir ki, bu surətdə ailənin şirin yaşayışı acı zəhərə çevrilər.

Hədislərdə deyilir ki, Əmirəl-möminin (əleyhissalam) hər vaxt xanım Fatimə (əleyha salam)-ın zahirdə kiçik və yoxsul evinə daxil olsaydı, rahatlıq hiss edər, təskinlik tapardı. Amma, əgər bir qadın salehə və eləcə də sayılan sifətlərə malik olmazsa və ərin haqqı ödənilməzsə çarəsi nədir? Çarəsi nəsihət etməkdir!

### *QADININ ÜRFİ QAYDALARA ƏMƏL ETMƏSİ*

Kişinin qadına qarşı hüququ əxlaqi vəzifələr və ürfi qaydalardan istisna olunur. Belə ki, kişinin öz arvadını "nə üçün partarlarını yumayıb və ya xörəyi yaxşı bişirməyib" deyə sorğu-suala tutmağa haqqı yoxdur. Kişinin qadına qarşı tam haqqı təkcə ər-arvad məsələləri ilə bağlıdır ki, bu barədə qadın gərək yalnız öz ərinə təslim olsun. Salehə qadın öz ərinin ruhiyyəsindən xəbərdar olub ərinin ondan bir şey

istəməsindən əvvəl onun istəyinə müvafiq əməl edən qadınlara deyilir.

### *MOİZƏNİN TƏSİR ETMƏSİ ŞƏRTLƏRİ*

Yuxarıda qeyd edildi ki, moizə üç əsas şərt əsasındadır ki, yalnız onların mövcud olduğu surətdə moizə təsir edib nəticə verəcəkdir:

1-Mehr-məhəbbət göstərmək: Yəni moizə edən mehribanlıq və ürək yanğısı ilə nəsihət etməlidir.

2-Dəlil gətirmək: Yəni moizənin əsası aşkar və məlum bir dəlil ilə qeyd olunsun.

3-Ürək genişliyinə malik olmaq.

Moizə zamanı sonuncu şərt çox mühüm əhəmiyyətə malik olması ilə yanaşı, həm də qeyd etmək lazımdır ki, böyük nemətdir. Belə ki, Allah-Taala Quranda Öz Rəsuluna bu cür xitab edir:

"Ey əziz Rəsul, Biz sənə geniş ürək və açıq qəlb əta etmədikmi?"[1]

Yəni, Allah-Taala Öz Rəsulunun mübarək sinəsinin genişliyini və ona mənəvi aramlıq və sakitlik əta etməsini minnət ünvanı kimi yad edir.

### *PEYĞƏMBƏRLƏR GENİŞ ÜRƏYƏ MALİKDİR*

Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) peyğəmbərliyə seçildiyi zamandan vəfat edənə qədər təbliğlərini adətən geniş ürəkli və çox səbirli olmaq əsası üzrə planlaşdırmışdı. Həzrətin öz vəzifələrini müvəffəqiyyətlə yerinə yetirməsi dəlillərindən biri çox ali bir xasiyyətə geniş ürəkliliyə malik olması idi.

Həmçinin, Mütəal Allah tərəfindən Musa ibn İmrana (əleyhissalam) xitab olunan zaman:

---

1"İnşirah" surəsi, ayə:1

"Ya Musa indi qardaşın Harunla Fironun yanına gedin ki, o küfrdə həddi aşmışdır və onunla tam mülayimliklə söhbət edin, bəlkə qürur və qəflət yuxusundan ayılıb haqqı qəbul etsin və öz Allahından qorxsun."[1]

Həzrət Musa (əleyhissalam) bu əmri eşitdikdən sonra, Fironun çoxlu hərbi təchizata, döyüşçü qüvvələrinə və qüdrətə malik olmasına baxmayaraq, Allah-Taaladan yalnız "ürək genişliyi", sakitlik və aramlıq istədi.

## *GENİŞ ÜRƏKLİLİYİN TƏSİRİNDƏ SÖZÜN NÜFUZU*

Aydındır ki, insan "geniş ürək" sahibi olarsa sözü nüfuz edər, amma əgər xoşa gəlməzliklər və çətinliklər qarşısında özünü itirərsə, moizə və haqq sözünün əsər və nüfuzunu əldən verəcəkdir. İnsan Allah-Taala ilə əlaqə sayəsində "geniş ürəyə" və möhkəm iradəyə malik olur. İnsanın Allah ilə rabitəsi nə qədər sıx və güclü olarsa, hümmət və iradəsi də bir o qədər möhkəm olacaqdır. Əgər ailədə, ata möhkəm iradəyə malik olarsa, uşağı tənbeh və ya danlamağa etiyac olmayacaqdır. Çünki ata söz nüfuzu vasitəsi ilə onları daha yaxşı surətdə tərbiyə edəcəkdir.

## *ƏR VƏ ARVADIN ZƏİFLİYİNDƏN YARANAN İXTİLAFLAR*

Qeyd etmək lazımdır ki, qadınlarınızda müəyyən bir çatışmamazlıq hiss etsəniz onlara moizə etməniz gərəkdir, heç vaxt bəd əxlaqlıq göstərməyin ki, lazım olan nəticəni verməyəcəkdir. Bilmək lazımdır ki, ixtilaf və çətinliklərin yaranmasında qadın həmişə müqəssir ola bilməz, çox vaxt hər iki tərəf təqsirkar olur. Bəlkə də, ailənin bir çox ixtilaf və narazılıqlarında əsas müqəssir kişidir ki, öz güc və qüdrətinə güvənir. Qadınların islah olunmasına çalışmağımıza

[1]"Taha" surəsi, ayə:43-44

baxmayaraq, özümüzü də yaddan çıxarmamalıyıq. Həyat yoldaşımızın islahından da mühümü öz əxlaqımızı müxtəlif pislik və çirkinliklərdən pak etməkdir. İlk növbədə özümüzü islah etməliyik ki, müxtəlif problemlərin yaranması və ixtilafların baş qaldırması zəminəsini azaltmış olaq. Belə də olmamalıdır ki, kişi məişət, iş və ictimai problemləri ev mühitinə çəkərək çətinlikləri evdə həll etsin. Buna görə ki, ata və ananın bədəxlaqlığı və əsəbiliyinin uşaqlara da xoşagəlməz və mənfi təsiri vardır. Psixoloqlar bu mühüm məsələni ciddi surətdə xəbərdarlıq ediblər ki, ata-ananın bəd əməlləri, kobud və əsəbi davranışı uşaqların əxlaq və xasiyyətini xarab edərək onların mənəvi şəxsiyyət kimi böyüməsində, hətta maddi işlərində böyük və islaholunmaz izlər buraxır.

### *EV İNSANIN XOŞ ƏXLAQ, MEHRİBAN OLMASI VƏ DÜZGÜN TƏRBİYƏ ALMASI ÜÇÜN İLK MƏKTƏBDİR*

Ev şəraiti uşaqların bir-birini düşünmək, məhəbbət, güzəşt və səfa-səmimiyyəti dərk etmələri üçün ilk insaniyyət sinfi olmalıdır ki, bütün bu sadaladıqlarımız orada öyrənilir. Evi ata-ananın dava-dalaş məskəninə çevirmək düzgün deyildir, çünki bu iş, uşaqların ən ümdə və mühüm olan mütləq hüququnu aradan aparır. O zaman övladlarınıza olan birinci böyük zülm öz tərəfinizdən hesab olunmazmı? Onların bədbəxt olmaları öz əlinizlə olmamışdırmı?!

Ata və ana ayıq surətdə, diqqət etməlidirlər ki, onların evdəki kiçik bir əməl və ya rəftarı uşaqların tərbiyəsinə birbaşa təsir qoyur. Övlad şəxsiyyətinin formalaşmasının ev mühitindən başlaması bir həqiqətdir. Əgər bu mühüm məsələdə süstlük göstərsək, aşağıda qeyd olunan Quran ayəsi bizə aid olacaqdır:

"Ey Peyğəmbər, de: O kəslər ziyan-kardırlar ki, özləri və yaxın adamlarını (həyat yoldaşı və övladlarını) Qiyamət günü

əbədi zərər və ziyana salarlar. Agah olun! Bu aşkar bir ziyandır."[1]

## *AİLƏ OCAĞININ İSTİLİYİ*

Əziz oxucular! Ailə mühitini isti saxlamaqdan ötrü evdəki şadlıq və aramlığınızı qoruyun!

Həyat yoldaşınızla yanaşı övladlarınızla da eyni təbəssüm və vüqarla davranın ki, pərişanlıq və nigaranlığı ev mühitindən uzaqlaşdırasınız.

Problem və çətinliklərlə qarşılaşarkən tam ciddiyyətlə rəftar etməyiniz müşgüllərin gözlənilmədən aradan qalxmasına zəmin yaradır. Qəm-qüssə, pərişanlıq ilan və əqrəb kimidir ki, onların aradan qaldırılmasında geciksəniz, onlar sizi aradan aparcaqlar.

Dilinizdən muğayat olun, məbada bir dil yarası ilə aranızdakı səfa-səmimiyyət və mehribanlığı uzaqlaşdırasınız.

Öz yoldaş və övladlarınıza məhəbbət göstərib, mülayim və qəlboxşayan sözlərlə lətafətli qəlblərini özünüzə cəzb etdirin ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) bu barədə buyurur:

"Ərin öz arvadına söylədiyi "səni sevirəm, səni çox istəyirəm" kəlməsi onun qəlbindən heç vaxt çıxmayacaq, onun mehribanlıq və səmimiyyət yaradan müsbət təsiri həmişəyaşardır."[2]

Bu kiçik cümləni dilə gətirib söyləməklə qadındakı məişət və məsuliyyət yükünün bütün ağrı-acısını, çətinlik və yorğunluğunu aradan aparmaq mümkündür ki, qadın əlavə qüvvə və tam hazırlıqla ailə həyatını və uşaqlarının tərbiyəsini davam etdirsin.

---

1"Zümər" surəsi, ayə:15

2"Vəsailüş-şiə", 7-ci cild, səh.10

Ailənin intizamı və möhkəmliyinin əsası məhəbbət, ər-arvadın arasında olan qarşılıqlı ehtirama bağlıdır. Odlu nəvaziş qığılcımlarını qəlbinizdə şölələndirin. Uşaqların ikitirəlik, pərişanlıq və qanıqaraçılıqdan, habelə mehribanlıq, mənəviyyət, məhəbbət və səfa-səmimiyyətin olmamasından çəkdikləri əziyyət qədər, maddi çatışmamazlıqdan çəkmirlər. Məhəbbət və nəvaziş istər-istəməz maddi çatışmazlıqların yerini tutacaqdır.

Həyatda qadın və kişinin dostluq, sədaqət, səfa-səmimiyyətin olması ilə, eləcə də uşaqlara qarşı nəvaziş və can yandırmaları olmasaydı, bəşəriyyət dəhşətli fəlakətə uğrayıb məhv olardı. Necə ki, şərqdə və qərbdə bütün bu ağır cinayət, zülm, təcavüzlər, adam öldürmə, qətl və qarətlər, eləcə də öz əslindən dönüb yad mədəniyyətə meyl edənlərlə yanaşı bu boşanma və ixtilafları səfa, səmimiyyət və mənəvi ruhiyyənin olmaması səbəbindən onlar ruhsuz bir əşyalara çevrilərək vücudlarında eşqdən, məhəbbət və atifi duyğulardan bir xəbər olmayan mövcudata bənzəyirlər.

## *MƏHƏBBƏT–İFFƏT MƏNŞƏYİDİR*

Ürəyində ərinə qarşı eşq və məhəbbət olan qadını heç bir xarici ünsür iffət və paklığından azdıra bilməz. Qadın və uşaqların yoldan çıxması və bir-biri ilə yola getməməsinin əsas mənşəyi bu nöqtədən başlayır ki, kişi öz ailəsinə qarşı lazım olan məhəbbət və mehribanlığı göstərmir.

Hər bir şəxsin fitri yaranışına əsasən, məhəbbət və sevgiyə ehtiyacı olması şəksiz, bu ehtiyacın kişidə qadından bir neçə dəfə çox və güclü olması ilə sübuta yetmişdir. Kişi bu mühüm məsələyə xüsusi diqqət yetirməli, mümkün olan müxtəlif yollarla öz yoldaşına məhəbbət göstərib onun etimadını qazanmalıdır. Belə ki, qadın öz ərini ürəyi yanan, mehriban və fədakar bir insan kimi qiymətləndirməlidir. Bu iş

ailə nəzminin sabit qalmasında təsirli rola malikdir. İmam Sadiq (əleyhissalam) buyurur:

"Həyat yoldaşlarına məhəbbət bəsləmək peyğəmbərlərin əxlaqi sifətlərindəndir."[1]

Başqa bir hədisdə isə buyurur: "Hər kəsin öz həyat yoldaşına məhəbbəti çox olarsa, Allaha imanı daha çoxdur."[2]

Eləcə də, "Biz Əhli-beytə o kəs daha əzizdir ki, öz həyat yoldaşına daha çox məhəbbət bəsləsin."[3]

Həmçinin, Həzrət Mühəmməd (səlləllahu əleyhi və alih) bu barədə belə buyurur:

"Sizlərdən ən yaxşınız o kəslərdir ki, öz həyat yoldaşlarına qarşı yaxşıdırlar və mən öz qadınlarıma qarşı sizdən daha yaxşıyam."[4]

Məsum İmamlar bu ibrətamiz və yolgöstərici nəsihətləri ilə ailə mühitinin xoşluq, asayiş və əmin-amanlıq mühitinə çevirməsini, eləcə də ailə inzibatını daha da möhkəmlənməsini istəmişlər. Belə ki, yer üzündə böyük bir cəmiyyətin nizam-intizamının, quruluşunun davamı ailədən başlanır. Ailə nizam-intizamının dağılması və məhv olması bəşər ictimaiyyətinin aradan getməsinə bais olur.

---

1"Vəsailüş-şiə", 7-ci cild səh.9

2"Vəsailüş-şiə", 7-ci cild səh.11

3"Vəsailüş-şiə", 7-ci cild, səh.11

4"Mən la yəhzurul-fəqih", səh.324 (beşinci hədis.)

## DÖRDÜNCÜ FƏSİL

### *QADIN VƏ KİŞİ HÜQUQU*

Ötən səhifələrdə işarə olunduğu kimi, kişinin qadın üzərindəki haqqı təkcə ər-arvad münasibətlərində xülasə olunur. Bişirmək, yumaq və s. kimi camaat arasında məlum olan vəzifələr kişilərin haqqı deyil, qadınların əxlaqi vəzifələrindəndir. Buna misal olaraq İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) qızının izdivacının ilk günü təbrik demək üçün Həzrət Zəhra (salamullahi əleyha)-nın mənzilinə gedərək, ev işlərinin o iki böyük şəxsiyyətin arasında bölüşdürməsini qeyd etmək olar. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) o zaman Zəhraya belə buyurdu: "Zəhra can, evin daxili işləri: çörək bişirmək, arpa-buğda üyütmək, evi təmizləmək, uşaq saxlamaq və s. bu kimi işlər sənin, odun və su gətirib ev ləvazimatını, eləcə də mənzildə ehtiyac duyulan məişət əşyararı tədarük görmək və s. Əlinin öhdəsinədir."

Sonra Həzrət Fatimeyi-Zəhra (salamullahi əleyha) bütün mömin qadınlara nümunə sayılacaq aşağıdakı cümləni söylədi:

"İşlərin bu cür bölünməsindən necə xoşhal
olduğumu Allahdan başqa heç kəs bilmir."[1]

---

[1] Bu hədis azacıq fərq və əlavələrlə "Biharül-ənvar"ın 10-cu cildinin 24 və 25-ci səhifəsində кəlmişdir və yuxarıdakı cümlənin yerinə belə deyilib: "Allah Rəsulunun (s) məni evdən kənarda kişilərlə üz-üzə кəlməkdən azad etməsinə кörə dünyalar qədər xoşhal oldum."

## *HÜQUQ VƏ MƏHƏBBƏT*

Kişi və qadın ər-arvad münasibətindən əlavə, bir-birinə ürək yandıran dosta çevrilməlidirlər. Əgər aralarında rəfaqət olmazsa iş çətinləşər. Ümumiyətlə, hər hansı bir yerdə, ələlxüsus ev mühitində əgər təkcə qanun hökm edərsə lazımlı nəticə hasil olmayacaqdır. Necə ki, təkcə məhəbbətin hakim olması nəticə vermir; qanun, məhəbbət və səfa-səmimiyyət birlikdə olmalıdır.

"Həqiqətən Allah (camaatı) ədalət və ehsana əmr edir."

Qadın və kişi İslam qanunlarına riayət etməyə vəzifəli olduqları kimi, bir-birinə qarşı ürək yanan və dost sözünün əsil mənasında olmalıdırlar.

## *HƏMKARLIQ*

Bir gün Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) Əmirəl-mömininin (əleyhissalam) mənzilinə gəldikdə onu mərci təmizləyən halda görür və bu işdən çox xoşhal olub buyurur: "Ya Əli, ev işlərində arvadına kömək edən hər kəsə, həcci-ömrənin savabı nəsib olar."

## *QADININ CİHADI*

Bir gün bir qadın Peyğəmbər (səlləllahu əleyhi və alih)in hüzuruna gəlib dedi: İndidən qiyamətə kimi yer üzünə gələcək bütün qadınlar tərəfindən sizə bir sualım vardır: nə üçün siz qadın və kişi arasında fərq qoymusunuz?! Kişilər üçün bir sıra əməl və savablar buyurmuşsunuz ki, qadınlar o savablardan məhrumdurlar. Misal üçün Allah yolunda cihad etmək. Allahın Rəsulu (səlləllahu əleyhi və alih) buyurdu:

"Qadının cihadı öz əri üçün yaxşı arvad olmaqdır."[1]

---

[1] əmirəl-mö'minin əli (əleyhissalam) buyurub:
,"Allah-Taala cihadı həm kişilər, həm də qadınlar üçün vacib etmişdir. Kişilərin cihadı Allah yolunda ölüm həddinə qədər can və mallarını fəda etmək,

Məhz buna görə də qadın evdə mümkün olan qədər ən ali tərzdə təmizliyə, yemək hazırlamağa, uşaqların tərbiyəsinə və həyat yoldaşına yaxşı qulluq etməyə məşğul olmalıdır ki, həmişə Allah yolunda cəbhənin ön cərgəsində cihad etmiş olsun.

## *KİŞİNİN HÜQUQU*

Peyğəmbər (səlləllahu əleyhi və alih) kişinin qadın üzərindəki hüququnu o həzrətdən sual etmiş bir qadına cavab olaraq belə buyurmuşdur:

1-Kişi hər zaman hər növ ləzzət və bəhrə aparmaq haqqına malikdir;

2-Kişinin icazəsi olmadan qadın onun malından istifadə edə bilməz;

3-Qadın çalışmalıdır ki, kişini narahat etməsin; əgər onu incitsə könlünü almamış yatmamalıdır.[1]

Bu zaman o qadın Allah Rəsulundan (səlləllahu əleyhi və alih) soruşdu: Bəs kişi zalım olsa necə? Yenə də bu hüquqlara malikdir?

Həzrət buyurdu: Bəli hər halda qadın öz əri müqabilində təvazökarlıq etməlidir və küsmək haqqı yoxudur.

Kişi də öz növbəsində arvadından həzz və ləzzət almaqdan başqa bir şeyi tələb etməyə haqqı yoxdur. Lakin qadının əxlaq, insanlıq və mehribanlıq baxımından evin bütün işlərinə ali bir səviyyədə yetişməsi lazımdır.

Bütün bunlarla yanaşı, qadın güzəştə gedən olmalıdır. Belə ki, əgər kişi evdən narahat vəziyyətdə gedərsə qadın

---

qadınların cihadı isə ərinə yaxşı qulluq etməkdir." ("Vəsailüş-şiə", 11-ci cild, səh.15)

[1] Rəsuli Əkrəm (s) buyurur: **"Sizin ən yaxşı qadınlarınız o qadınlardır ki, hər vaxt ərini qəzəbli halda körsələr, ona "sənin istəklərin müqabilində təsliməm və məndən razı olmayınca közlərimə yuxu kəlməz" desin."** ("Biharül-ənvar", 103-cü cild.)

qayıdan baş onun narahatlığını aradan aparsın deyə, kişi gələn zaman onu təbəssüm və gülər üzlə qarşılamalı, mülayim surətdə salam verməklə onu şad etməlidir.

Həmçinin, qadın əri qarşısında təvazökar, xoş üzlü və hövsələli olmalıdır ki, isti ev ocağını daha da isitsin. Xoş rəftar, məhəbbət, səfa və səmimiyyətlə düyün və yersiz münaqişələrin kökünü qoparıb mümkün olan yollarla narahat və qanıqara vaxtlarında ərinin ürəyini ələ almalıdır. Bütün bu sadalananlar qadın üçün bir vəzifədir.

## *ƏBU ƏYYUB ƏNSARİNİN HƏYAT YOLDAŞI*

Əbu Əyyub Ənsarinin gözlənilmədən iki-üç yaşlı bir uşağı dünyadan gedir. Uşaq dünyadan köçən zaman Əbu Əyyubun özü evdə olmur. Yalnız uşağın anası onun başı üstündə ağlayır. Amma elə ki, ərinin qayıdan vaxtı olduğu yadına düşür, onu qarşılamaq üçün özünü həmişəki kimi gülərüz və şad hazırlayır.

Səhəri gün Əbu Əyyub sübh namazını qılmaq üçün məscidə gedərkən ona deyir: "Əgər bir kəs sənə bir əmanət verib sonra almaq istəsə, o əmanəti qaytararsanmı?" Əbu Əyyub cavabında "Bəli qaytararam"-deyir. Bu zaman qadın əlavə edərək "Allah-Taala üç il bundan əvvəl bizə bir əmanət vermişdi ki, dünən onu bizdən aldı! Namazdan sonra gəl ki, uşağımızı torpağa tapşıraq"-söyləyir. Əbu Əyyub "Əlhəmdü lillahi rəbbil aləmin." deyib məscidə gedir. Məsciddə əziz Peyğəmbər (səlləllahu əleyhi və alih)-in hüzuruna gəlib macəranı onun üçün danışır. Həzrət ona buyurur: "Dünənki gecən mübarək olsun". Sən demə təsadüfən o gecə yoldaşı hamilə olur və ariflərin söylədiyinə görə Allah-Taala onlara əməlisaleh bir övlad nəsib edir.

## *KİŞİNİN RƏFTARI*

Əlbəttə, kişinin də vəzifəsidir ki, evə gəldiyi vaxt xoş əhval-ruhiyyədə olub qəm-qüssə və yorğunluğu unutsun. Dostları tərəfindən ya işdən və yaxud ictimai vəzifədən narahatlıq və çətinliyi olsa belə, onu ev mühitinə gətirməməlidir. Elə buna görə də bir döyüşçü evdəki əxlaqı sərt və kobud olmamalıdır. Çünki sərtlik və kobudluq cəbhənin ön xətti üçündür. Bu da əlinə bir əsir düşməyənə kimidir. Əgər düşmən döyüşçüsündən əsir tutsa mütləq kobudluğu kənara qoymalıdır.

Qadın və uşaqlara qarşı həddən artıq tələbkar olmaq müsəlman əxlaqına xas və rəva deyildir. Təkəbbür dostlar və həyat yoldaşı müqabilində deyil, yalnız Allah dininin düşmənləri qarşısında olmalıdır.

## *AİLƏNİN İNTİZAMINDAKI MÜHÜM AMİLLƏR*

Ailə intizamında ər-arvad münasibətlərində iki mühüm amil mövcuddur:

Birinci amil: iki nəfər arasındakı hakim qanunlar, yəni arvadın ərinə və ya əksinə olan münasibətlər.

İkinci amil isə birincidən daha mühüm və incədir: qarşılıqlı anlaşma, bir-birini düşünmək, mehribanlıq, səfa və səmimiyyət.

Əgər evdə "mənimki" və "səninki" sözləri, yaxud "nə üçün" və "nəyə görə" kimi suallar qarşıya çıxsa, bütün bunlar qara nöqtəyə çevrilərək nəticədə yaşayışı pozacaqdır.

## *ÜRƏYİN QARALMASI*

İmam Sadiq (əleyhissalam) buyurur: "Hərgah bir adam günah iş görsə, qəlbində qara bir nöqtə yaranar. İkinci günaha mürtəkib olduqda qəlbindəki qara nöqtə böyüyüb çoxalmağa

başlayır, axırda bu qaraltı bütün qəlbi əhatə edir ki, bu surətdə insan heç vaxt nicat tapmayacaqdır.[1]

"Sonra onlar ki, pis əməllərə və bəd rəftara düçar oldular (yəni Allahın əmrindən çıxıb, günah etdilər), kafir oldular və Allahın ayələrini məsxərə edib, yalan dedilər..."

İlahi ayələrə yalan demək və onları məsxərə etməyin nəticəsi Allah buyuran günahlara düçar olmaq səbəbi ilə ürəyin qaralmasıdır.

## *AİLƏ MÜHİTİNİN POZULMASI*

Ailə münasibətlərində qara nöqtə yaranarsa, ər və arvadın hər ikisi onu aradan qaldırmaq üçün məsuliyyət daşıyırlar. Məsum İmamların (əleyhimussalam) hədislərində oxuyuruq: Əgər ailədə ixtilaf baş verərsə, dərhal onu aradan qaldırın və münaqişəni həll etməyincə və bir-birinizdən razı qalmayınca gecəni sübh etməyin. Kiçik və cüzi ixtilaflar üst-üstə toplanaraq ailədə böyük çətinliklər əmələ gətirir ki, bunun sonu ya boşanmaya, ya da əzab-əziyyətli yaşayış və acı həyatla qurtarır. Münaqişənin boşanma ilə sona yetməsi Allahın ən çox qəzəbləndiyi işlərdən biridir.[2] Əgər yaşayış acı həyata səbəb olarsa, insan üçün işgəncəli zindandan belə pisdir. Hər iki halda övlad həyatının xətərə uğraması qətidir. Belə mühitdə böyüyən uşaqlar çox vaxt ruhi xəstəlik və ya müxtəlif günahlara düçar olacaqlar. Ərə getməkdə çətinlək çəkən, uşaq böyütməkdə, ailə saxlamaq bacarığı olmayan qızlar, həmçinin əsəbi, bəd əxlaq,

---

[1] İmam Sadiq (əleyhissalam) buyurur: "Hərкah insan кünah bir işə mürtəkib olarsa, qəlbində qara bir nöqtə yaranar. Əкər tövbə edərsə, o nöqtə də məhv olub aradan кedər. Yox əкər кünah işi кörməyi davam etdirsə, o qara nöqtə artmağa başlayıb bütün qəlbini tutar. Belə olanda o insan heç vaxt nicat və qurtuluş yoluna çatmaz." ("Üsuli-kafi", 3-cü cild, səh.373)

[2] Bu, Peyğəmbərdən nəql olunan bu hədisin məzmunudur: ("Vəsailüş-şiə", 14-cü cild, səh.266)

mədəniyyətsiz, tünd və kobud xasiyyəti olan oğlanlar adətən bu cür ailələrdə böyümüşlər.

## *QADINLARDA BƏYƏNİLƏN SİFƏTLƏR*

Qadında üç sifət: paxıllıq, qorxu və təkəbbür olmalıdır. İmam Əli (əleyhissalam) qadınlara yaraşan sifətlər barəsində belə buyurur:: "Qadındakı ən yaxşı sifətlər kişilərdə ən pis sayılan xasiyyətlərdir ki, təkəbbür, paxıllıq və qorxudan ibarətdir. Qadın təkəbbürlü olarsa, ərindən başqasına heç vaxt təslim olmaz. Həmçinin, əgər qadında paxıllıq sifəti olarsa özünün və ərinin malını qorumaqda ciddi-cəhd göstərib çalışqan olacaqdır. Eləcə də, qadın qorxaq olarsa, qarşılaşdığı hər bir hadisədən qorxub hiyləgərlərin toruna düşməyəcəkdir. Lakin sadalanan bu sifətlər kişilər üçün bəyənilməmişdir."[1]

Qadının təkəbbürlü olması naməhrəm qarşısında olmalıdır, kişinin düşmən müqabilində mərd və təkəbbürlü olması kimi. qadının naməhrəm qarşısıdakı təvazökarlığının heç bir mənası olmayıb, əksinə düzgün yolu təkəbbürə malik olmasındadır. Qadınların naməhrəm qarşısındakı təbəssüm və təvazö etməsi əksər hallarda naməhrəmlərin sui-istifadələri ilə nəticələnmişdir. Qadınlar bacardıqca naməhrəmlə qarşılaşmamalıdırlar. Amma, əgər naməhrəmlə üzləşib danışmaq lazım gələrsə təkəbbürlü olub heç vaxt mülayim söhbət etməməlidirlər ki, şəhvətləri qarşısında aciz qalan kişilər tamaha düşməsinlər.

Qeyd olunduğu kimi, qorxu qadınların bəyənilən sifətlərindən biridir. Qadın heç vaxt özünü qorxmaz və şücaətli göstərmə- məlidir ki, başqalarının nəzər-diqqətini özünə cəlb etsin. Məsələn, gecə vaxtı təkbaşına evdən çıxması ilə hiyləgər və namərdlərin toruna düşməsi mümkündür ki, bu da irz-namusunun, abır-həyasının əldən getməsinə və bədbəxtçiliyə

---

1 ("Biharül-ənvar", 103-cü cild, səh.237)

gətirib çıxara bilər. Bəyənilən qorxu qadının öz iffət və namusunu qoruduğu haldadır.

Paxıllıq da qadın üçün bəyənilmiş sifətlərdən biridir. Çünki bu xüsusiyyət qadının ərinin malından muğayat olmasına, israfa yol verməməsinə səbəb olur.

## BEŞİNCİ FƏSİL

### *ACI DİLLİLİK VƏ ONUN ÖVLADDAKI TƏSİRİ*

Əvvəldə işarə olunduğu kimi, ailə mühiti kiçik bir məmləkətə bənzəyir ki, daim istini qoruyub saxlamaq lazımdır. Quran nəzərindən evin böyüklüyü kişinin öhdəsinə olduğuna görə kişi elə rəftar etməlidir ki, ailədə sözünün gücünün olması ilə yanaşı ailə üzvlərinin də ürəyinə nüfuz tapsın.

### *MƏSULİYYƏTİ ŞÖVQLƏ YERİNƏ YETİRMƏK*

Ailə üzvləri, xüsusilə də qadın, öz başına olmamalıdır və qadın kişinin sözünü qəbul edib, ikrah və məcburiyyət üzündən deyil, ürəklə sözünə baxmalıdır. Çünki insanın nəsl və məsuliyyətinin özülü ixtiyar əsasında qurulub möhkəmlənir. Qadın öz vəzifəsini tanımazsa və təkcə ərinin məcbur etməsi üzündən ev işlərinə yetişsə ailə münasibətlərinin isti və möhkəmliyinə ümidvar olmaq mümkün deyildir. Kişinin evdən çıxması ilə qadın öz vəzifələrini yerinə yetirməyəcəkdir.

Qadının evdə, kişinin isə eşikdə öz vəzifəsini yerinə yetirərək söz deyib söz eşitməsi ürəkdən olmalıdır. Qadın ərinin sözünü nəzərə almaqla ev işlərini qəlbinin meyli ilə görməlidir. Məhz belə olan bir surətdə istər ev mühitində, istərsə də ölkənin hər hansı yerində müvəffəqiyyət, zəfər, səfa və səmimiyyət hakim olacaqdır.

Kişinin evin rəisi, yaxud hökm edən olmasına baxmayaraq bilməlidir ki, rəyasət və böyüklüyündə yalnız o zaman müvəffəqiyyət qazana bilər ki, ailə üzvlərinin qəlbinə nüfuz

edərək onların ürəyində özünə qarşı məhəbbət və inam yaratsın.

## *QADIN VƏ UŞAQLAR İTAƏTKARDIRLAR*

Arvad və uşaq atanın əmrinə itaət etməlidirlər, amma bu itaət quru və gücə əsaslanan qanunlara arxalanmamalıdır. Ayənin tərcüməsində

işarə olunduğu ki, evin böyüklüyü və başçılığı kişinin öhdəsinədir. Kişilər öz qadınlarının mühafizəçisi olub, onlar üzərində haqqa malikdirlər. Evin maddi və mənəvi işlərinin idarəsi onların öhdəsindədir. Çünki, kişidəki huş və dərrakə ailənin başqa üzvlərinə nisbətən daha çoxdur və ev xərclərini o təmin edir.

## *QADINLAR KİŞİLƏRİN ƏMANƏTDARIDIR*

Ləyaqətli qadınlar ərlərindən ayrılıqda belə, onların hüquqlarını, habelə Allahın qorunmasını əmr etdiyi haqları qorumalıdırlar.[1] Yəni istər evdə, istərsə də sair yerlərdə öz iffətlərini qorumalıdırlar. Əgər bir qadın iffətini qorumazsa, öz ərinə xəyanət etmişdir. Çünki, qadının iffəti kişinin haqqıdır. Özlərini başqalarına nümayiş etdirib göstərən qadınlar xəyanətkardırlar. Çünki qadın iffətsizliyi təkcə əxlaqsız əməllər etməklə deyildir. Hicaba riayət etməkdə süstlük edən qadınlar naməhrəmlərin nəzərini özlərinə cəlb edərək pozğunçuluq törədirlər.

Qadının iffəti kişiyə bağlıdır, amma qadının ixtiyarındadır. Həqiqətdə qadınlar öz ərlərinin əmanətçisi sayılır və bu əmanəti saxlamaqda var qüvvəsi ilə çalışmalıdırlar.

Qadının öz iffətini qorumasından əlavə, təvazökar, ərinin qarşısında həyalı və başıaşağı olması da gərəkdir. Hər bir

[1] "Nisa" surəsi, ayə:34

itaətkarın öz əmr edəni qarşısında təvazökar və başıaşağı olması kimi. Əgər bir qadın dili uzun, günahkar və ailə mühitinin soyuqluğuna səbəb ola biləcək işlər görsə bir növ özbaşınalığa əl atmışdır. Kişinin özbaşınalığı bəyənilməz olduğu kimi, qadın özbaşınalığı kişininkindən daha da pisdir.

Elə bu səbəbə görə iki mühüm məsələyə artıq diqqət yetirmək lazımdır.

### *BİRİNCİ MƏSƏLƏ: ƏXLAQSIZLIQ*

Əgər kişi evdə əxlaqsızlıq edərsə və öz yersiz və hədsiz tələblərini ailə üzvlərinə zorla qəbul etdirərsə, zorakı və zalımdır. Çox çəkməz ki, bu dünyada İslam qanunları vasitəsilə ədəblənər ki, qəbir əzabı da onun yolunu gözləyir.

### *QƏBRİN UZUN ƏZABI*

Əlbəttə, gözəl bilirsiniz ki, qəbir və Qiyamətin sorğu-sualı bu dünyanın sorğu-sualından çox çətindir. Oradakı əzab o qədər güclü və şiddətlidir ki, bir dəqiqəsi belə dünyanın minlərlə ilinə bərabərdir. Elə buna görə də Cəhənnəm əhli üçün bir dəqiqə qəbirdə olmaq bu dünyada min il əzab çəkməyə bərabərdir.

### *HƏZRƏT İSADAN (əleyhissalam) BİR HƏDİS*

Rəvayətdə vardır ki, Həzrət İsa (əleyhissalam) Allahın izni ilə ölmüş bir cavanı dəfnindən neçə an ötdükdən sonra dirildir. Ölmüş cavan dirildikdə qocalmış, tam əldən düşmüş, solğun, qaralmış və qəmli görünür.

Bu zaman ondan soruşurlar: Neçə vaxtdır ölmüsən? Deyir: On min ildən artıqdır. (halbuki ölümündən bir neçə dəqiqədən artıq keçməmişdi)

Yenə də soruşurlar: Qəbir aləmindən nə deyə bilərsən? Deyir: Elə ki, qəbrin üstünü örtdülər, Allah məmurları sual-

cavab üçün yanıma gəldilər. Suallarına cavab verə bilmədikdə mənə elə bir taziyanə vurdular ki, qəbrimi od bürüdü. İndi neçə min illər idi ki, bu taziyanənin odunda yanmaqdaydım.

### *BAŞQA BİR HƏDİS*

Başqa bir hədisdə deyilir ki, Həzrət İsa (əleyhissalam) bir qoca kişini ölümündən uzun illər ötdükdən və qəbrindən bir əsər-əlamət qalmadıqdan sonra, Allahın izni ilə onu dirildir. Qoca dirildiyi vaxt çox şad və xoşhal görünür. Ona sual verirlər ki, neçə vaxtdır ölmüsən? Deyir: Bir neçə dəqiqə olar. Qəbir aləmindən soruşduqda "Qəbrimin üstünü örtən kimi qarşımda başdan-başa yaşıl və geniş bir bağ göründü ki, yubanmadan ora tələsdim və məni orada huriləri qarşıladı" söylədi.

### *XƏBƏRDARLIQ*

Əxlaqsızlığı pis və acı dillik və nalayiq sözlər danışmaqla qarışdırmamalıyıq. Qeyd olunan məsələ nəinki söyüş söyməyin, həm də əxlaqsızlığın cəzasıdır. Pis danışmaq, söyüş söymək bəyənilməyib, xoşagəlməz sifətlərdəndir. Bu iş bir müsəlmandan hətta öz düşmənləri qarşısında belə gözlənilməməlidir. Əmirəl-Möminin (əleyhissalam) "Siffeyn" döyüşündə səhabələrindən bir dəstəsini düşmənə acı söz dediyini gördükdə buyurdu:

"Sizin nalayiq söyən və pis danışan olmağınızı xoşlamıram."

Müsəlman gərək düşmənlərini də yaxşı dua etsin və Allahdan onların hidayət olunmalarını diləsin.

## *ACI DİLLİYƏ AİD BİR HEKAYƏ*

İmam Sadiq (əleyhissalam)-dan bir hədisdə oxuyuruq ki, bir gün həzrətin dostlarından biri İmamla birgə yol gedirmiş. O geriyə qalmış nökərini səsləyir, amma nökər cavab vermir, ikinci dəfə də onu çağırır, lakin bir cavab eşitmir, üçüncü dəfə yenə onu səsləyir, amma nökərdən cavab gəlmədikdə onu bu sözlərlə söyüb deyir ki, ey haramzadə, səni çağırıram!

İmam Sadiq əleyhissəlam bu nalayiq sözü eşitcək dayanır, əlini belinə qoyub buyurur: "Nə dedin"? Yoldaşı cavab verir: "Yəbnə Rəsulullah, mən ki, sadəcə ona "vələdəzina" dedim, çünki onun ata-anası müsəlman deyil, Hindistan əhlindəndir.

Həzrət buyurur: Mənim onun ata-anası ilə işim yoxdur, nə üçün söyüş söyürsən?"

Sonra o həzrət sözünə davam edərək buyurur: Bundan sonra mənimlə yoldaşlıq etməyə haqqın yoxdur.

Deyirlər, nə qədər ki, İmam Sadiq (əleyhissalam) sağ idi, nə o səhabəni hüzuruna qəbul edirdi, nə də onunla yola çıxırdı.

## *DİGƏR BİR HƏDİS*

Başqa bir hədisdə gəlmişdir ki, bir gün yəhudilər İslam peyğəmbərinə (səlləllahu əleyhi və alih) acı, nalayiq sözlər demək üçün hiylə qururlar. Bir-bir həzrətin hüzuruna daxil olub ona salam əvəzi olaraq belə deyirlər: "Əssamu əleykum". Yəni sizin üçün ölüm diləyirik. Həzrət isə mətanətlə onların cavabında təkcə "ələykum" (yəni sizə olsun) buyurur.

Ayişə yəhudilərin bu ədəbsizliyindən əsəbiləşib onları söyməyə başlayır, "ölüm olsun sizə, ey donuz və meymun balaları!"-deyir.

Amma, Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) Ayişəni söyüş söyməkdən saxlayıb, buyurur:

"Əgər söyüş söyməyin həqiqəti təcəssüm etsə (cism surətinə düşsə) onlar ən çirkin surətlərə malik olarlar."

## *NƏTİCƏ*

Yuxarıdakı hədislərdən belə nəticə alırıq ki, müsəlmanlar ədəbli, mərifətli olub dillərini nalayiq və boş-boş danışıqdan, eləcə də söyüş söyməkdən saxlamalıdırlar.

Əgər qadın müqəssir olarsa, onun təqsiri sizin nalayiq, bihudə danışmağınıza dəlil olmamalıdır. Sizin haqqınız aradan getmiş olarsa, həyat yoldaşınızı, yaxud başqa bir kəsi söyməyə haqqınız yoxdur, əks halda qəbir əzabına düçar olacaq, qiyamət günü söydüyünüz söyüşlərə layiq, müvafiq sifətlərlə məhşur olacaqsınız.

## *İKİNCİ MƏSƏLƏ: UŞAQLARA OLAN TƏSİR*

Diqqət edilməli ikinci məsələ uşaqların ata-ananın rəftar, əməl və sözlərindən təsirlənməsidir. Bu əsasa görə gərək valideynlər nalayiq, boş-boş sözlər işlətməkdən çəkinsinlər. Ev mühitində, övladların gözü qarşısında baş verən bütün hadisələr, onların beyninə yazılaraq rəftarlarında mütləq öz əksini tapacaqdır. Bu barədə hədislərdən oxuyuruq: "Uşaq olan otaqda qadın və kişi yaxınlıq etməməlidir. Çünki övladlar ata-ananın hərəkətindən birbaşa təsirlənirlər."

## *İBRƏTAMİZ HEKAYƏT*

Bəziləri deyir ki, qadın əri ilə ixtilafa düşən zaman, uşaqlarını anası evinə aparır ki, ata-anasının soyuq münasibət və ixtilaflarını görüb ondan pis təsirlənməsinlər.

İnsafən bu yaxşı əməldir. Ailə mühitinin bir saat soyuqluğu belə övladın şəxsiyyətinin yaranmasına mənfi təsir göstərir.

## ALTINCI FƏSİL

### *QARŞILIQLI GÜZƏŞT VƏ MƏHƏBBƏT*

Qeyd olundu ki, tam surətdə iki nəfər arasındakı əxlaq müvafiqliyi qeyri-mümkündür. Bu mətləb o qədər aydın və məlumdur ki, filosoflardan bəziləri bu haqda hər bir kəs özünə bağlıdır–yəni mahiyyət nəzərindən başqası ilə fərqi vardır- söyləmişlər. Elmi ibarətlə desək, "insan özünə həsr olunmuş bir növdür. Yəni hər bir insanın vücud və varlığı başqası ilə fərqlidir. Buna görə də qadın və kişinin əxlaq sarıdan tam müvafiq olaraq sırf müsbət bir nəticəyə yetişməsini gözləmək lazım deyil.

İnsan ömrü boyu müxtəlif adət və ənənələrlə üzləşir. Ailə qurmaq fikrinə düşənlər bu mühüm məsələyə diqqət edib fikir verməlidirlər ki, ailə qurmaq məsələsində tam bərabərliyə nail olmaq mümkün deyil. İnsan öz istək və arzularının tam həqiqətə yetəcəyi barədə qətiyyətlə fikirləşməlidir.

Adət fərqi və ruhiyyələrin müxtəlifliyi məlum olduğuna görə evin isti ocağının soyuq və ruhsuz olmaması ilə yanaşı, yaşayışa ürək sıxıntısı və qəmginlik yol tapmasın deyə müxtəlif təqdirəlayiq tədbirlər fikirləşmək lazımdır.

Əvvəldə deyilənlər bunlara tutarlı cavabdır. Yəni qadın, kişi və ailənin digər üzvləri qarşılıqlı əfv, güzəşt, bağışlamaq, fədakarlıq qaydalarını nəzərə almalı və ələlxüsus kişi bu mühüm məsələyə daha artıq əhəmiyyət verməlidir.

### *GÜZƏŞTİN MÜSBƏT ROLU*

Əziz oxucular, bu cümləni öz həyatınız üçün ülgü götürün: "həmişə insan gözəl niyyətli olmalı, müsbət və yaxşı cəhətləri məharətlə qavrayıb mənfi və pis nöqtələrə nəzər salmamalıdır." İnsan yaxşı niyyətli olarsa və həmişə camaatın yaxşılıqlarına nəzər salarsa çətinlikləri həll olacaqdır. Amma

əgər bədbin və mənfi fikirli olsa, yaşayış onun üçün çətin olar. Mümkündür ki, belə insanlar axirətdə, məhşərə insan şəklində daxil olmasınlar.

Məsələn, bədbin və mənfi fikirli insanlar milçəyə bənzəyirlər ki, həmişə çirkin mühit və aludəlik sorağındadır. Bunlar həyat yoldaşlarının yaxşı və müsbət cəhətlərini görmür, sübhdən axşama qədər paltar yumaq, yemək bişirmək, uşaq saxlamaq, ev təmizləmək və s« bu kimi işlərə sərf etdikləri vaxt və zəhmətlərini heç sayır, xoşlarına gəlməyən kiçik bir şeyi bəhanə gətirərək etiraz və fəryad edirlər.

İnsan istər evdə, istərsə də başqa mühitdə gözəl niyyətli olub işləri yaxşılığa yozmalı, məişət işlərinə yaxşı baxaraq həyat yoldaşının səhvlərini əfv etməli və həmişə yaxşılıqlarını nəzərə almalıdır. Əslində hüsn niyyət və xoş baxışlı olmalı insan yaşayışında hakim olmalıdır. Ona görə məlumdur ki, hər bir şəxs, o cümlədən insanın həyat yoldaşı müsbət əxlaqi cəhətlərə və məxsus üstünlüklərə malikdir ki, əgər onlara diqqət yetirilsə, həyat öz şirinliyində qalacaqdır.

### *MÜSƏLMAN QARDAŞ HAQQINDA BƏDGÜMAN OLMAQ*

Bu barədə əziz İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) buyurur:

“Öz dini qardaşlarınız barəsində hüsnü-zənn edin, gözəl niyyətdə olun ki, ürəkləriniz səfa və paklıq tapsın.”[1]

Həmçinin bu barədə “Misbahüş-şəriət” kitabında (səh. 381-də) belə bir hədis qeyd olunmuşdur: “Din qardaşlarınızdan birini nalayiq və xoşagəlməz bir halda, yaxud bir məkruh işi yerinə yetirərkən görsəniz, onun hərəkətini yetmiş yolla yaxşılığa yozub ona lazım olan müsbət mənanı verin. Əgər bundan sonra da ürəyiniz aramlıq tapmazsa öz

---

1 “Misbahüş-şəriət”, səh.380

nəfsinizi danlayın ki, bir müsəlmandan gördüyünüz işi yetmiş dəfə yaxşılığa yoza bilməyib üstünə pərdə çəkə bilmirsiniz ki, onu üzrlü hesab edəsiniz. Belə olan halda siz iztirablı nəfsinizi danlamağa layiqsiniz.”

Məhz bu səbəbə əsasən, insan həmişə–istər cəmiyyətdə olsun, istərsə də ailədə, dost-tanışların, yaxın adamların yaxşılıq və üstünlüklərinə diqqət etməlidir. Başqalarının işini düzgünlüyə yozaraq səhvlərinə göz yummalıdır.

### *ÜRƏK SƏFASI HÜSNÜ-NİYYƏT NƏTİCƏSİNDƏDİR*

Gözəl niyyət və camaatın yaxşılıqlarına nəzər etmək insanın ürəyini səfalı edər. Əgər bir nəfər çirkin sifətləri özündən uzaqlaşdıraraq nəfsi ilə cihad və mübarizə edərsə bu hədəfə çata bilər. Bu zaman insan həmişə aramlıq və rahatlıq halında yaşayıb daima şadlığını qoruyar. Bu cür adamlar mənzildə heç vaxt ixtilaf etmir, heç kəsdən də yersiz ümid və istəkləri yoxdur.

### *HÜSNÜ-NİYYƏTİN DÜNYADA YAXŞI NƏTİCƏSİ*

İnsanlar məsum olmadıqları üçün, xəta etmək imkanı onlarda vardır. Qadının da səhv etməməsi, bütün işləri kişinin istədiyi kimi yerinə yetirməsi mümkün deyildir. Üstəlik bir xətanın baş verməsi imkanı təbii, ondan uzaq olmaq isə qeyri-mümkündür. Kişi gərək bu zəif nöqtələrə göz yumub əvəzində qadının gözəl əməl və müsbət cəhətləri qarşısında razılıq və qədirdanlıq etsin.

İnsan belə edərsə dünyası abad olar, narazılıq və ixtilafları sona yetər və həmişə şad olar və cəmiyyət əhli də ona ehtiram edər, heç vaxt əsəb zəifliyinə düçar olmaz və başqalarının ona olan məhəbbəti azalmaz, övladları həsəd, kin və digər ruhi xəstəliklərə tutulmazlar.

## *HÜSNİ-NİYYƏTİN AXİRƏT SAVABI*

Bütün bu sadaladıqlarımızdan da mühümü axirət səadətidir ki, Quran onu bizlərə belə vədə vermişdir:

"İman əhli gərək həmişə yüksək himmət sahibi olsunlar, Allahın məxluqlarına qarşı əfv və kəramətlə rəftar edib, bir-birlərinin pisliklərindən keçsinlər. Məgər istəmirsiniz ki, Allah da sizin haqqınızda məğfirət (bağışlamaq) və ehsan etsin? Əlbəttə Allah-Taala daha çox bağışlayan və mehribandır."[1]

Əmirəl-möminin (əleyhissalam) buyuruğuna əsasən "İnsan dünyada zəncirlənib biyabanların tikanları üstündə çılpaq sürüklənsə, amma bu dünyadan sonra (axirətdə) asudə və xoşhal olacağını bilsə, bütün bu çətinliklərə əhəmiyyət verməz."

İndi ki, əziz İslam bizi əfvə, kəramətə, xata və səhvləri görməməzliyə vurmağa, müsbət cəhətlərə meyl etməyə, hüsnü-niyyətli olmağa, pisliyi ürəyimizə salmamağa, bunların əvəzində yaxşılıq və müsbət cəhətləri nəzərə alaraq həm dünyamızı, həm də axirətimizi abad etməyə çağırırsa, bu surətdə əgər biz belə etsək, Allah-Taala da Qiyamət günü pisliklərimizin üstünü örtüb gizlədər ki, bundan qiymətli heç nə ola bilməz. Belə ki, məhşərin vəhşətli və qorxunc səhrasında insanın günahları görməməzliyə alınıb əməllərinin qara qovluğu üzə çıxarılmasın? Təkcə elə bu, insana bəs edər ki, başqalarının, o cümlədən ailəsinin pisliklərinə nəzər və diqqət edib üzə vurmasın.

Əziz oxucular bu şərif ayəni əmişə xatirinizdə saxlayın, hər səhər-axşam onun haqqında fikirləşib buyuruqlarına əməl edin və bilin ki, sizin dünya və axirət səadətiniz ona əməl etməyin sayəsindədir. Yeri var ki, bu Rəhman kəlamını qızıl suyu ilə yazıb qızlarınıza cehizlik qoşasınız.

---

1"Nur" surəsi, ayə:22

Bəli, bir-birinizin pisliklərinizi bağış-layın ki, Allah da Qiyamət günündə sizin günahlarınızı əfv etsin. Mənfi fikirli və bədbin olmayın, bir-birinizin pislik və nöqsanlarınıza, eləcə də həyat yoldaşınızın səhvlərinə göz yumun ki, Yaradan da sizin pislik və günahlarınıza Qiyamətdə göz yumsun. İnşaallah!

## *QADIN VƏ KİŞİ BİR-BİRİNİN ÖRTÜYÜDÜR*

Quran ər-arvadın rabitəsini çox gözəl və bariz ifadə ilə təsvir edərək mübarək "Bəqərə" surəsinin 187-ci ayəsində buyurur:

"Onlar (qadınlar) sizin (hicab, ismət və paklıq) libasınızdır və sizlər də onların iffət libasısınız."

Yəni, əgər aranızda kiçik bir ixtilaf baş vermişsə, onu öz aranızda həll edin. Heç vaxt səy göstərməyin ki, o ixtilafı başqasının yanına üzə çıxarasınız, hətta doğma ata-ananız da olmuş olsa belə.

Belə olan surətdə həm qadının, həm də kişinin öz ailəsində yaranan ixtilafları ata, ana və yaxın adamları üçün açıb söyləməyə haqqı yoxdur.

## *İXTİLAFIN HƏLL OLUNMASI*

İxtilaf və münaqişələri bacardıqca ailə çərçivəsində saxlayın və əgər onların açıb-danışmaqdan başqa çarəsi olmazsa, Quranın bizə göstərdiyi yoldan istifadə edin:

"Ər-arvad arasında mübahisə və ya ixtilafın yaranmasından qorxsanız, bir nəfər kişinin, bir nəfər də qadının qohumları və ya yaxın adamları tərəfindən hakim seçin. Əgər məqsəd kişi və qadının rabitəsinin islahıdırsa, Allah-Taala onları bu işdə müvəffəq edəcək. Həqiqətən Allah bütün işləri bilən və xəbər-dardır."[1]

---

[1] "Nisa" surəsi, ayə:35

Hakimlik və qazılıq ailə münasibətlərinin pozulmasına və ya ər-arvadın ayrılmasına gətirib çıxaracaqdırsa və ailəni xilas etmək üçün başqa bir çarə tapmadıqda olmalıdır. Hər iki tərəfdən bir, yaxud bir neçə nəfər ağsaqqal kimi seçilərək məsələni sülh yolu ilə sona yetirməlidirlər. Beləliklə, ixtilaf və münaqişəni ailədən kənarda müzakirə etmək sonuncu mərhələdədir ki, bir isti ocağın pozulması, ya da boşanma ilə üzləşmiş ola, yoxsa kiçik bir ixtilaf və mübahisə üstündə qəzavət məsələsinin ortaya atılması insafsızlıqdır.

### *NƏTİCƏ:*

Yuxarıda qeyd olunan mübarək ayədən məlum olur ki, mümkün olan həddə qədər ailənin daxili məsələləri, sirləri evdən kənarda müzakirə olunmamalıdır.

İnsanın paltarı bulaşıq olarsa, bu çirkinlik onun xəcalət çəkməsinə səbəb olduğu kimi, eləcə də qadın və ya kişinin nöqsanlarını başqalarının yanında həll etmək, buna bənzər ki, insan özü paltarını bilərəkdən bulaşdıraraq başqalarına göstərir. Bu onun öz abırının getməsi və utanmasına gətirib çıxaracaqdır.

Ər-arvadın borcudur ki, evdə ixtilaf salmasınlar, amma əgər ixtilaf düşərsə, onu öz aralarında həll edib evdən bayıra çıxarmamalıdırlar. bütün bunlarla yanaşı, ev mühitində iffət və güzəşt hakim olmalıdır. Qadınla kişi bir-birinə qarşı xoş rəftar edərək, hövsələli olmalıdırlar.

### *ŞƏRƏFLİ İNSANLARIN NƏSİHƏTİ*

Böyük şəxsiyyətlərdən biri deyib: “Evlənməyin ilk aylarında cinsi fitrətin güclü olduğuna görə, xüsusilə də ər-arvadın bir-biri ilə yaxın əlaqədə olduqlarına görə hər iki tərəfin əxlaq zəiflikləri və zahiri pislikləri görünməz qalır. Çünki:

"Sevgi və məhəbbət adamı kor və kar edir."[1] Amma bir il ötdükdən sonra qadın və kişi daha adiləşir və bundan sonra çatışmamazlıq və zəifliklər bir-birinin ardınca görünməyə, sonra ailə mühiti soyumağa başlayır ki, bəzən də boşanma və ayrılığa səbəb olur, yaxud yaşayış acı həyatla əvəz olur. Təbiidir ki, belə mühitdə tərbiyə alan uşaqlar ürəyi kinli boya-başa çataraq ruhən xəstə böyüyəcəklər.

## *QADIN VƏ KİŞİNİN FİTRİ MƏHƏBBƏTİ*

İlahi fitrət baxımından Allah ər-arvad arasında əvvəldən məhəbbət yaratmışdır. Lakin çox vaxt insanlar öz səhvləri ilə bu məhəbbətə zərbə endirirlər.

"Bu Allahın məhəbbət nişanələrindəndir ki, aramlıq tapmağınıza sizin üçün öz cinsinizdən yoldaş yaratdı ki, bir-birinizlə ünsiyyətdə olasınız və sizin aranızda dostluq, mehribanlıq bərqərar etdi (ki, həqiqətdə yaşayış, asayiş, rahatlıq və xoşluq buna arxalanır). Həqiqətən bunda düşünənlər üçün ilahi hikmət və dəlillər vardır."[2]

Yaşayışda mənfi fikirlər, bədbinliklər, anlaşılmamazlıqlar, dil yaraları yaranarsa, Allah verən məhəbbət donacaqdır. Çünki kiçik dil yarası, səhvləri üzə vurmaq və s... fitri məhəbbəti aradan aparmaq üçün böyük səbəblərdən biri hesab olunur. Bu cəhətdən İslamda kişilərə sifariş olunub ki, qadınlarına sevgi və məhəbbət bəsləsinlər. Əziz İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) bu barədə belə buyurmuşdur:

"Kişinin öz arvadına dediyi "mən səni sevirəm, mən səni çox istəyirəm" sözü heç vaxt onun qəlbindən çıxmaz."

---

1 "Hər kəs bir şeyə eşq bağlasa, o şey onun кözlərini bağlayar.".("Nəhcül-bəlağə", səh.330.)

2"Rum" surəsi, ayə:21

İmamların (əleyhissalam) rəftar və davranışlarını örnək edib, əfv və kəramət adətlərini özünüzə əsas və sənəd qərar verin.”

Bunun ailə mühitindəki nəzmin möhkəmliyi və uşaqların düzgün tərbiyəsinə lazım ola biləcək müsbət təsiri vardır.

### *XƏBƏRDARLIQ*

Əziz oxucular, əfv etməyi özünüzdə vücuda gətirib pisliklərdən keçin, səhvlərə göz yumun və həyatda müsbət fikirli olun. Həmişə çirkin və zəif nöqtələr sorağında uçan milçək kimi olmayın. Başqalarının (məxsusən ev mühitində) aydın, müsbət və yaxşı cəhətlərini görməyə səy göstərin, zəif və mənfi nöqtələrə əhəmiyyət verməyin ki, bu surətdə aranızda ixtilaf düşməz. Əgər bir münaqişə baş verərsə də, dərhal aradan gedər. Daha mühüm olan budur ki, Pərvərdigari-aləm Qiyamət günündə bu şəxslərin qara əməl naməsini açmaz və onların günahları üzərinə əfv qələmi çəkər.

## YEDDİNCİ FƏSİL

### *İSLAMDA EVLƏNMƏYİN ƏHƏMİYYƏTİ*

Gözəl və doğru insan tərbiyəsi üçün ailə mühüm məktəblərdən biri sayılır. Ailə mühitində ər-arvad bir çox insani fəzilətlərə nail ola bilər ki, bunun da nəticəsində çoxlu əxlaq pozğunluqlarını özlərindən uzaq edərlər.

### *EVLƏNMƏK PEYĞƏMBƏRİN (S) ŞƏRİƏTİDİR*

Müqəddəs İslam Şəriəti evlənməyə yüksək diqqət yetirərək onu bütün müsəlmanlar üçün təkid etmişdir. Belə ki, əziz Peyğəmbər (səlləllahu əleyhi və alih)buyurur:

"Allah yanında evlənməkdən daha sevimli, bəyənilən bir şey yoxdur."[1]

Həzrət Əmirəl-möminin Əliyyibni Əbitalib (əleyhissalam) buyurub:

"Evlənin! Çünki evlənmək Allah Rəsulunun (səlləllahu əleyhi və alih) sünnətidir ki, həmişə buyururdu: "hər kəs mənim sünnətimə tabe olmaq istəyirsə, (onda bilməlidir ki,) mənim sünnətimdən biri də evlənməkdir."[2]

İslam oğlan və qızlara daha tez evlənmələrini əmr edərək bu mühüm məsələyə o qədər təkid edir ki, hətta əziz Peyğəmbər (səlləllahu əleyhi və alih) evlənməməyi öz sünnətindən üz döndərmək kimi qiymətləndirmişdir. "Evlənmək" söhbəti olan ev ən yaxşı ev kimi tanımışdır.

---

1"Vəsailüş-şiə", 14-cü cild, səh.3-4.

2Yenə orada

## *YOXSULLUQ EVLƏNMƏYƏ MANEƏ OLMAMALIDIR*

İslam valideynləri, habelə onların simasında bütün insanları öz qız və oğlanlarını evləndirməyə sövq edir:

"Ərsiz arvadları, kənizləri və arvadsız kişiləri və öz layiqli qullarınızı (möminlər arasında, arvadsız kişi və ərsiz arvad qalmasın deyə) bir-biri ilə evləndirin. Əgər arvad və ya kişi kasıb olarsa, Allah Öz məhəbbəti ilə onları ehtiyacsız edəcəkdir. Allah bəndələrinin halından agahdır və Onun rəhməti böyük və tükənməzdir."[1]

Bu şərif ayə demək istəyir ki, kasıblıq evlənməyin qarşısına sədd çəkməməlidir. Əks halda bu şeytan vəsvəsəsidir. Şeytanın vədəsindən qorxmaq isə, həqiqətdə mehriban Allah barəsində sui-zənn etməkdir. Allaha qarşı bədgüman olmaq haramdır. Allah evlənən yoxsullara, onların çətinliklərinini aradan qaldıracağına və onları Öz köməkliyi ilə ehtiyacsız edəcəyinə söz vermişdir.[2]

## *PEYĞƏMBƏR (S) MÜSƏLMANLARIN EVLƏNMƏYİ İLƏ FƏXR EDİR*

Evlənmək və müsəlman nəslinin qorunması Allah rəsulunun iftixarıdır. Belə ki, Həzrət Mühəmməd (səlləllahu əleyhi və alih) buyurub:

"Evlənib ailə qurun və nəsil artırın ki, qiyamət günü sizlərlə, hətta ana bətnindən düşmüş uşaqla belə fəxr edəcəyəm."[3]

---

1"Nur" surəsi, ayə:32

2 İmam Sadiq (əleyhissalam) buyurur: **"Hər kəs yoxsulluq qorxusundan evlənməsə, deməli Allah Taalaya qarşı sui-zənn etmişdir. Hansı ki, Allah Taala buyurur: "Allah Öz lütfü ilə oları ehtiyacsız (zənкin) edəcəkdir."** ("Mən la yəhzürül-fəqih" kitabından.)

3 Rəsuli əkrəm (s) buyurur: "Evlənin, həqiqətən mən Qiyamət кünü ümmətlərə öz ümmətimin çoxluğu ilə üstün кələcəyəm (fəxr edəcəyəm). Hətta siqt

Əziz İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) başqa bir hədisdə buyurub: "Mən sizə peyğəmbər olmaqla yanaşı evlənir, dadlı yemək yeyir, camaatla əlaqə saxlayaraq onların arasında yaşayıram. hər kəs mənim sünnət və həyat tərzimdən üz döndərsə məndən deyil."[1]

### *EVLƏNMƏKDƏ MANEƏ OLMAMALIDIR*

İslam evlənməyin asan olması üçün sədd və maneələri bu mühüm işin yolundan qaldırmışdır. İslam nəzərincə cehiz və mehriyyə nə qədər az olsa bir o qədər yaxşıdır. Bir qayda olaraq Peyğəmbər (səlləllahu əleyhi və alih)-in, məsum İmamların (əleyhissalam) və İslam dininə iman gətirmiş ilk müsəlmanların adətindən məlum olur ki, evlənmək qarşısında maneə yoxdur, ona görə ki, onlar bütün çətinlikləri aradan götürmüşlər.

İslam batil və xurafat olan məsələləri kənara atmışdır. Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) bu barədə "Xurafat İslamın ayağı altında (əzilmiş və) aradan getmişdir"-deyə buyurmuşdur. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) öz izdivacı, eləcə də qızı Həzrət Fatimeyi Zəhra salamullah əleyhanın ər evinə getməsi bunu göstərir ki, İslam xurafat və cahiliyyətlə lazımınca mübarizə aparmışdır.

### *HƏZRƏTİ ƏMİRƏL-MÖMİNİN ƏLİ (Ə)-IN İZDİVACI*

Bir gün həzrət Əli (əleyhissalam) Allah Rəsulunun (səlləllahu əleyhi və alih) yanına gələrək bir az söhbətdən sonra Peyğəmbərə belə deyir: Ya Rəsuləllah, siz mənim dünya və axirətdə pənahım və köməyimə yetənimsiniz. Ya

---

olunmuş uşaq da böyüyüb Cənnətin qapısında dayanacaq. Ona "Cənnətə daxil ol!" deyiləcək, o isə "Məndən əvvəl ata-anam Cənnətə daxil olmayınca mən daxil olmayacağam!" deyə cavab erəcəkdir". ("Vəsailüş-şiə", 7-ci cild, səh.3)

[1] "Biharül-ənvar", 22-ci cild, səh.124

Rəsuləllah, mənə qarşı göstərdiyiniz bu qədər hörmət və mehribanlıqla yanaşı, ünsiyyət tapmaq üçün evlənib ailə sahibi olmaq istəyirəm. Ya Rəsuləllah, mən sizin yanınıza gəlmişəm və xahiş edirəm ki, qızınız Fatimənin nikahını mənə oxuyasınız.

Ümmü Sələmə deyir: Bu sözdən sonra Peyğəmbərin mübarək üzünün sevincdən nurlanmasının şahidi oldum.

Həzrət, Əmirəl-möminin (əleyhissalam) mübarək üzünə təbəssüm edib buyurdu: Ya Əbəl Həsən, mən Fatimənin nikahını sənə oxumaqdan ötrü mehriyyən varmı?

Əli (əleyhissalam) dedi: Atam-anam sənə fəda olsun, mənim vəziyyətim sizə məlumdur, təkcə bir qılınc bir zirehli paltar və bir dəvə varımdır ki, onunla da su daşıyıram. Bunlardan başqa heç bir şeyim yoxdur.

Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: Ya Əli, qılınca ehtiyacın vardır, çünki Allah yolunda cihad edib Onun düşmənləri ilə döyüşməlisən. Dəvə isə su gətirmək, xurma ağaclarını suvarmaq, ona yük yükləmək üçün lazımdır, mən sənin zirehli paltarını mehriyyə əvəzində səninlə Fatiməni (səlləllahu əleyhi və alih) evləndirirəm.

### *İSLAMIN BÖYÜK XANIMININ CEHİZLƏRİ*

Həzrət Fatimeyi Zəhra (əleyhissalam)-ın cehizliyi:

1-bir ədəd yeddi dirhəmlik köynək;

2-bir ədəd dörd dirhəmlik niqab;

3-bir ədəd qara xeybəri rəngində dəsmal;

4-bir ədəd taxta çarpayı (ortası xurma ağacı qabığından düzəldilmişdi),;

5-iki ədəd döşək (birinin içi yun, o birininki isə xurma yarpağından);

6-dörd ədəd üzü Taif dərisindən olan balış (ikisinin içi yun, o birisinin isə xurma ağacının yarpağından);

7-bir ədəd yun pərdə;
8-bir ədəd otaq həsiri;
9-bir əl dəyirmanı;
10-bir ədəd böyük mis kasa;
11-bir dənə su içmək üçün dəridən qab;
12-bir dənə süd üçün taxta kasa;
13-bir ədəd su tuluğu;
14-bir dənə üstü qırlanmış aftafa;
15-bir neçə dənə saxsı kuzə.

## *ZƏHRAYİ-BƏTULUN (Ə) ƏLİAÇIQLIĞI*

Həzrət Zəhra (əleyha salam) Həzrət Əli (əleyhissalam)-ın evinə aparıldığı vaxt yolda bir dilənçi ilə rastlaşırlar ki, Həzrət Zəhradan (əleyha salam) bir şey istəyir. Xanım gəlinlik paltarını o yolçuya verir. Daha sonra öz köhnə paltarını geyinib həmin libasla ər evinə gəlin gedir.

Həmin günün səhəri Peyğəmbər (səlləllahu əleyhi və alih) onların evinə təşrif gətirən vaxt əziz qızının gəlinlik köynəyinin əynində olmamasının səbəbini soruşduqda Fatimə (əleyha salam) deyir: Gəlinlik paltarımı keçən gecə bir yolçuya bağışladım.

Rəsulullah (səlləllahu əleyhi və alih) çox xoşhal olub buyurur: Atam-anam bu qıza fəda olsun.

Sonra üzünü Əmirəl-mömin (əleyhissalam)-a tutub buyurur: Ya Əli, Fatimə sənin üçün yaxşı xanımdır. Əgər o olmasaydı dünyada sənə layiq bir həyat yoldaşı tapılmazdı.

Həzrət Zəhra (əleyha salam)-a da belə buyurur: “Zəhracan, Əli də sənin üçün yaxşı yoldaşdır; əgər o da olmasaydı, sənə layiq bir həyat yoldaşı tapılmazdı.

## *İŞLƏRİN BÖLÜNMƏSİ*

Sonra Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurur: Evdən kənardakı işlər Əlinin öhdəsinədir. Evin daxilindəki işlər ilə Zəhrayi-Mərziyyə məşğul olacaqdır. Həzrət Fatimənin əvvəlcə işarə olunmuş böyük mənalı cümləsi belədir: "Bu işdən nə qədər xoşhal olduğumu Allahdan savayı heç kəs bilmir." Yəni iki dünyanın xanımı dünyalar qədər xoşhal oldu ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) onu evdən kənardakı işlərdən naməhrəmlərlə üz-üzə gəlməkdən azad etdi.

## *İSLAMİYYƏTİN ƏVVƏLLƏRİNDƏ EVLƏNMƏK NÜMUNƏLƏRİ*

İslam dininin ilk çağlarında izdivac mərasimləri adətən çox sadə surətdə keçirilərdi.

Bir gün bir qadın Allah Rəsulunun (səlləllahu əleyhi və alih) hüzuruna gəlib, ona ərə getmək niyyətində olduğunu bildirir. Amma Peyğəmbər (səlləllahu əleyhi və alih) onunla evlənmək istəmir, bununla belə, o qadını da naümid etmək istəmir. Buna görə də mübarək başını aşağı dikir. Elə bu vaxt məclisdəki səhabələrdən biri ayağa qalxıb "Ya Rəsulullah, əgər siz istəmirsinizsə onda məni onunla evləndirin" deyir.

Həzrət üzünü qadına tutub soruşur: "Razısanmı?"

O qadın "Bəli, ya Rəsulullah!" deyə cavab verir. Sonra o kişiyə buyurur: "Mehriyyə üçün nəyin var?" O da "Bu geyindiyim köynəkdən başqa heç bir şey yoxumdur." deyə cavab verir. Həzrət sual edir: "Quran bilirsənmi?" Deyir: "Vaqeə surəsini əzbər bilirəm." Həzrət qadından soruşur: "Vaqeə" surəsinin sənə öyrətməsi müqabilində bu kişiyə ərə getməyə razısanmı?" Qadın razı olduğunu bildirir. Peyğəmbər

(səlləllahu əleyhi və alih) beləliklə kəbin xütbəsini oxuyub qadının nikahını o kişi üçün bağlayır.

## *İZDİVAC BİDƏTİ*

Mövcud və qarşıya çıxan maneələri biz özümüzdən yaradaraq İslam adına yazmışıq və mütləq Qiyamət günü bütün bunlara görə cavab verməliyik. Bu bidət və xurafatların yaranması və möhkəmlənməsində hər kəsin payı varsa günahkardır. Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) evlənmədəki bütün maneələrini aradan qaldırmış və müsəlmanlara bu mühüm məsələ üçün çox təkid etmiş, tək qalıb evlənməməyi məkruh və xoşagəlməz buyurmuşdur.

Qadın və kişinin tək qalması və evlənməməsinin pis və bəyənilməz olması barəsində məsum İmamlar (əleyhimussalam) tərəfindən çoxlu hədislər söylənilmişdir. Məsələn, Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) buyurmuşdur: "Cəhənnəm əhlinin çoxu evlənməyən, ailə qurmayan kişi və qadınlardır."

Başqa bir hədisdə isə belə buyurur: "Ən pis ölüm, evlənməyib tək qalan kişi və qadınların ölümüdür."[1]

## *AİLƏ QURMAQ CİHADDIR*

Ailə qurmağın müasir cəmiyyətə, eləcə də gələcək nəsillərə çox müsbət və birbaşa təsiri vardır. Elə buna görə də qadının evdar olması, evi idarə etməsi və ev işlərini lazımınca yerinə yetirməsi İslamın nəzərincə Allah yolunda cihad sayılır. Belə

---

[1]Qadın və kişinin subay qalmasının məzəmmət olunması və kərahətli olması barəsində mə'sumlardan çoxlu hədislər кəlib çatmışdır. O cümlədən:
**"Cəhənnəm əhlinin əksəriyyəti evlənməyənlərdir. (ərsiz arvadlar, arvadsız kişilər.)"**
**"Ölümlərin ən pisi və acınacaqlısı evlənməyənlərin (ərsiz arvad, arvadsız kişi) ölümüdür."** ("Vəsailüş-şiə", 14-cü cild, səh.7-8)

ki, Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) bu zəmində belə buyurub:

"Qadınların cihadı ərlərinə gözəl qulluq etməkdir."[1]

Ailə qurmağın kişilər üçün də bir çox savabları vardır ki, məsum İmamlarımızdan (əleyhissalam) biri bu barədə buyurmuşdur:

"Öz əhli-əyalının rifahı və asayişi üçün çalışıb işləyən kişi Allah yolunda cihad edənlər kimidir."

Həmçinin hədisdə vardır ki, "bir mələk Qiyamət gününə qədər qadın və ya kişinin bədənindən damcılayan qüsl suyunun hər bir damlası üçün onların günahlarının bağışlanmasını diləyir."

## *EVLƏNMƏYƏ EHTİYAC HƏQİQƏTDİR*

Həddi-büluğa yetən hər bir oğlan və qızın evlənməyə ehtiyacı vardır. Əgər təbii olan bu ehtiyacla mübarizə olunarsa fəsad və bədbəxtlikdən başqa bir nəticə verməyəcəkdir. Susuzluğu aradan qaldırmaq üçün su içmək Allahın qoyduğu mövcud təbii qanunlardan biridir. Əgər bir kəs əziyyət və məşəqqətlə təbii qanunun əksinə hərəkət etsə, istər-istəməz təslim olmağa məcburdur, yoxsa özünü tələf edəcəkdir.

Həddi-büluğa yetmiş oğlan və qızların təbii ehtiyacları da belədir. Əgər bu ehtiyacın əksinə rəftar olunsa bu, cəmiyyətin pozğunluğuna gətirib çıxaracaqdır. Bu qanunun əksinə olan "inkişaf etmiş" qərb ölkələrinin bugünkü vəziyyəti buna canlı bir sübutdur ki, hal-hazırda bu mühüm məsələ heç bir kəsə gizli deyildir ki, bu ölkələr fəlakət və bədbəxtliyə doğru sürətlə addımlamaqdadırlar.

---

[1]"Vəsailüş-şiə", 11-ci cild, səh.15

## *İSLAM NƏZƏRİNDƏN İZDİVACIN ƏHƏMİYYƏTİNİN SƏBƏBLƏRİ*

İslamda evlənməyin əhəmiyyətini göstərən dəlilləri iki qismdir:

1-Cinsi hiss və qərizələrin təmin olunması.

Evlənməyin əhəmiyyəti bundadır ki, insanların cinsi qərizə və istəkləri əql və şəriətin qəbul etdiyi düzgün yollarla təmin olunsun ki, bu hislər tüğyan edib həddini aşmasınlar.

Əgər təbii və cinsi hislər Allah və ağlın bəyəndiyi yol ilə təmin olunmazsa amansız fintə-fəsad alovu cəmiyyəti bürüyəcəkdir. İnsanın özü susuzluq zamanı suya, aclıq zamanı yeməyə ehtiyacı olduğu kimi, eləcə də cinsi-təbii hiss və qərizələrin coşduğu zamanda da onların təbii yolla təmin olunmasına ehtiyac vardır. Eyni zamanda cinsi və təbii hislərin düzgün yollarla təmin olunmasını təkcə evlənməklə mümkün olmasını unutmamalıyıq. Məhz buna görə də İslam insanların fitri və yaranış istəklərinə müvafiq olaraq evlənib ailə qurmağı əmr etmişdir.

2-İnsanın düzgün tərbiyə olunması və sağlam ruhlu olması.

Ailə qurmaq məsələsində İslam dininin təkid etməsinin ikinci mühüm səbəbi düzgün insan tərbiyəsidir.

Əvvəldə qeyd olunduğu kimi, ailə mühiti insanın islahı və tərbiyə olunması üçün dəyərli bir məktəbdir. Belə ki, ailə mühiti bir çox Allah bəyənən sifət və işlərin mənşəyidir. Lakin bir çox mənfi və bəyənilməz xüsusiyyətlərin ailə qurmamağın nəticəsində yaranmasını mütləq qeyd etmək lazımdır.

Evdə və cəmiyyətdə bəzi meyl və istəklərimizi unutmalıyıq. Əgər belə olmazsa yaşayış çətinləşər. Bu fədakarlıq ailədə də lazımlı və zəruridir.

Ər-arvad Allah xatirinə evdə bir-birinin pis rəftarına dözsələr çox savab aparalar. Hədisdə belə deyilibdir:

"Əgər kişi arvadının pis əxlaqına göz yumub səbir edərsə Allah ona çəkdiyi əziyyətin əvəzi olaraq Əyyub peyğəmbərin (əleyhissalam) savabını verəcəkdir; və əgər bir qadın da ərinin pis əxlaqına dözüb səbir etsə Allah ona Asiyanın savabını əta edər."[1]

---

[1] Asiya Fir'onun arvadı olmasına baxmayaraq, çox imanlı və mö'minə bir qadın olmaqla Allah dərкahında böyük məqama və xas ehtirama malik idi.

## SƏKKİZİNCİ FƏSİL

### *AİLƏ NEMƏTİ VƏ ONUN ƏSƏRİ*

Ötən bəhslərdə ev mühitinin insan və onun düzgün tərbiyəsi üçün çox faydalı, sağlam ruh inkişafı üçün mühüm bir məktəb olmasını qeyd etdik. İnsan bu mühüm məsələyə yaxşı diqqət edib münasib fürsət və imkanlardan lazımınca istifadə edə bilsə və ümdə məsələ olan öz əsəblərini tam surətdə ələ ala bilsə həm özünü, həm də başqalarını düzgün tərbiyə və islah edə bilər.

### *ÖZÜNÜ VƏ BAŞQALARINI TƏRBİYƏ ETMƏK*

Bilirsiniz ki, İslam məktəbində təkid olunmuş vacib və mühüm məsələlərdən biri də insanın özünü yaxşı əxlaq sahibi edərək özündə sağlam ruh yaratması, qısa sözlə "özünü islah etməsi" problemidir. Özümüzü islah, nəfsimizi pak etmək ümdə vəzifələrimizdən sayıldığı kimi, başqalarının tərbiyə olunması haqda da fikirləşib onların düzgün tərbiyə və islah olunması üçün birinci mühüm addım olan ailə qurmaq da vacib vəzifələrdən biridir.

***"Ey iman gətirənlər! Özünüzü və ailənizi Cəhənnəm odundan qoruyun."*** [1]

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) peyğəmbərliyə seçilən zaman Allah tərəfindən öz qohum-əqrəbasını, yaxın adamlarını ilahi əzabdan qorxutmaq, yəni camaatı islah edərək tərbiyələndirmək işini və öz qohumlarını haqq yoluna dəvət etməyə əmr olundu:

***"Ey Peyğəmbər! Öz qohumlarını Allahdan qorxut!"*** [2]

---

1 "Təhrim" surəsi, ayə:6

2 "Şüəra" surəsi, ayə:214

Başqa sözlə, cəmiyyətin islahını öz ailə və qohumlarından başla, əvvəl öz ailəni, sonra isə sair cəmiyyət üzvlərini islah et!

Eləcə də özünün və həyat yoldaşının yaxşı əxlaqa yiyələnməyinə çalışmaq və övladlarını İslamın bəyəndiyi, göstəriş verdiyi kimi tərbiyələndirmək ataların çox böyük vəzifələrindən biridir. Bu mühüm məsələ yalnız insanın öz əsəblərini tam surətdə ələ alması və özünü pis, xoşagəlməz əməllərdən qoruması ilə mümkündür. Bilin ki, özünüislah, övladları düzgün tərbiyələndirmək və onların mənəvi şəxsiyyət kimi böyüməsi üçün ev mühitindən yaxşı bir ocaq yoxdur və tapılmayacaqdır.

Saleh və Allah bəyənən işlərimizlə həyat yoldaşımızın əxlaqını öz əxlaqımıza uyğunlaşdıra bilərik. Əlbəttə, bu öz rəftar və əxlaqımızın meyarı müqəddəs İslam şəriətinə araxalandığı zaman gerçəkləşə bilər.

### *AİLƏ–İNSAN TƏRBİYƏSİ OCAĞI*

Ailə ər-arvad münasibətlərinin yüksəlməsi, təkamülə yetməsi üçün gözəl bir məktəbdir. Ürək genişliyinə malik olub söz qəbul edə bilsək bu mühitin faydası daha artıq olacaqdır. Belə ki, bu növ işlərdə təkrar, israr etməyin və dözümlü olmağın çox böyük təsiri vardır. Habelə danışıq da təsir göstərir, lakin iş və əməllə göstərilən nəsihətin təsiri daha böyükdür.

Birinə ilk nəsihət təsir etməzsə və həmin nəsihəti təkrar edərək məsələni ciddi tutmaqla bu təsir daha artıq olacaq, agahlığı artacaqdır. Bu müvəffəqiyyət tənha hövsələli və ürək genişliyinə sahib olmaq sayəsində əldə oluna bilər.

Psixoloqların öz hədəflərinə nail olmaq üçün gördükləri işlərdən biri sözlərini təkrar etməkdir. Amma əməl və rəftarın əsəri daha çoxdur, belə ki, əgər kişi namazı ilk vaxtlarında

qılarsa arvad da namazı əvvəl vaxtda qılaraq ibadət əhlinə çevriləcəkdir.

Kişi evdə ədəblə danışarsa hər halda, istər-istəməz arvad və uşaqlarda təsirini qoyacaqdır. Təcrübə ilə sübut olunmuşdur ki, ədəbli ata-anaların övladları həmişə ədəbli olmuşdur.

### *ƏSMƏİNİN HEKAYƏTİ*

Dövrünün xəlifəsi, Məmunun vəziri olan Əsməi deyir: "Bir gün ova getmişdim, susuz və otsuz bir biyabanda yolu azdım. Susuzluq məni əldən salmışdı. Biyabanın ortasında bir çadır gördükdə sevindim və tez ona tərəf getdim. Bir cavan qadının çadırda oturduğunu gördüm. Ona salam verib su istədim. Bu zaman qadını rəngi qaçdı. Sonra dedi: Çadırda su var, amma sənə verməyə icazəm yoxdur. Lakin nahar üçün bir az süd varımdır. Onu sənə verərəm. Qadın südü mənə verdi, mən də içdim. Bir az keçməmişdi ki, uzaqdan bir qaraltı göründü. Qadın o qaraltını görən kimi su qabını götürüb çadırdan çıxdı və kənarda dayandı. Bu zaman qara və axsaq bir qocanın dəvəsi ilə gəldiyini gördüm. Bu, həmin qadının əri idi. Qadın ərini hörmətlə qarşılayıb onun ayaqlarını yudu. O nə qədər məhəbbət və xoşəxlaq göstərirdisə də kişi əvəzində pis rəftar edib öz yorğunluğundan yaranan acığını qadının üstünə tökürdü. Qadın nə qədər mehriban rəftar edirdisə kişi bir o qədər qadınla sərt və hirsli danışırdı. Bu təəcüblü mənzərəni müşahidə etməyə hövsələm çatmadı və çadırın kölgəsindən çəkilib günəşin qızmar istisi altında dayandım ki, qadın və kişinin belə rəftarlarını görməyim. Çadırdan çıxdıqda kişi mənə əhəmiyyət vermədi, amma arvadı ehtiram əlaməti olaraq məni müşayiət etdi. Cavan qadından bu ehtiramı görüb dedim: Cavanlıq və gözəlliyinə heyfin gəlmir?! Öz cavanlıq, gözəllik və əxlaqını nəyə görə bu bədəxlaq kişiyə qurban verirsən?! O, nə cavandır, nə gözəlliyi, nə də ki, sərvəti var. Nə

üçün onun qarşısında bu qədər təvazökarlıq edib ehtiram göstərirsən?!

Qadın bu sözləri eşidib çox təəssüfləndi və dedi: "Əfsus sənə! Böyük bir İslam dövlətinin vəziri olmağınla bu puç sözlərlə ərimin məhəbbətini ürəyimdən çıxartmaq istəyirsən. Nə üçün ara vurursan."

Əsməi deyir: Mən onun cavabına heyran qalmışdım, o isə deyirdi: "Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alih)-dən bir hədis eşitmişəm və istəyirəm bu hədisə əməl edəm ki, kamil imanla dünyadan gedəm. Həzrət o hədisdə buyurub:

"İmanın bir yarısı şükür, digər yarısı isə səbirdir."

Sonra sözlərinə əlavə etdi: Dünya istər yaxşı, istər pis, istər acı, istərsə də şirin ötüb keçəcəkdir. Amma mühüm məsələ insanın dünyadan imanla getməsidir. Dünya axirətə çatmaq üçün bir körpüdür. İnsanın son və həmişəlik mənzili axirətdir. Bu dünya müvəqqəti, axirət isə insanın əbədi və daimi məkanıdır.

### *NƏTİCƏ*

Yuxarıda qeyd etdiyimiz ibrətli hekayədən belə nəticə əldə edə bilərik ki, rəftar və hərəkət tərzimizi mütləq düzəltməliyik. İmanımızı kamil və möhkəm etmək üçün hər fürsətdən istifadə etməliyik. Nə qədər ki, fürsət var, səfər tədarükü (axirət) haqqında fikirləşək ki,

"Camaat günlərini qəflət yuxusunda keçirir, ruhları bədənlərindən çıxdığı vaxt ayılacaqlar."

Əbədi və həqiqi yaşayış bu dünyadan sonra başlayacaqdır və qəbrin ilk gecəsi əbədi həyatın başlanğıcıdır.

## *EVLƏNMƏYİN ƏSAS FƏLSƏFƏSİ NƏFSİ PAKLAMAQDIR*

Qadın və kişi ailənin isti ocağı kənarında təkamülə yol tapmalı, imanın iki əsas sütunu olan səbr və şükrlə rəftar edərək bir-birinə kömək etməlidirlər. Müqəddəs İslam

şəriətinin ailə qurmaqda məqsədi təkcə cinsi qərizələrin razı və rahatlıq tapması olmayıb (hərçənd bu da evlənmək fəlsəfəsinin bir qismətidir və İslam insan cəmiyyətlərində ümumi iffət və namusu qorumaq üçün evlənməyə ehtiyacı olan, yaşı çatmış oğlan və qızlara ailə qurmaq üçün əmr etmişdir), bu işdə əsas məqsədi daha mühüm bir məsələ, nəfsi saflaşdırmaqdan ibarətdir. Çünki insan ev mühiti və isti ailə ocağını özünü islah etmək və kamala çatmaq üçün ən gözəl məktəb kimi tanımışdır. İndi əgər bu qiymətli, həyatbəxş olan islah məktəbindən düzgün istifadə etməsək və ya onu dağıtsaq, bu müqəddəs İslam şəriət hakiminin təqsiri deyildir, əksinə müqəssir özümüzük ki, müxtəlif amillərlə ailə birliyinin soyuqluğuna və ya onun dağılmasına bais olmuşuq. Çox vaxt Müqəddəs Şəriət hakiminin göstərişini nəzərə almayaraq özümüz, yoldaşımız və uşaqlarımızdan yırtıcı bir heyvan hazırlayıb cəmiyyətə təhvil verir, beləliklə də özümüzü qəbir və Qiyamət əzabına düçar edirik.

## *NEMƏTLƏRİN ŞÜKRÜ*

Allah təbarək və taala buyurur:

"Əgər nemətlərə şükür etsəniz, sizin nemətinizi artıracağam; yox əgər küfr-nemət (nankorluq) etsəniz, sizi şiddətli əzaba giriftar edəcəyəm."[1]

Amma, nemətlərin şükrü tənha maddi nemətlərin şükründə xülasələnmir. Məsələn əlimizə pul çatanda dilimizdə şükür edirik. Əlbəttə, bu şükrün yalnız bir növüdür. İnsan Allahın bütün maddi və mənəvi nemətləri müqabilində şükr etməlidir.

1"İbrahim" surəsi, ayə:7

## *AİLƏ NEMƏTİNİN ŞÜKRÜ*

Əziz oxucular, qadın və kişi üçün ən böyük və ən gözəl nemətlərdən biri də ailə nemətidir. İnsan evlənib ailə qurduqdan sonra Allahı yaddan çıxartmamalıdır, Ailə mühiti ailə üzvlərinin orada tərəqqisi, mənəvi yüksəlişi üçün bir məktəbdir. Əgər insan Allahın bu böyük nemətindən yaxşı surətdə istifadə etməzsə, şərif Quran ayəsinə əsasən, "Həqiqətən Mənim əzabım çox şiddətlidir", yəni dünya və axirətdə Allah-Taalanın şiddətli əzabına düçar olar.

## *EV MÜHİTİ RƏHMƏT YERİDİR*

Allah kişini qadın, qadını da kişi üçün xəlq etmişdir ki, ailə qursunlar. Ailə mühitində aramlıq və rahatlıq tapsınlar. Ev mühiti nigaranlıq və pərişanlıqları aradan aparan bir yer olmalıdır. Qurani-şərif ev mühitini bu cür bəyan etmişdir: "Ev başdan-başa rüfət, mehribanlıq və rəhmət olan bir məhəldir."

Beləliklə, ailənin isti ocağının soyuqluğuna səbəb ola biləcək hər hansı rəftar bir növ küfr-nemətdir (nemətlər qarşısında nankorluq etmək).

Rüfət və məhəbbətin çox həssas, zərif və şüşə kimi nazik olmasını hamı bilməlidir. Bəzən bir acı söz neçə illik məhəbbət sarayının dağılması üçün kifayət edir və çox görünüb ki, yersiz və məntiqsiz söylənilən söz, bir-birinə qarşı bəd-gümanlıq neçə illik məhəbbəti ürəklərdən qopararaq ailə birliyini məhv edir.

## *AİLƏDƏ KÜFR-NEMƏTİN NƏTİCƏSİ*

Bir-birinə qarşı bədgümanlıq və etimadsızlıq yaranan bir evdə artıq heç vaxt Allah rəhməti və bərəkətləri nazil olmayacaq, üstəlik Allahın qəzəbi onu bürüyəcək və əmin-amanlıq, asayiş, aramlıq yeri olan ev, ürək sıxıntısı, müxtəlif narahatlıq və cürbəcür ruhi xəstəliklər mərkəzinə çevriləcəkdir. Bu ilahi əzabdır ki, küfr-nemət nəticəsində nazil

olur. Soyuqluq, narahatlıq, ümidsizlik, ixtilaf, ürəyin ölməsi və qəmginliyin hər hansı bir ailəyə hakim kəsilməsindən böyük əzab yoxdur. "Həqiqətən Mənim əzabım çox şiddətlidir."

Bu cür ailə üzvlərinin ən böyük giriftarçılığı ölümdən sonra bilinir, çünki əxlaqsız qadın və kişi qəbir əzabına düçar olub, onların bir-birinə vurduğu dil yarası və ürək sıxıntısı qəbir aləmində ilan və əqrəbə çevrilərək onların qəbrini dolduracaq və Qiyamət gününə qədər onlarla həmdəm olacaqlar.

Qurani-Kərim bu barədə buyurur:

"Ağır, dəmir gürz və əmudlar onların başı üzərində hazır olar."[1]

Bu odlu gürzləri biz məhz öz əməl və rəftarımızla məlaikənin əlinə veririk. Bu gürzlərin ağırlığı insan başına enən zaman o qədər şiddətli və əzicidir ki, adamı neçə min il aşağı aparır. Quranda gəlmişdir ki, "Hər vaxt əzab əhlindən olan bu dəstə qəbirdən, onun üzücü qəmindən, yandırıcı kədərindən nicat tapmaq üçün çıxmaq istəsələr, əzab mələkləri onları Cəhənnəmə sarı qaytarıb deyəcəklər ki, gərək yandırıcı od əzabını dadasız!"

"Zəqqum"[2] bizim rəftar və əməllərimizin nəticəsidir. Kişi və ya qadın evdə əxlaqsızlıq göstərib ailə mühitinin soyumasına səbəb olarsa, həqiqətdə özünün sabahı üçün "Zəqqum" əkmişdir. Cəhənnəmin "Həmim" adlı qaynar suyu da bizim mənfi rəftar və əməllərimizin nəticəsidir:

"Bu əzabı (onlar) öz-özləri üçün hazırlayıblar (yəni, bu onların öz günahlarının nəticəsidir) və Allah Öz bəndələrinə qarşı heç vaxt zülm etməz."[3]

---

1"Həcc" surəsi, ayə:21

2Cəhənnəmin şö'lələrindən yaranan ağacın adıdır.

3"Ali-İmran" surəsi, ayə:182

Kişi, qadının təqsirkar olub-olmamasına əhəmiyyət vermədən onun ürəyini yandırmaqla evdə soyuq münasibət yaradarsa, qiyamət günü cəhənəmin qaynar suyu, yəni "Həmim" onun ürəyini, dünyada öz mənfi əməl və rəftarı ilə arvadının ürəyini yandırıb, alovlandırdığı qədər yandıracaqdır.

Əlbəttə, əgər qadın günahkar olarsa, kişi şəriətin buyurduğu kimi, moizə etmək, küsmək və s. mülayim hərəkətlərlə rəftar etməlidir.

## *QARŞILIQLI KÖMƏK*

Ev işlərində qadına kömək etmək axirətdə müxtəlif ilahi nemətlərə, eləcə də huril-eyn surətinə çevriləcəkdir. Buna görə də kişi ev işlərinin hamısını qadının üzərinə yıxmamalıdır. Əlbəttə qadın da öz növbəsində evdarlıq vəzifəsini unutmamalıdır. Belə ki, Allahın razılığı, məsum İmamların (əleyhimussalam) ruhlarının xoşhallığı və Behiştə getmək həm qadın, həm də kişi üçün bir-birinə kömək göstərməkdədir.

Hədislərdə oxuyuruq: "Bir qadın yerə süfrə sərib və ya yığsa Allah ona rəhmət nəzəri ilə baxar, Cəhənnəmi ona haram edər. Bir şərtlə ki, Cənnət qapısını acı sözləri ilə öz üzünə bağlamasın."

## *İMAM ƏLİNİN (Ə) EV İŞLƏRİNDƏ GÖSTƏRDİYİ KÖMƏK*

Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) Həzrəti-Əli (əleyhissalam)-ın evinə gələndə İmamı mərci təmizləməklə məşğul olduğunu müşahidə edir və buyurur: "Əgər kişi ev işlərində arvadına kömək edərsə, Allah-Taala xoşhal olub ona rəhmət nəzəri ilə baxar və Behişti onun üçün vacib buyurar. Həmçinin, hər kəs Allah xatirinə ailəsinin rəhmət, rahatlıq və asayişi yolunda zəhmət çəkib iş görərsə, Allah yolunda cihad edənlərdən sayılar."

## *PEYĞƏMBƏR (S)-DAN BİR HƏDİS*

Peyğəmbərdən nəql olunubdur ki, o Həzrət belə buyurmuşdur: Merac gecəsi mələklərin qəsrlər tikib, iş görməklə məşğul olduqlarını gördüm. Amma bəzən əllərini işdən çəkir və iş görmürdülər. Bunun səbəbini Cəbraildən soruşdum. O dedi: Bu qəsrlərin tikilməsi üçün lazım olan materiallar dünyadan göndərilir. Yəni insanın gözəl və saleh əməlləri bu qəsrləri tikərək digər Behişt nemətlərinin işə düşməsi üçün vasitə, avadanlıqdır.

Məsələn, Behiştdəki Huril-eynin insana qismət olması həyat yoldaşına xidmət etməyin nəticəsindədir. Həmçinin, xalqa edilən xidmətlərin savabı qəsrə çevriləcək, namaz və sair ibadətlər isə altından çaylar axan bağlara dönəcəkdir.

Peyğəmbər (səlləllahu əleyhi və alih)-in səhabələrindən biri ona dedi ki, bizim axirətdə qəsrlər, huril-eyn və çoxlu nemətlər varımızdır. Həzrət buyurdu: Bu şərtlə ki, od göndərib onları yandırmayasınız.

Yəni günahlar insanın yaxşı və saleh əməllərini yandırıb külə döndərəcək bir oddur.

## *BİR NÜMUNƏ*

Misal üçün, aşağıdakı nümunəni göstərmək olar. Əgər bir kişi sübhdən axşama qədər iş görüb, zəhmət çəksə belə, amma axşam evə qayıdarkən üzünü turşutmuş və narahat olarsa, belə ki, hətta öz arvad-uşaqları onunla söhbət etməkdən çəkinsələr, bu işin Allah yanında heç bir dəyəri yoxdur və Allah yolunda cihad hesab olunmur.

## *XƏBƏRDARLIQ*

Əziz oxucular! Ev mühitində üzü turş olmayın, qəm, qüssə və narahatlığı ev daxilinə gətirməyin. Siz əlbəttə evdən kənarda iş görərək yorulur və yorğun olursunuz. Yoldaşınız da evdə işlə, fəaliyyətlə məşğuldur. O da yorğun olur. Onda gərək bir-birinizin yorğunluğunu başa düşüb dərk edəsiniz, nəinki düzgün olmayan və qeyri-İslami rəftarlarla bir-birinizin yorğunluğunu daha da artırasınız. Əziz oxucular, bu kitabda oxuduğunuz müxtəlif bəhs və dərslərə əhəmiyyət verib onları həyata keçirmək üçün səy göstərin ki, Şəriətin Müqəddəs qaydalarına və məsum İmamların (əleyhimussalam) nəsihətlərinə əməl etməklə Behişti özünüz üçün satın alıb nemətlərini qabaqcadan əldə edəsiniz. Bu iki günlük dünya ötəri və müvəqqətidir. Əbədi və həmişəlik qalan sizin yaxşı ya pis davranış və əməllərinizdir. Unutmayın ki, əməlləriniz mücəssəm olacaqdır. Ehtiyatlı olun, bu əməllər qəbir evi və Qiyamətdə sizinlə yaxın və birlikdə olacaqdır.

## DOQQUZUNCU FƏSİL

### *AİLƏ TƏRBİYƏ VƏ İNSANI İSLAH MƏHƏLLİDİR*

Ailə mühiti düzgün tərbiyə və insani xüsusiyyətlərin formalaşması üçün münasib yer və məhəldir. Fürsəti gərək əldən verməyək ki,

"Bilin ki, həyatda bir çox fürsətlər vardır ki, Allah tərəfindən əsən nəsim küləklərə bənzəyir. Bu fürsət və nəsimlərdən istifadə etməyə çalışın."

Belə fürsətlərdən özümüz və uşaqlarımızın düzgün tərəbiyəsi və islahı üçün yerindəcə istifadə etməliyik.

### ƏMƏL İLƏ NƏSİHƏTİN ƏSƏRİ

Kişidə ürək genişliyi olsa vəzifələrinin yerinə yetirilməsində də bacarıqlı olar. Moizə və mehriban rəftar nəticəsində qadının könlünü tez bir zamanda ələ almaq olar. Elə buna görə də kişi evdə həm nəsihət edən, həm də təbliğatçı olmalıdır. Əgər edilən bu moizə əməl ilə birlikdə olarsa təsiri iki qat olub lazımlı tərbiyəni özündə cilvələndirəcəkdir. Misal üçün, kişi evdə gecə namaz qılıb ibadət edəndirsə, qadının gecə namazı qılmamağına baxmayaraq tədricən o da ərinin saleh əməlinin təsiri altına düşəcək və çox çəkməyəcək ki, qadın da gecələr oyaq qalıb namazı və ibadət əhlinə çevriləcəkdir.

### *KİŞİNİN RƏFTARININ QADINDA TƏSİRİ*

Təbiidir ki, qadın qeybət, töhmət, şayiə yaymaq, böhtan və s. söylədiyi zaman ərinin əziyyət, nifrət və narahatlığı ilə qarşılaşarsa, günahın meydana gəlməsi zəminələrini hazır görməyəcək və nəticədə qeybət və töhmət və s. kimi çirkin əməllər sizin evinizdən uzaqlaşacaqdır.

Əksinə, kişi evdə sədaqətli olmayıb hiyləgərlik və nadürüstlük edərsə, qadın öz ata evində sədaqətlə böyümüş olsa belə, az bir müddətdə öz sədaqətini itirəcək, yalançı və hiyləgərə çevriləcəkdir. Həmçinin, əgər qız ata evində olarkən namazını camaatla və əvvəl vaxtda qılmasına baxmayaraq, namaza və ibadətə laqeyd, yaxud az diqqət edən bir kəsə ərə gedərsə, çox çəkməz ki, öz ərinin xasiyyətini götürəcəkdir. Əgər qadın ərindən iffət və paklıq körsə iffəti daha da artacaq və əgər Allah göstərməsin iffətsizlik və ya napaklıq müşahidə edərsə iffətsiz və namussuz olacaq. Eləcə də ərindən laqeydlik və ya xudbinlik görərsə, az bir zamanda iffət və hicabında zəiflik edib süstlük göstərəcəkdir.

Quran və Əhli-beyt (əleyhimussalam) hədislərindən də keçdikdə, təcrübə sübut etmişdir ki, hicabına fikir verməyən qızlar mömin ərlərinin evinə köçərkən, ev məktəbi və dərsi onlar üçün həqiqi tərbiyə ocağı olub, onları iffətli və imanlı olmağa səsləmişdir. Elə namuslu qızlar da olub ki, İslami və dini məsələlərə əhəmiyyət verməyib Allahın halal-haramına diqqət etməyən oğlanlara ərə getdikdə iffət və hicabda səhlənkar, diqqətsiz olublar.

### *AİLƏDƏ SƏDAQƏTİN VACİBLİYİ*

Əgər kişi və qadın ev mühitində sədaqətli və məhəbbətli olmasalar, dünya və axirətdə hamının gözündən düşəcəklər. Çox müşahidə olub ki, qadın öz ərinin mehribansızlıq və məhəbbətsizliyi nəticəsində öz məhəbbətini itirib bu da bəzən iffətsizliyə səbəb olur. Səy edin, məsləhət üzrə də olsa, yalandan uzaqlaşın. Çünki hətta çarəsizlik halında belə murdar ət yemək və ya şərab içmək kimi olan qeybət, yalan və s. mütləq öz pis təsirini göstərməlidir. Qeybəti rəva bilmək təkcə o yerdədir ki, daha mühüm, məsləhətli bir iş irəli gəlmiş olsun. Məsələn, əgər birinə zülm edilərsə, şəriət hakiminə

şikayət etməyə haqqı vardır. Hərçənd bu da qeybət sayılır, amma İslam nəzərindən belə qeybətə icazə verilir. Əgər əli şəriət hakiminə çatmazsa, bu zaman ona olunan zülmdən fəryad edərək məhz bu vasitə ilə zalımı cəzasına çatdırmalıdır.

### *İCAZƏ VERİLƏN QEYBƏTƏ BİR NÜMUNƏ*

Hekayət olunmuşdur ki, bir şəxs Peyğəmbər (səlləllahu əleyhi və alih)-in hüzuruna gəlib deyir: Qonşum mənə əziyyət edir. Həzrət buyurur: Bu işə səbir et, çünki, yaxşı qonşu təkcə qonşusuna əziyyət etməyən qonşu deyil. Bundan da (qonşusuna əziyyət etməyən qonşudan da) yaxşı qonşu o şəxsdir ki, qonşusunun əzab-əziyyətinə dözsün."

Bir müddət ötdükdən sonra kişi Peyğəmbər (səlləllahu əleyhi və alih)-in hüzuruna gəlib öz qonşusunun əlindən şikayət edir. Yenə də həzrət həmin şəxsə səbir etməyi əmr edir, bunun əvəzində savabının böyük olmasını ona xəbər verir.

O kişi üçüncü dəfə qonşusunun əziyyətindən həzrətə şikayət etdikdə Həzrət əməli olaraq qeybətə icazə verib buyurur: Cümə günü camaatın küçə-bazarda çox get-gəl edən vaxtında mənzil ləvazimatı və vəsaitlərini evdən qırağa çıxart, arvad-uşaqlarını da onun üstündə oturt. Hər kim bu işin səbəbini soruşsa, de: "Vay, qonşunun zülmündən!"

O şəxs həzrətin buyuruğuna əməl edir. Çox çəkmir ki, qonşusu bu işin nəticəsində hamının onun verdiyi zülm və əziyyətindən agah olduğundan xəbər tutur və o kişinin yanına gedib ondan xahiş edir və söz verir ki, bir daha onlara əziyyət etməyəcək. Beləliklə o qonşu islah olur. Quranda gəlibdir:

"Allah, camaat haqqında aşkar pis danışmağı–bir kəsə zülm edildiyi hal istisna olmaqla– xoşlamır. Allah-Taala Öz bəndələrin sözlərini eşidən və onların necəliyini biləndir."[1]

---

[1] "Nisa" surəsi, ayə:148

## *YALANIN RƏVA GÖRÜLMƏSİ BARƏDƏ*

Bu ayədən məlum olur ki, qeybət, bu qeyd olunan xüsusi haldan başqa, rəva deyildir.

Yalan danışmaq da bu cürdür. Yalan danışmağın günahı çox böyükdür. Belə ki, Qurani-şərif yalan danışmağı bütpərəstliklə eyni səviyyədə zikr etmişdir:

"Bütlərin çirkinliyindən və batil sözdən (yalan və boş-boş danışmaq, qeybət etmək və s« kimi) uzaq olun."[1]

Amma bəzən bir mühüm məsləhət qarşıya gəlir ki, o zaman yalan danışmaq halal olur. Belə ki, əgər yalan danışmaqla bir günahsız ölümdən nicat tapacaqsa, o zaman yalan demək nəinki caiz, hətta vacib olur. Amma hər halda, yalan danışmaq hər cür olursa olsun sədaqətsizliklə birgədir və öz pis təsirini hökmən göstərir. Məhz elə buna görə də əxlaq elmi mütəxəssisləri naçarlıq hallarında belə rəva görülmüş günahları imkan daxilində düçar olmamağı sifariş və məsləhət edirlər.

## *İMAM XOMEYNİ (R.Ə) TƏRƏFİNDƏN BİR HƏDİSİN TƏFSİRİ*

Əziz İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) buyurub:

"Qeybət etməkdən çəkinin, həqiqətən o, Cəhənnəm itlərinin yeməyidir."

Böyük ustadımız, İslam İnqilabının əzəmətli rəhbəri, İmam Xomeyni (rə) həzrətləri bu hədisi belə təfsir etmişdir: "Çox qeybət edən şəxsin həqiqəti dəyişilib, it şəklinə düşür ki, onu mütləq Cəhənnəmə sarı aparacaqlar. Dünyada etdiyi qeybətlər Qiyamət günü çirk, qan və iylənmiş ətə dönüb yemək üçün bu

---

[1] "Həcc" surəsi, ayə:30

itin qabağına atılacaq. Bu yeməkdən (çirk və qan) yeyən zaman bütün bağırsaqları parça-parça olub alovlanacaqdır."

## *QEYBƏTİN MƏNASI*

Peyğəmbər (səlləllahu əleyhi və alih)-dən qeybət haqqında soruşanda, həzrət buyurdu: "Qeybət–bir müsəlman qardaşın arxasınca elə sözlər danışmaqdır ki, əgər həmin sözlər aşkar olarsa, haqqında danışılan şəxs narahat olar."

Təəssüflər olsun ki, bu günahın böyük günahlardan hesab olunmasına və onu edən üçün Cəhənnəm odu və "Həmim" suyu vədəsi verilməsinə baxmayaraq bizim məclislərimizin noğulu və şirnisidir.

## *QEYBƏTİN HƏQİQƏTİ*

Bir gün Ayişə Peyğəmbər (səlləllahu əleyhi və alih)-ə deyir: Filankəsin boyu balacadır. Birdən həzrətin üzünün rəngi dəyişir və buyurur: Ayişə nə üçün qeybət etdin? Qus! Elə ki, Ayişə qusur, ağzından bir miqdar iylənmiş ət çıxır. O təəccüblənib deyir: Ey Allahın Rəsulu (səlləllahu əleyhi və alih) mən ki, ət yeməmişdim? Həzrət buyurur: Məgər Quran oxumamısan?[1] Quran buyurur:

"Bir-birinizin qeybətini etməyin, sizlərdən bir kəs var ki, öz qardaşının ətini ölmüş halda olarkən yemək istəsin? Bu cür işdən heç vaxt razı olmazsınız."[2]

İmam Zaman (əleyhissalam) müsəlmanların məhəllələrindən birində qeybət edildiyini gördükdə sanki, o həzrət bir dəstə leş yeyən quşu bir murdar olmuş heyvanı didərək yeyən halda görür.

---

1"Biharül-ənvar", 75-ci cild, səh.256

2"Hücürat" surəsi, ayə:12

*QEYBƏTİN AİLƏ ÜZVLƏRİNƏ MƏNFİ TƏSİRİ*

Əziz qardaşlar! Qeybət etməyin. Heç vəchlə ailə mühitini bu günaha bulamayın. Əgər bir kişi evdə qeybət etsə arvad-uşaqları da qeybət əhli olacaq.

Adi camaat arasında deyirlər ki, uşaqların əxlaqından ata-ananın əxlaq və davranışını bilmək olar. Bir ailənin uşaqlarını sizinlə mehriban görsəniz, bilin ki, onların ata-anası da sizə qarşı xoş münasibətlidir və əgər uşaqlar sizinlə mehriban olmasalar onların ata-analarının da sizi istəmədiklərini, yalnız üzdə özlərini sizinlə mehriban göstərdiklərini bilin.

*VALİDEYNİN İKİ QAT GÜNAHI*

Dəfələrlə xatırladıldığı kimi, ev, ailə mühiti məktəb adlandırılmışdır. Valideynin öz uşaqlarını bu məktəbdə tərbiyələndirməsi mühüm vəzifələrindən biridir. Əgər övladlarınız sizin əməlləriniz ucbatından yalan danışıb və ya qeybət edən olsa və ya hər bir pis iş, başqa bir günah sahibi olsalar, həmin günah onun əməl dəftərində qeyd olunmaqdan əlavə, sizin də nameyi-əməlinizdə yazılacaqdır. Çünki:

"Hər kəs bir gözəl işin əsasını qoyarsa, Qiyamət gününə kimi həmin işə əməl edənlərin mükafat və əcri azaldılmadan o işin əsasını qoyan şəxs üçün də yazılacaq. Həmçinin əgər bir kəs cəmiyyətdə bəyənilməz bir iş və ya günahın bünövrəsini qoyarsa, həm özünün, həm də o pis işə əməl edənlərin hər birinin günahları heç bir şey azaldılmadan ona yazılacaqdır."

Yəni, ata-ananın qeybət edib və ya yalan danışması səbəbləri üzündən onların uşaqları da qeybət edən və ya yalan danışan olsalar, Qiyamət günü ata-ana uşaqlarının günahına görə də əzab çəkəcəklər.

## *UŞAQLARIN QƏBUL ETMƏK İSTEDADI*

Uşaq beyni fotoaparata bənzəyir ki, qarşısında olan hər şeyin şəklini çəkir. Məhz buna görə, müstəhəbdir ki, uşaq anadan olarkən sağ qulağına azan, sol qulağına iqamə deyilsin ki, "Allahu Əkbər" nidası uşağın təvəllüd anından onda təsir qoyaraq bir növ tovhidlə tanış etsin. Qoy "Əşhdu ənnə Muhəmmədən Rəsulullah" nidası onu nübüvvətlə tanış etsin, "Əşhədu ənnə Əliyyən vəliyyullah" nidası onu Məsum İmamların (salamullahi əleyhim əcməin) vilayəti kölgəsinə apararaq Əhli-beytin məhəbbət və vilayətinə yaxın etsin.

**ONUNCU FƏSİL**

## *XOŞRƏFTARLIQ*

Qeyd olunduğu kimi, alicənablıq, sədaqətlilik, güzəşt və fədakarlıq evdə ər-arvadın ən böyük vəzifələrindən biridir. Əgər ailədə bu xüsusiyyətlər olmasa bu isti ocaq soyuyub ruhdan düşəcəkdir. Eləcə də ər-arvad xoşrəfar olmalıdırlar. Evdəki xoşrəftarlıq mühit münasibətlərinin isti və daha da qaynar olmasına səbəb olub uşaqların tərbiyəsinə gözəl zəminə yaradan ünsürə çevrilər. Bundan əlavə evdə ər-arvad xoşrəftarlığı axirətdə arzu olunan müsbət nəticələr verir, lakin bədrəftarlığın pis təsiri ilk qəbir gecəsində özünü büruzə verəcəkdir.

## *KİÇİK GÖRÜNƏN BÖYÜK MƏSƏLƏLƏR*

Ruhi və psixoloji elmlərdə "böyük sayılan kiçiklər" adlı bir bəhs vardır. Yəni çox vaxt insanın kiçik hesab etdiyi bir məsələ həqiqətdə çox böyük məsələ sayılır.

Məsələn, bir əsgərin səliqəsiz geyinməsi və ya qərargah, kazarma və iş yerini təmiz saxlamaması və s. işlər mümkündür ki, öz nəzərində adi və sadə sayılsın, amma qərargahın adına ləkə gətirmək və ya əsgərlərin haqqında pis fikir yaratmaq üçün böyük bir amildir.

## *HƏYAT YOLDAŞI ÜÇÜN AYRILAN VAXT*

Ailədə "böyük olan kiçiklər" vardır. Mümkündür, bir məsələ birinin nəzərinə kiçik və əhəmiyyətsiz sanılsın, amma ailə münasibətlərinin yaxşılaşması yolunda həyat yoldaşının könlünü almaq üçün çox mühüm olsun. Misal üçün ərin gün ərzində həyat yoldaşı üçün məxsus saat ayırması vacibdir. Belə

olmamalıdır ki, bütün günü işlə məşğul olub gecə də evə gec qayıdaraq şam yeməyini yeyib yatsın və sabahı gün də onun kimi. Hədislərdə oxuyuruq ki, insan öz vaxtını bölməli, arvadı üçün də müəyyən bir saat təyin etməlidir.

## *MADDİ VƏ MƏNƏVİ İSTƏKLƏRƏ DİQQƏT*

Həmçinin, kişi evdə arvadının söylədiklərinə tam hövsələ ilə qulaq asıb onun maddi və mənəvi istəklərinə, hətta ürəyincə olmasa da belə, diqqət etməlidir. Kişi Allahın rizasına, eləcə də ailə münasibətlərinin yaxşılaşması və arvadının şəxsiyyətinə ehtiram əlaməti olaraq onun sözlərinə qulaq asıb, diqqət etsə böyük savabı vardır. Çünki, Allahın bəyəndiyi hər bir iş Onun rizası üçün edilərsə fəzilət və savaba malikdir.

## *AİLƏ ÜZVLƏRİ İLƏ MƏŞVƏRƏT*

Kişi evdə vaxtının bir hissəsini ailə üzvləri üçün ayırıb onlarla bir yerdə oturmalı, söhbət etməli, zəruri və qeyri-zəruri məsələləri bir-birinə deyib, birlikdə məşvərət etməlidir. Allah-Taala Rəsuli-Əkrəm (səlləllahu əleyhi və alih)-ə buyurur:

"Öz işini Allaha təvəkkül etməklə yerinə yetir. Amma, məşvərəti də unutma, (yəni başqaları ilə məşvərət etməklə onlara şəxsiyyət ver)."[1]

Beləliklə, ev işlərində məşvərət lazımdır. Öz rəyinə arxalanaraq qadının fikrini nəzərə almamaq səhvdir.

Psixoloqlardan bəzisi hətta uşaqlarla belə məşvərət etməyi lazım bilirlər. Yəni, onların fikir və əqidisinə ehtiram edib onları da nəzərə almalıyıq.

Başqa ibarətlə desək, ev kiçik bir məmləkətə bənzəyir ki, onun işləri məşvərət və məsləhətlə həyata keçirilməlidir. Bu

---

[1] "Ali İmran" surəsi, ayə:159

kiçik məmləkətin taleyi isə onun vətəndaşları ilə məşvərət edərək həll olunmalıdır.

### *MƏŞVƏRƏTİN MÜSBƏT ƏSƏRİ*

Ailə üzvləri əgər evdə dil tapa bilsələr bir daha ruhi çatışmazlıq və narahatlıqlara düçar olmazlar. Kişinin də xoş əxlaqlı olub şirin dillə onlara cavab verməsi onun əsas vəzifələrindən biridir. Öz rəyini bəyənib istəklərini zorla ailə üzvlərinə qəbul etdirmək səhv iş olub, pis nəticəyə malikdir.

Ev mühitində xoşrəftarlığın digər nümunələrindən biri də budur ki, kişinin arvadından bədrəftarlıq, səhlənkarlıq və ya bir səhv iş gördüyü zaman dad-fəryad etməsin, ağzına gələni deməsin və onu qınayıb danlamasın. əksinə, bütün bu sadalananlar müqabilində onu nəsihət edib mülayim danışıqla səhvlərini xatırlatmalıdır.

### *NƏSİHƏTİN MÜNASİB VAXTI*

Əlbəttə, moizə və nəsihət üçün qeyri-münasib vaxt seçmək olmaz. Məsələn, əgər qadın sübhdən axşama kimi işləyib yorulmuşsa, onu nəsihət və ya moizə edərək danlamaq olmaz. Çünki bu zaman olunan moizənin heç bir əsəri olmayacaq və gözlənilməz əks-təsir ilə nəticələnə bilər. Moizə nəinki təkcə rahatlıq tələb edir, həm də xoşrəftar və mülayim söhbət etməyin də məxsus vaxtı və yeri vardır.

Şikayət, tənqid, nəsihət, dərdləşmək və s. bu kimi işlərin hamısı münasib vaxt tələb edir. Məsələn, əgər qadın bir məsələ ilə qarşılaşarkən həssasiyyət tapıb narahat olursa, artıq moizə və nəsihətin yeri deyildir.

Amma çox təəssüflər olsun ki, bu mühüm məsələyə lazımınca riayət olunmur ki, bu da çox vaxt təkəbbürün nəticəsində baş verir. Çox vaxt öz söz və işlərimizi başqalarına güclə qəbul etdirmək istəyirik, lakin unutmaq olmaz ki, bu iş

xoşa gələn deyil və nəticəsi də ərin məhəbbətini qadının ürəyindən qoparmaqdan başqa bir şey deyildir.

### *"BÖYÜK OLAN KİÇİKLƏRİN" TƏSİRİ*

Hərçənd, ailə həyatının əvvəllərində xüsusi bir mehribanlıq ər-arvadın qarşılıqlı məhəbbətini gücləndirir, lakin zaman ötdükcə bu mehribanlıq və məhəbbət solmağa başlayır ki, bu da kişi və qadının öz təqsiri üzündəndir. Əslində onların şövq və əlaqəsi günü-gündən daha artmalı və şaxələnməlidir. Bunun da səbəbi "böyük olan kiçiklər"ə riayət etməməkdir.

### *MOİZƏ MÜLAYİM OLMALIDIR*

İşdən evə qayıdan zaman öz uşağınızın çöldə oynadığını gördükdə dad-fəryad edib, yoldaşınızı uşağı yaxşı saxlamadığına görə qınamamalısınız. Ona görə ki, lazım olan əsəri olmayacaqdır. Həyat yoldaşınızı nəsihət və moizə etmək istəsəniz, tam sakitlik və adi söhbətlərin gedişatında olmalıdır. Birbaşa, yaxud müəyyən vasitələrlə tam aramlıq, məhəbbət və xoş əxlaqla onun səhvini xatırladın, Çünki, maddi və mənəvi hədəfləri həyata keçirmək üçün gözəl əxlaqlı və xoşrəftar olmaqdan yaxşı bir silah yoxdur.[1]

### *EV İŞLƏRİNDƏ QADINA KÖMƏK*

Ərin xoşrəftar olması nümünələrindən biri də budur ki, söz və əməli ilə yoldaşına ev işlərinin görülməsində onunköməkçisi olduğunu bildirməlidir. Kişi evdə qonaq kimi olmamalıdır ki, qadın onun üçün yemək süfrəsi açıb su gətirsin, çay süzsün, süfrəni yığışdırsın və s. Kişi də öz

---

[1] İmam Sadiq (əleyhissalam) buyurub: "Səbr, düz danışmaq, dözümlülük (helm) və кözəl əxlaq peyğəmbərlərin əxlaqındandır." "Sünənün-nəbi", səh.59

növbəsində ev işlərinin görülməsində yoldaşının şəriki və köməkçisi olmalıdır.

Peyğəmbər (səlləllahu əleyhi və alih) evdə, səfərdə, hətta döyüşdə belə işlərini bölər, özü də bu işlərdə kömək edərdi.[1]

Məsələn, döyüşlərin birində yemək hazırlanan zaman Peyğəmbər (səlləllahu əleyhi və alih) işləri bölərək odun yığmağı öz öhdəsinə götürdü. Səhabələr israr edirdilər ki, həzrət otursun və işləri də onlar görələr, amma həzrət buyurdu: "Mən də yeməkdə sizinlə şərikəm və gərək bir iş görəm."

Buna görə də biz gərək ev işlərinin bir qismini öz öhdəmizə götürək.

Həzrət Əli (əleyhissalam) da münasib vaxtlarda ev işlərində həzrət Zəhraya (əleyha salam) kömək edərdi.

Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) buyurub:

"Ailəyə xidmət göstərmək böyük günahların kəffarəsidir və Allahın qəzəb atəşini söndürür."[2]

Hətta uşaq saxlamaqda da öz həyat yoldaşınıza kömək etməlisiniz. Belə olmamalıdır ki, həmişə arvad gecələr yuxudan ayılıb uşağa süd versin ya onu sakit edə, amma siz bu işdə ona kömək etməyəsiniz.

Böyük şəxsiyyətlərin bəziləri uşaq saxlamağı öz həyat yoldaşı ilə aralarında bölüşdürmüşdülər. Belə ki, gündüzlər uşaq saxlamaq qadının öhdəsinə, gecələr isə mühüm işi öz boyunlarına götürmüşdülər.

---

1İbni Şəhraşub "Mənaqib" kitabının 1-ci cildin 146-cı səhifəsində rəvayət etmişdir ki, Həzrət Peyğəmbər (s) ayaqqabısını özü yamayardı, paltarının sökülən yerini özü tikərdi, evin qapsını özü açardı, qoyun və dəvələrinin südünü özü sağardı. Xidmətçisi əl dəyirmanında un üyüdəndə yorulsaydı, həzrət özü ona kömək edərdi, кecə dəstəmaz almaq üçün suyu özü tədarük кörərdi. Ümumiyyətlə bütün işlərdə ailə üzvlərinə kömək edərdi.

2"Biaharül-ənvar", 103-cü cild.

## *KİNAYƏLİ SÖZ*

Xoşrəftar olmağın nümunələrindən biri də kinayəli, tünd və acı danışmamaqdır. Hər bir acı sözlə mümkündür neçə illik məhəbbəti aradan aparasınız. Bəziləri zarafat olaraq kobud və kinayəli sözlər danışırlar ki, bu bəyənilməz və pis işdir. Belə ki, bu işin ucbatından bir çox böyük günahların zəminəsi yaranır. Bu cür şəxs qiyamət günü məsxərə olunar, söylədiyi kobud sözlər qəbirdə ilan-əqrəbə çevirilib ona əziyyət verməyə başlayacaqlar.

İmam Səccad (əleyhissalam) həzrət Seyyidiş-Şühəda İmam Hüseyn (əleyhissalam)-dan belə nəql edir ki, o həzrət xudahafizləşərkən buyurdu:

"Ey oğlum, məbada Allahdan başqa pənah və köməyi olmayan bir kəsə zülmü rəva biləsən!"[1]

Beləliklə dildə əxlaq və insanlıq normalarına riayət etmək çox mühüm və müstəsna əhəmiyyətə malikdir.

## *İSLAM PEYĞƏMBƏRİNİN (S) DAVRANIŞI*

"Bəni qüreyzə" döyüşündən sonra Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih)-in yoldaşları əldə olunan qənimətə görə, həzrətdən daha artıq xərc, həqiqətdə rəngarəng bir yaşayış istəmişdilər. Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alih) onların istəyini qəbul etməyib buyurur: "Mən İslam və müsəlmanların rəhbəriyəm. Mən çox adi bir tərzdə yaşamalıyam ki, fəqir və binəvalar həqirlik və kiçiklik hiss etməsinlər." Amma, onlar həzrət Peyğəmbəri (səlləllahu əleyhi və alih) o qədər narahat etdilər ki, axırda həzrət onların yanından çıxıb getdi."

Peyğəmbər (səlləllahu əleyhi və alih) Həfsəyə buyurur: Bir kişinin mənimlə sənin aranda mühakiməsini qəbul edərsənmi?

---

1"Səfinətül-bihar", 2-ci cild, səh.109

Həfsə deyir: Bəli. Sonra Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) bir nəfəri Ömərin ardınca yollayır. Ömər gəlib çatdıqda Peyğəmbər (səlləllahu əleyhi və alih) Həfsəyə buyurur: Danış! Həfsə deyir: Siz danışın amma haqqı danışın. Bu sözü eşidən Ömər Həfsənin üzünə bir sillə vurur.[1] Peyğəmbər (səlləllahu əleyhi və alih) o qədər narahat olur ki, narahatlığın əsəri mübarək üzündə aşkar olur. Həzrət Ömərə buyurur: Mən səni qızını vurmağa yox, səni bizi barışdırmaq üçün çağırmışam. Daha sonra narahat halda məclisi tərk edir. Bu hadisədən sonra aşağıdakı ayələr Peyğəmbər (səlləllahu əleyhi və alih)-ə nazil olur:

"Ey Peyğəmbər! Öz arvadlarına de ki, əgər dünya həyatı və onun zinətini istəyirsinizsə, gəlin sizi bəhrələndirib təlaq verim, gözəl bir təlaq ilə."[2]

"Və əgər Allahı, Onun Rəsulunu və axirəti istəyirsinizsə, onda (bilin ki,) həqiqətən Allah sizlərdən olan gözəl əməl sahiblərinə böyük savab hazırlamışdır."[3]

"Ey Peyğəmbərin qadınları! Sizlər başqa qadınlar kimi deyilsiniz..."[4]

## *NƏTİCƏ*

Qeyd olunan rəvayət və ayələrdən məlum olur ki, evdə baş verən hər bir müşkül öz yolu ilə həll olunmalıdır. Acı sözlər danışıb döymək, söyüş söymək, əxlaqsızlıq və s. kimi qeyri səhih yollar ixtilafları həll edə bilməz. Hamılıqla "böyük olan kiçiklərə" riayət etməlidirlər. Əlbəttə, bizlərdən heç də Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) və Mövla Əmirəl-

---

1"Məcməül-bəyan", 4-cü cild, səh.353.

2"Əhzab" surəsi, ayə:28

3"Əhzab" surəsi, ayə:29

4"Əhzab" surəsi, ayə:32

möminin (əleyhissalam) kimi olmağımız gözlənilmir, amma heç olmazsa özümüzü belə böyük şəxsiyyətlərə oxşatmağa çalışmalıyıq:

"Şübhəsiz, sizlər üçün Allahın Rəsulunda gözəl nümunələr, ülgülər vardır, o kəslər üçün ki, Allaha, Qiyamət gününə ümidvar olub Allahı çox yad edərlər."

## *SƏHVLƏRİ GÖRMƏMƏZLİYƏ VURMAQ*

Xoş rəftar olmağın digər səciyyəvi nümunələrindən biri həyat yoldaşının bəyənilməz iş və səhvlərini bağışlamaqdır. Məsələn, əgər yoldaşınızdan yalan eşitsəniz, üzə vurmayıb müəyyən yollarla başa salmağınız daha məqsədə uyğundur. Çünki, səhv və günahları xatırlayaraq üzə vurmağın böyük ziyanı vardır. Atalar sözü olan "toyuq oğrusu, dəvə oğrusuna çevrilər" gözəl məsəldir. Ola bilsin ki, oğlunuz sizdən xəbərsiz olaraq bilməməzlik üzündən əlini cibinizə salıb pulunuzdan götürsün. Belə bir hərəkəti uşaq ya yoldaşınızdan gördüyünüz zaman çalışın ki, ona birbaşa deməyəsiniz ki, bu iş ona cəsarət gətirər. Ona müxtəlif yollarla başa salmaq lazımdır ki, oğurluq necə olursa olsun haram və pis işdir. Oğurluq edənin əli bu dünyada kəsilməsə də axirətdə kəsiləcəkdir. Beləliklə, çalışın arvad-uşağınızın səhvini onlara bir hədisi yad etməklə xəbərdarlıq edəsiniz. Onları Allah qəzəbi və çox dəhşətli bir gecə olan ilk qəbir gecəsi əzabından, Qiyamət günü Cəhənnəm odundan və s.dən qorxutmaqla o səhvləri təkrar etməkdən çəkindirin. Ailənizdən bir xəta və ya səhv duymaqla dad-fəryad edib hay-küy salmayın ki, müsbət nəticə verməməklə yanaşı, öz səhv əməlində cəsarətli olmağı həmin şəxs üçün daha da adiləşdirər. Belə ki, bu günah onun üçün adi bir işə çevrilər.

## *GÜNAHDAN ÇƏKİNDİRMƏK*

Birini günah işdən çəkindərməyin ən gözəl yolu budur ki, münasib bir vaxtda aşağıdakı hədisi onun üçün danışasan.

Bir gün bir qadın Allah Rəsulunun (səlləllahu əleyhi və alih) hüzuruna gəlib deyir: Ya Rəsuləllah, mən ərə getmək istəyirəm, mümkünsə məni müsəlman qadının ərinə bəsləməli qayğı və münasibətindən xəbərdar edin.

Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurur: Birinci: qadın ailədə ərinə itaət etməlidir.

İkinci: qadın ərinin xəbəri olmadan onun bəyənmədiyi bir işi görməməli və evdə əli əyri, ikiüzlü olmamalıdır.

Üçüncü: ixtilaf və münaqişə baş verdikdə, əri ondan razı və xoşhal olmayınca yatağa getməməlidir.

O qadın həzrətdən soruşur: Hətta təqsirkar kişi olmuş olsa da barışıq üçün birinci qadın irəli gəlməlidir? Həzrət buyurur: Bəli, hətta təqsirkar kişi olmuş olsa da."

## *HƏYAT YOLDAŞI İLƏ XOŞRƏFTAR OLMAQ İMAN NİŞANƏLƏRİNDƏNDİR*

Əgər həyat yoldaşınız sizdən razıdırsa, bilin ki, ən yaxşı müsəlmanlardan birisiniz.

Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) dəfələrlə buyurub: "Sizlərdən daha yaxşı o kəslərdir ki, öz qadınları üçün yaxşıdırlar və mən öz qadınlarım barəsində sizlərdən daha yaxşıyam."

"Arvad-uşağa qarşı olan xoşrəftarlıq və məhəbbət nə qədər artıq olarsa, müsəlmanlıq və iman da bir o qədər çoxalar."

Bir hədisdə deyilib: "Biz Əhli-beytə öz həyat yoldaşına daha çox mehriban olan şəxslər əziz

və mehribandır."[1]

Başqa bir hədisdə oxuyuruq: "Hər kəsin öz həyat yoldaşına qarşı məhəbbəti artıq olarsa Allah-Taalaya imanı daha çoxdur."[2]

---

1"Vəsailüş-şiə", 14-cü cild, səh.11

2"Vəsailüş-şiə", 14-cü cild, səh.11

## ON BİRİNCİ FƏSİL

### *VƏFADARLIQ*

Ər-arvad bir-birindən səhv və pis bir iş görsələr, bu onların bir-birinə qarşı etdikləri yaxşılıqlarını unutdurmamalıdır.

### *NAŞÜKÜRLÜK*

İnsan çox vaxt Allah-Taala və camaatla olan rabitəsində minnətdarlıq və təşəkkür etmir. Yəni Allah-Taalanın ona bağışladığı bütün bu nemətlərin müqabilində onların şükrünü yerinə yetirmir. Lakin balaca bir müsibətlə üzləşən kimi nalə çəkib fəryad salaraq nankorluq edir. Çox vaxt isə dostunda kiçik bir xatanı görməklə onun neçə illik yaxşılıqlarını yaddan çıxarıb daşa vurur.

### *NAŞÜKÜRLÜK QURAN DİLİ İLƏ*

Quran bu barədə belə buyurur:

"Yeri və asimanları yaradan, göydən sizin ruziniz üçün cürbəcür heyvan və meyvələr vücuda gəlsin deyə yağış nazil edən, Öz əmri ilə gəmiləri dəryaların üzündə və çayları isə yer üzündə sizin ixtiyarınıza qoyan, ayı və günəşi sizlərə itaətçi və qulluq edən qərar verən O Allahdır ki, Ondan hər cür nemətlər istədinizsə, sizə əta etdi. Belə ki, əgər Allahın sonsuz nemətlərini saymaq istəsəniz heç vaxt bacarmazsınız. (Bu qədər lütf və rəhmətə baxmayaraq) insan hədsiz küfr edən və zalımdır."[1]

"Allahın haqqını olduğu kimi tanımadılar."[2]

---

[1] "İbrahim" surəsi, ayə:33-34

[2] "Həcc" surəsi, ayə:74

"Ölüm olsun bu insana, nə qədər naşükürdür!"[1]

"İnsan dözümsüz yaranmışdır, ona şər və ya ziyan (müsibət) yetişən zaman pərişan və əgər nemət yetərsə təkəbbürlü olur."[2]

## *EVDƏ NAŞÜKÜRLÜK*

Hər halda nemət əlinə gələn zaman minnətdarlıq etməyib bəla və müsibətlə üzləşdikdə səbir və dözümünü əldən vermək insanın təbiətindən irəli gəlir.

Bu xoşagəlməz xüsusiyyət evdə də özünü büruzə verir. Sübhdən günortaya qədər işləyən qadının zəhmətlərini xörəyin bir az şor olduğuna görə heç edir. Əslində isə insan başqalarının səhv və nöqsanını onların yaxşılıqları müqabilində görməməzliyə vurub pislik üçün pərdə hesab etməlidir.

"Möminlər əfv və bağışlamağı özlərinə adət etməli, pisliklərdən keçməlidirlər. Məgər istəmirsizmi Allah da sizin haqqınızda məğfirət və ehsan etsin?! Allah-Taala mehriban və bağışlayandır."

Əgər Allah-Taala eybləri örtməsəydi, camaatın hamısı bir-birindən qaçardılar. Çünki, o zaman Allahın camaatın gözündən gizlətmədiyi bütün pislik və günahlar hamı üçün aşkar olar, rüsvayçılıqlar baş verərdi.

Elə isə Allahın eybləri örtüb gizlətdiyi kimi biz də bir-birimizin xətalarını örtməliyik. Həmçinin gərək ailə mühitində bir-birimizin yaxşı və müsbət cəhətlərini nəzərə alaq. Əgər yoldaşımız xəstələnibsə səbir edərək naşükürlüyə yol verməməli, əksinə ona qarşı daha artıq vəfalı olmalıyıq.

---

1"Əbəsə" surəsi, ayə:17

2"Məaric" surəsi, ayə:19-21

Qadınlar da məişətdəki xoşhallıq, narahatlıq, nemət və bəlanı yaddan çıxarmamalıdır. Xoşbəxtlik, xoşhallıq, firavanlıq və nemətin bol olan vaxtı öz ərləri ilə çiyin-çiyinə olduqları kimi müsibət, fəqirlik və xəstəlik zamanı da onlara qarşı vəfadar olmalıdırlar.

Yaşayışda olan mühüm məsələlərdən biri də qadın və kişinin özlərini ruzigarın isti-soyuqluğu ilə uyğunlaşdırmasıdır ki, bir-birinə qarşı hər bir zaman vəfalı olub həyatın acılığına-şirinliyinə sinə gərsinlər. Eyni zamanda, kişi də gərək öz həyat yoldaşının ev və uşaqları idarə etməsinə qiymət qoysun və belə fikirləşməsin ki, uşaq saxlamaq və ya evdarlıq asan işdir; əksinə gərək belə işlərdə ona kömək etsin.

### *ARVADLARIN SAYI*

Yaxşı olardı ki, vəfadarlıq adı ilə "neçə arvadlı" məsələsini bəyan edək. Bu məsələyə təlaq kimi naçarlıq cəhətindən baxmaq daha düzgün olardı. Yəni, İslamda təlaq naçarlıq üzündən olub adi halda isə ən pis işlərdən sayıldığı kimi, çox arvadlılıq da istisna xarakteri daşıyan məxsus şəraitdədir. Belə də deyil ki, hər kəs şəhvət və nəfsani istəklərini təmin etmək üçün çoxlu qadın alsın.

Quran bu barədə belə buyurur:

"Qadınlar arasından bəyəndiyinizdən iki, üç və ya dördünü seçin. Əgər ədalətlə rəftar edə bilməyəcəyinizdən qorxsanız, o zaman özünüzə bir həyat yoldaşı seçin."[1]

Buradan məlum olur ki, bir neçə arvad arasında ədalətlə davranmaq çox çətindir. Əgər ədalət şərti riayət olunmazsa insan mütləq günah və giriftarçılığa düçar olacaqdır.

---

1"Nisa" surəsi, ayə:3

## *BU QANUNDA İKİ MÜHÜM MƏSƏLƏ*

Beləliklə, "çox arvadlılıq" qanununun qoyulmasında aşağıdakı iki mühüm məsələ nəzərə alınmışdır:

1) İslam qanunlarının tam, kamil və hərtərəfli olması;

2) Zəruri halların riayət olunması məsələsi.

Bütün bunları nəzərə alaraq, "çox arvadlıq" məsələsində ehtiyatlı olmağınız gərəkdir. Çünki bu iş qadına yetəcək zərərdən əlavə, arxasınca bir çox pis təbliğat üçün zəminə yaradacaqdır.

Ayıq olun ki, bir fəqir ya şəhid ailəsini himayə etmək adı ilə aldanmayasınız. Onlara böyüklük etmək təkcə "çox arvadlıq" yox, əksinə, şərafətli bir işdir ki, onu yerinə yetirmək üçün qarşınızda müxtəlif yollar vardır. Yaşı evlənməyi tələb edib evlənməyən cavanlar çoxdur.

Əziz cavanlara nəsihət edirəm ki, əgər hələ evlənməmisinizsə mütləq şəhid ailəsi ilə ailə qurun. Bu əməlinizlə, əvvəla, şəhidin ruhu şad olar. İkinci, Allah sizdən razı olar və camaatın yanında əzəmət və izzət sahibinə çevrilərsiniz.

Üçüncü, dostlar sevinər, düşmənlər isə qəmgin olarlar, eləcə də şəhid ailəsi başçısız qalmaz.

Dördüncü, sizin bu xeyirxah işiniz belə ailələrin ruhiyyəsində müsbət əsərlər qoyur.

## ON İKİNCİ FƏSİL

### *ÇOX TƏLƏBKAR OLMAQ*

Ev işlərində, kişi üçün müvəffəqiyyət şəraitindən biri budur ki, çox tələbkar olmasın.

Hədsiz tələbkar olmağın, bəhanə axtarmağın müxtəlif nümunələri vardır ki, ev mühitində bəhanə axtarmaq bu məsələyə aiddir. Bəzən insan cəmiyyətdə və ya evdə bəhanə gəzir. O zaman bu əməldən özünüz və başqalarının narahatlığından başqa bəhrə aparmayacaqsınız.

Hədsiz tələbkarlıq mənfi baxışlı olmağın bir hissəsidir.

Bəhanə axtarmaq nəticəsində mehriban ailə münasibətləri bir-birinə dəyərək ixtilaf və münaqişələrin yaranması üçün zəminə yaradır. Təəssüflər olsun ki, mənfi baxışlılar üçün bəhanə axtarmaq zəminəsi həmişə hazırdır.

Hər adamın danışıq və rəftarında səhv və nöqsanlar mövcuddur. İnsan nə qədər mənfi baxışlı olub bəhanə axtarmaqdan daha çox fayda axtararsa, bir o qədər də səfa, səmimiyyət və məhəbbət azalıb aradan gedər.

Elə buna görə də həyatda bəhanə axtarmaq və mənfi baxışlı olmaqdan bacardıqca uzaqlaşıb yüksək himmət, geniş ürək və saf qəlbli olmalısınız. Hansı mühitdə yaşasanız belə mühitdə gördüyünüz səhv və nöqsanlara göz yummaqdan əlavə, ümumiyyətlə özünüzü pisliklər və nöqsanları görməməzliyə alışdırın.

### *BAĞIŞLAMAQ*

Allah təbarək və taala Müqəddəs kitabımız Quranda bizə əfv etmək və bağışlamağı əmr etmişdir.

Əgər insan əfv etməyi bacararsa, başqalarının eyb və səhvlərini gördükdə ondan keçər. Amma, əgər birinin

bağışlayan qəlbi olarsa ümumiyyətlə pislik, səhv və çatışmamazlıqları görməyib qəlb genişliyinə malik olar.

## *UŞAQLARIN RUHİ SAĞLAMLIĞINDA AMİLLƏR*

Uşaqlarınızın ruhi cəhətdən sağlam olmalarını istəyirsinizsə evdə hədsiz tələbkar və bəhanə axtaran olmayın, çalışın mənfi baxışlı və dardüşüncəli olmaqdan uzaqlaşasınız, ürək genişliyinə malik olaraq çətinlik və müsibətlərlə mərd-mərdanə qarşı-qarşıya dayanasınız. Səy edin öz yoldaşınızla qarşılıqlı razılaşma əldə edəsiniz. Bu barədə hədisdə oxuyuruq: "Kişi hətta yeməkdə belə öz ailəsi ilə həmahənglik edərək onların bəyəndiyi yeməyi yeyir."

Bu həmahənglik başqa cəhətlərdə də lazımdır. Məsələn, paltar seçməkdə həyat yoldaşının zövqünə uyğun paltarı seçməli, söhbət etdiyiniz zaman isə onun bəyəndiyi söhbətlərdən etməlidir.

Beləliklə, qadın və kişinin hər biri ayrı-ayrılıqda özünü ailə ilə həmahəng edərək onların ardınca gedərək onlarla müvafiq olmalı, məğrurcasına onları özünə tabe etməyə çalışmamalıdır.

Bu hədisdən belə nəticə alırıq ki, evdə hədsiz tələbkar və bəhanəçi olmamaqla yanaşı ailə üzvləri ilə müvafiq olmağınız da gərəkdir. Bu zaman ailənin məhəbbətini cəlb, səmimiyyətini artıq, rəfaqətini isə geniş etmiş olarıq.

## *MÜBAH İŞLƏRDƏ TƏLƏBKAR OLMAMAQ*

Hədsiz tələbkarlığın başqa nümunələrindən biri də mübah (vacib, haram, müstəhəb və məkruh olmayan) işlərdə çox tələbkar olmaqdır. Əgər mübah əməllərdə tələbkar olmasaq, məkruh əməllərin qarşısını da ala bilərik. Bəzi vaxtlar hətta məkruh (Allah bəyənməyən) işlərdə də tələbkarlıq göstərməməliyik ki, baş verə biləcək haram işlərin belə qarşısını ala bilək. Əgər insan Allah-Taalanın icazə verdiyi,

habelə həm ağlın qəbul etdiyi, həm də müsəlman camaatın nəzərinin əksinə olmayan işlərdə hədsiz tələbkar olub quru “müqəddəslik” etsə, mənfi təsiri olacaqdır.

### *MƏKRUH ƏMƏLLƏRDƏ TƏLƏBKARLIQ*

Unutmayın ki, əgər moizə və ya nəsihət halında olub məsləhət və zərər verə biləcək amilləri açıqlamaq fikrinə düşsək, məkruh əməlləri yerinə yetirməyib mübah işləri daha çox əncam verməyimiz haqqında israr etməliyik. Lakin əməl vaxtı ailədən hədsiz tələbkar olmamalıyıq ki, nəticəsi xoşagəlməz olsun.

Buna görə də əgər həyat yoldaşınız məkruh bir iş görərsə, bu zaman onun qarşısını kobudluq və hiddətlə almamalısınız. Belə ki, mümkündür bu tələbkarlıq inadın yaranmasına səbəb olub lazım olan nəticəni verməməklə yanaşı, əks təsir göstərsin.

Qadının evdə meyl göstərib istədiyi şeylər yerinə yetirilərsə, bu əməl evdən xaricdə baş verə biləcək bir çox ziyanların qarşısını tamamilə alar.

Əziz oxucular, üzümü sizə tutub tövsiyə edirəm ki, təqvalı olun, çalışın ki, evdə heç vaxt “quru” olmayasınız. Eləcə də qadın və uşaqların haqqında yersiz tələblərdən özünüzü qoruyun.

### *VACİB İŞLƏRDƏ TƏLƏBKARLIQ*

Çox vaxt hədsiz tələbkarlıq Müqəddəs Şəriət qaydaları, eləcə də cəmiyyətin nəzər və əqli ilə uyğun olmur. Biz o yerdə çox tələbkar olmalıyıq ki, Allah Özü çox tələb etmiş olsun. Məsələn, vacibi işlərdə. Əlbəttə, elə işlərdəki tələbkarlıq heç də kobudluq və tündlük mənasına deyildir, əksinə, onların vacibi işlərimizdə ciddi və möhkəm olmağımızı çatdırır. Haram işlərdə də bu cürdür.

## *MÜBAH İŞLƏRDƏKİ TƏLƏBKARLIQ BARƏSİNDƏ İSLAMIN NƏZƏRİ*

Mübah, bəzən isə məkruh işlərdə həddindən artıq tələbkarlıq düzgün deyil. Məsələn, həyat yoldaşınızı dörd divar arasında oturdub "ata-ana və ya qohumların evinə getməyə haqqın yoxdur" deyəsiniz. Beləliklə, səy edin mübah işlərdə tələbkar olmaqda həddi aşmayasınız. İslam Şəriətindən qabağa keçməyin, əksinə Şəriətimiz buyurduğu işləri yerinə yetirin.

Unutmayın ki, kobudluq və ya tələbkarlıqla qadını təftiş və moizə edə bilməyəcəksiniz. Hədsiz tələbkarlıq göstərmək bir çox işləri zay və tələf etmək deməkdir. İctimaiyyətdə, ailə mühitində və ya hər hansı bir işdə həddini aşmaq və tələb etməyin hər ikisi ziyan gətirəndir. İslam həmişə orta həddi istəyir. Deməli, mübah işlərdəki tələbkarlıq Müqəddəs İslam Şəriətinin qanunu deyil və belə işlərdə dəlilsiz qadın və uşaqlarımıza əziyyət verməməliyik.

## *MADDİ İŞLƏRDƏ TƏLƏBKAR OLMAMAQ*

Ailədəki tələbkarlığın üçüncü nümunəsi iqtisadi məsələlərə aiddir. Əgər kişi öz ailəsini iqtisadi baxımdan təmin etməyi bacararsa, çox savabı vardır.

Bu barədə hədislərimiz də çoxdur. Məsələn:

"Öz ailəsinin rifahı naminə çalışıb səy göstərən bir kimsə Allah yolunda mücahid edənlər kimidir."

Başqa bir hədisdə oxuyuruq ki, "bazara gedən bir nəfər arvad-uşağı üçün bir şey alıb onları sevindirsə, Allah da ondan razı olar."

Eyni zamanda, ən pis insanlar imkanları ola-ola arvad-uşaqlarını maddi çətinliyə məruz qoyanlardırlar. Bu barədə hədislərdə belə deyilib: Bir gün İslam Peyğəmbəri (səlləllahu

əleyhi və alih) bütün var-dövlətini Allah yolunda bağışlayan bir şəxsin cənazəsinə namaz qılır. Lakin, Həzrətə bu şəxsin bütün var-yoxunu Allah yolunda verib arvad-uşaqlarını ac-yalavac saxlaması xəbərini çatdırırlar. Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) narahat olur və buyurur: "Əgər bilsəydim cənazəsinə namaz qılmazdım."

## *AİLƏ RİFAHININ ƏHƏMİYYƏTİ*

Ailəni rifahda yaşatmaq sədəqə və bəxşiş verməkdən daha yaxşıdır. Atalar sözü olan "mənzili işıqlandıran çıraq məscid üçün haramdır", çox gözəl deyilib, sanki İslam təlimindən sərçeşmə almışdır. Demək lazımdır ki, bəziləri yersiz xərclər edirlər, məsələn, bir qonaqlıq vermək üçün neçə minlərlə pul xərcləyirlər, belə ki, sonrakı gecələr arvad-uşaqları ac yatmağa məcburdurlar, yaxud xaricdə israfa yol verirlər, amma öz ailələri üçün pul xərcləməyə paxıllıq edirlər. Bu adət çox pisdir, haram olmasa da harama yaxındır.

Həmçinin, bəzi kişilər isə özlərinə, öz yemək-içmək və geyiminə həddən artıq diqqət yetirərək ailələrinə fikir vermir, onları çətinlikdə qoyurlar ki, bu da insanlıq sifətindən uzaqdır.

Səy edin ailənizi hamıdan və hər bir şeydən əvvəl bilib, onların rifahı üçün şərait yaradasınız. Ailəni heç vaxt çətinlikdə qoymayın. Onların sevinc və xoşhallığını ələ gətirin, çalışın bu məsələyə hətta yemək yeyəndə də riayət edəsiniz. Belə ki, tək və ya xaricdə yemək yeməyin. Bir yerə qonaq getdikdə ailəliklə qonaq gedin.

Belə nəticəyə gəlirik ki, ailə yalnız iki halda çətinliyə düşə bilər ki, hər iki hal sağlam ağıl və İslam nəzərindən məqbul sayılmır:

1–Mübah işlərdə hədsiz tələbkarlıq;

2-Paxıllıq.

## ON ÜÇÜNCÜ FƏSİL

### *KİÇİK YAŞLI UŞAQLARIN TƏRBİYƏSİ*

Valideynin çox mühüm vəzifə və məsuliyyətlərindən biri də kiçik uşaqların tərbiyəsidir.

İslam bu məsuliyyətə böyük əhəmiyyət verərək ümumi tərbiyə yollarını bəyan etmişdir. Uşaq tərbiyəsi haqda Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) və məsum İmamlardan mindən yuxarı hədis əlimizə çatmışdır ki, onun beş yüzü "Vəsailüş-şiə" kitabında qeyd olunmuşdur. Tərbiyə mərhələlərində uşaqların dini tərbiyəsi üçün müxtəlif qayda-qanunlar müəyyən olunub ki, uşaq doğumundan əvvəl və sonrakı mərhələləri əhatə edir. Belə ki, uşaqların tərbiyəsi amilləri, hətta valideynlərin evlənməsi şəraitini belə əhatə etmişdir. Çünki irsiyyət qanununa görə valideyn şəxsiyyəti uşaqların şəxsiyyət kimi formalaşmasında çox böyük təsirə malikdir.

### *HƏYAT YOLDAŞI SEÇMƏKDƏ MEYAR*

İslam dini həyat yoldaşını seçməyin yollarını bəyan edərək kişi və qadınlara onların həyat yoldaşlarının hansı şəraitə malik olmasını açıqlamışdır. Peyğəmbər (səlləllahu əleyhi və alih) bu barədə belə buyurmuşdur:

"Suyu çirkin gölməçədə bitən güldən uzaq olun." Soruşdular ki, ya Rəsuləllah bu sözlə nəyə işarə edirsiniz? Gölməçədə bitən gül nə deməkdir? Buyurdu ki: Pis ailədə tərbiyə olunmuş gözəl qadın."

İslam baxımından din və əxlaq hakim olmayan ailə ən pis ailədir.

Başqa bir hədisdə buyurulduğu kimi,

“Əxlaq və dinindən razı olduğunuz bir kəs elçiliyə gələrsə ona qız verin.”

Şərif hədisdə evlənmək üçün iki əsas meyar müəyyən olunmuşdur: Dindarlıq və gözəl əxlaq.

## *EVLƏNMƏKDƏ UĞURSUZLUQ*

Hədislərdə oxuyuruq ki, dindarlıq və xoş əxlaqı nəzərə almadan dövlətli və gözəl qadınlarla evlənənlər, həyatda mütləq uğursuzluğa düçar olacaqlar. Təcrübə ilə sübut olunmuşdur ki, əgər qadının din və əxlaq sahibi olmazsa öz gözəlliyi onun yoldan çıxmasına səbəb olacaqdır. Necə ki, bir çox iffətsizlik və xoşagəlməzliyin aqibəti gözəllikdən nəşət alır ki, din və insaniyyətdən uzaqdır.

## *EVLƏNMƏK MEYARININ HİKMƏTİ*

İslamın bu iki əsas məsələyə olan təkidi irsiyyət qanununa əsaslanır. Çünki psixologiya elmi nəzərindən isbat olunmuşdur ki, insandakı genlər ata-ananın daxili və xarici sifətlərinin uşaqlara keçməsi amilidir.

Elə buna görə, ananın fikrinin və ruhi vəziyyəti hələ bətndə olan uşaqda çox böyük təsiri vardır, çünki ananın ruhi və fikri, habelə həzm sistemindəki çatışmamazlıqları onda təsir qoyurlar. Bu təsirlər ana bətnindəki uşağın qidalanması nəticəsində ana bədənindən ona keçərək uşağın şəxsiyyət və ruhiyyəsini tənzimləyir.

## *UŞAĞIN ŞƏXSİYYƏTİNDƏ MÜHİT AMİLLƏRİNİN TƏSİRİ*

Psixoloqların nəzərincə ana bətnindəki uşağın maddi və ruhi inkişafında mühit amillərinin böyük rolu vardır. Belə ki, bəzi böyük İslam alimlərinin tərcümeyi-halında analarının hamiləlik dövründə Allahın zikri ilə məşğul olması, süd vermə

dövranında isə dəstəmazsız və Allahı yad etməmiş uşağa süd verməmələri qeyd olunmuşdur.

Həmçinin, uşağın bədən və ruhi vəziyyətinin necəliyində zaman və məkan şəraiti böyük təsirə malikdir. Bu barədə din rəhbərlərindən çoxlu hədis deyilmişdir.

İmam Sadiq (əleyhissalam) buyurub:

"Əməlisaleh qadınlarla izdivac edin, çünki irq "genlər" gözəl əxlaqın gizli daşıyıcısıdır."

Bu hədisdən məlum olur ki, "irq" (gen), uşaqlara xislət və sifətlərin ötürülməsində çox zərif, dəqiq, güclü əməl və təsir göstərir.

Başqa bir hədisdə isə oxuyuruq:

"Övlad atanın rəmzidir."

Beləliklə, genlər valideynin xüsusiyyətlərini uşaqlara ötürürlər. Əgər bir gözəl, lakin dinsiz və kafir qadınla ailə qursaq, mütləq yoldaşımızın dinsiz olması uşaqların bir şəxsiyyət kimi formalaşmasında mənfi təsirini göstərəcəkdir.

Bəzi tayfa və qəbilələrin tarixini səhifələri bunun şahididir. Belə ki, bəzilərini zatən təkəbbürlü, bəzilərinin isə həsədçi, paxıl və s. olmasını görürük. Bu xoşagəlməz sifətlər genlərin vasitəsi ilə nəsildən-nəslə irs keçir.

### *SADƏ EVLƏNMƏK*

İslamda olan mühüm məsələlərdən biri də evlənməkdə təm-tərağa yol verməməkdir.

Ümumiyyətlə İslam təm-təraqla müxalifdir. Çünki, təm-tərağın insan inkişafının qarşısını almaqdan başqa səmərəsi yoxdur. Xüsusilə də evlənməkdə artıq mehriyyə, hədsiz cehiz, hər iki tərəfin tələbkarlığı, müxtəlif dəyərsiz və mənasız bəhanələrin araya gətirilməsi və s... kimi müxtəlif təmətəraqlar evlənmənin qarşısını alan amillərdəndir ki, Müqəddəs İslam baxımından qəbul edilməzdir. Bundan əlavə, təmtəraq ər-

arvad arasında ülfət və məhəbbətin yaranışına maneədir. Həyatda ər-arvad arasında bir-birinə qarşı məhəbbət olmazsa, ailə mühiti soyuq və ruhsuz olacaqdır. Təbiidir ki, belə mühitdə doğulub tərbiyə alan uşaqlar da atifəsiz, qüssəli olaraq cəmiyyətin faydalı üzvlərindən sayılmayacaqlar.

## *MEHRİYYƏ VƏ CEHİZ*

Mehriyyə məsələsi rəsmiyyət tapmış bir təmtəraqdır ki, hər iki tərəfin ailəsi çənə döyməyə və ya azaldıb-çoxaltmağa çox vaxt sərf edirlər ki, çox zaman bu işdə dava-dalaş, anlaşılmazlıq yaranır. Bir tərəf vasitəçi gətirir və o birisi minnət qoyur. Sanki qızın şəxsiyyətini pul ilə ölçürlər. Lakin sadaladıqlarımızın heç biri İslam baxımından məqbul deyil. Eləcə də xoşagəlməz təmtəraqlar əvvəldən qadın və kişinin qəlbindən mehr-məhəbbəti qopararaq onların qəlbinə ixtilaf toxumları səpir. Ailə ixtilaflarının çoxunun sərçeşməsi elə buradan başlayır.

Cehizlik də eynilə bu cürdür. Allah eləməsin, əgər qızın cehizi az olarsa, bəzi ailələr arasında böyük ixtilaflar yaradırlar.

İnşallah, ümidvarıq tezliklə bu təmtəraqlar aradan gedər. İslam dininin təmtəraqdan uzaq olan sadə evlənmək qaydasına qayıdaq.

Zəhrayi-Mərziyyənin (əleyha salam) mehriyyəsi 500 dərhəmdən ibarət idi. Onun cehizliyi isə əvvəlki bəhslərdə qeyd olundu. Belə izdivac bütün müsəlmanlara təmtəraqları kənara atmaqda gözəl bir nümunə olmalıdır.

## *MƏCLİS VƏ YIĞINCAQ*

Əmirəl-möminin (əleyhissalam)-ın Zəhrayi-Mərziyyə (əleyha salam) ilə evlənən zamanda yığıncaq oldu, amma

təmtəraqlı qonaqlıqlardan heç bir xəbər yox idi. Deməli İslamda yığıncaq müstəhəbdir, təmtəraqlar isə yox.

Hekayət olmuşdur ki, bir nəfər Əmirəl Mömininin (əleyhissalam) hüzuruna gəlib deyir: Oğlumun evlənməyi üçün bu gecə yığıncaq təşkil etmişik, səni də o yığıncağa dəvət edirik. Həzrət soruşur: Kimləri dəvət etmisən?

Kişi dəvət etdiyi əyan-əşrafdan bir neçəsinin adını çəkir. Həzrət buyurur: Fəqir və zəiflərdən nə üçün çağırmamısan?

Deyir: Bu gecə siz adlarını çəkdiklərim ilə dəvət olunmuşsunuz, sabah gecə isə fəqirləri dəvət edərik.

İmam (əleyhissalam) buyurur: Mən də sabah gecə fəqirlərlə gələrəm.

O şəxs deyir: Ya Əmirəl-möminin, axı mən fəqir tanımıram ki, dəvət də edəm.

Həzrət buyurur: Mən sabah gecə fəqirlərlə birlikdə gələcəyəm.

Sabahı gün İmam (əleyhissalam) vədə verdiyi vaxtda şam yeməyinə bir şeyləri olmayan fəqir və zəiflərdən 50 nəfərə yaxın adamla qonaqlığa təşrif apardılar.

### *HƏZRƏT ƏMİR (Ə)-IN YIĞINCAĞI*

İmam (əleyhissalam) öz evlənmək yığıncağı barəsində belə buyurur: Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) buyururdu: Ya Əli (əleyhissalam) evlənmək üçün yığıncaq təşkil et.

Peyğəmbər məclisin ət və çörəyini öz öhdəsinə götürüb xurma və yağını mənə həvalə etdi. Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) şəxsən özü yeməyin hazırlanmasında köməklik göstərdi. Sonra mənə istədiyim adamları çağırmağım barədə göstəriş verdi. Ona görə, Peyğəmbərin bu əmrindən sonra məscidə gedib orada olanları məclisə dəvət etdim. Əksəriyyəti binəva və ehtiyacı olan çoxlu məscid əhli mənzilimizə gəldilər.

Mən isə xörəyin azlığı və camaatın çoxluğundan utandım, amma elə ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) halımdan agah oldu, buyurdu: “Dua edərəm Allah-Taala sizin yeməyə bərəkət verər.”

## ON DÖRDÜNCÜ FƏSİL

### *ÖVLADIN ŞƏXSİYYƏTİNDƏ QİDANI TƏSİRİ*

Qida övlad şəxsiyyətinin formalaşmasında çox təsirlidir. Əgər uşağın nütfəsi  (sperma) haramdan əmələ gələrsə və ya ana hamiləlik dövründə haram yemək yeyərsə uşağın xilqətində bədbəxtçilik zəminəsi yaranır. Həmçinin əgər uşaq haram yeməklərdən yesə bəxti qara və ya bədbəxt olacaqdır.

### *HƏZRƏT ZƏHRANIN (Ə) TƏVƏLLÜDÜNÜN MÜQƏDDİMƏSİ*

Həzrət Fatimeyi Zəhra (salamullahi-əleyha)-nın təvəllüdünün müqəddiməsindən biri budur ki, Allah-Taala Öz Rəsulu (səlləllahu əleyhi və alih) və həzrət Xədiceyi-Kübraya (salamullahi-əleyha) camaatdan uzaqlaşmalarını əmr edir. Bu zaman Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) qırx gecə-gündüz "Həra" dağına gedib, ibadətlə məşğul oldu. Həzrət Xədicə (sə) bu müddət ərzində yalnız ev işləri ilə məşğul olub, heç kəslə rabitə saxlamadı. Daha sonra Peyğəmbərə əmr olundu ki, evə getsin. Qırxıncı gecə Cəbrail Allahdan xəbər yetirib dedi: "Ya Mühəmməd, Allah sənə salam deyir. Bu almanı da Behiştdən sənin üçün göndəribdir. Peyğəmbər (səlləllahu əleyhi və alih) almanı götürüb sinəsinə sıxır, iki yerə böləndüyü andan nur saçmağa başlayır. Cəbrail dedi: "Ya Rəsuləllah, bu nur bir xanımdır ki, onun göylərdəki adı Mənsurə, yerdəki adı isə Fatimədir."[1]

Yuxarıda qeyd olunan hədisdən yeməyin övlad şəxsiyyətindəki böyük əhəmiyyətini anlamaq olar.

---

1"Biharül-ənvar", 43-cü cild.

## *YEMƏYİN ƏHƏMİYYƏTİ HAQQINDA QURANIN NƏZƏRİ*

Quran bu barədə belə buyurur:

***"Yetimlərin mallarını güc və zorla yeyənlər, həqiqətdə odu öz qarınlarına tökürlər və tezliklə (onlar) Cəhənnəmə, şölənənən oda düşəcəklər."***[1]

Əlbəttə, asiman və mələklər aləmini görənlər bu cür adamların od yeməyini zahiri gözləri ilə görəcəklər. Oddan bağlanan bir nütfənin gələcəkdə necə cinayətlərə əl uzadacağı məlumdur.

Beləliklə nütfəsi (sperma) riba (sələm), oğurluq, ümumiyyətlə haram maldan tutulan uşağın gələcəkdə də onu harama tərəf sövq etməsi təbiidir.

## *UŞAĞIN İNKİŞAFINDA YEMƏYİN TƏSİRİ*

Münasib və qüvvətləndirici yemək uşaq cisminin gözəllik və lətafətində müsbət təsirə malikdir. Hədislərdə deyilib: ana hamilə olarkən qüvvətləndirici yeməklərdən, məsələn, alma, heyva, xurma və s. yesin[2] ki, uşağın gözəllik, lətafət və dözümlü olmasında bu kimi yeməklərin böyük təsiri vardır.

İmam Sadiq (əleyhissalam) gözəl bir uşağa baxıb buyurdu:

"Çox güman ki, bu uşağın atası yaxınlıq etdiyi gecə heyva yemişdir."

Müasir alimlərin nəzərincə yeməyin hamiləlik dövründə uşağın surətinin gözəlliyində, bədəninin normal olmasında, saçının, gözünün və eləcə də bədənin lətafətində çox böyük təsiri vardır. Pak, təmiz və ətirli yeməyin uşağın zahirinə

---

[1]"Nisa" surəsi, ayə:10

[2]Hədisdə buyurulur ki, öz qadınlarınıza heyva yedizdirin ki, bu iş sizin uşaqlarınızın xilqətini кözəl edər. Peyğəmbər (s) buyurur: **"Hamilə qadının doğmalı olduğu ayda ona xurma versəniz, dünyaya кətirdiyi uşaq dözümlü və təqvalı olacaqdır."** ("Məkarimül-əxlaq", səh.87)

münasib təsiri olduğundan, haram və şübhəli yeməklərin də mənfi təsiri neçə dəfə çox, həssas və mühümdür.

### *YEMƏK ZAMANI ƏDƏB QAYDASININ TƏSİRİ*

Bundan əlavə, yemək yeməyin qaydası övladın ruhiyyəsində təsirlidir, belə ki, yeməyin əvvəlində "Bismillah" və yeməkdən sonra "Əlhəmdulillahi-Rəbbil aləmin" demək və yeməyin digər ədəblərinə riayət etmək insan şəxsiyyətinin formalaşmasında və gələcək nəslin gözəl tərbiyəsində çox böyük təsirə malikdir.

### *ƏLLAMƏ MƏCLİSİDƏN (R.Ə) BİR HEKAYƏ*

Mərhum Əllamə Məhəmməd Təqi Məclisidən bir hekayə nəql olunub ki, Quran ayələri və hədislərə müvafiqdir. O, İsfahanın "Cümə" məscidində namaz qılarmış. Bir gecə Əllamə oğlu Məhəmməd Baqir Məclisini də özü ilə məscidə gətirir. Lakin uşaq məscidə daxil olmaq istəmir və məscidin həyətində oturur. Atası gedəndən sonra məscidin həyətindəki su tuluğuna bir iynə batırıb ondan axan su ilə oynamağa başlayır. Namazdan sonra atası bu işdən xəbər tutub narahat olur. Evə gəlib yoldaşına deyir: Mən övladımızın nütfəsi bağlanmamışdan əvvəl və sonra İslamın ədəb və qaydalarına riayət etməyimdə, yeməyimdə bütün səyimi göstərmişəm, amma onun bu günkü hərəkəti bizim ikimizdən birinin təqsirkar olmasından söz açır. Bu nə olan işdir?

Uşağın anası deyir: Hamilə olduğum zaman qonşunun evinə getmişdim. Onların həyətindəki nar ağacı diqqətimi cəlb etdi. Könlüm nar istədiyindən ağacdakı nara iynə batırdım ki, onu dadam.

## *NƏTİCƏ*

Beləliklə, görürük ki, o ananın hamilə dövründə qonşunun ağacının narına batırdığı iynə uşağın şəxsiyyətinin formalaşmasında mənfi təsirli olmuş, onun rəftarında özünü göstərmişdir. Haram maldan hazırlanmış yeməyi yemək, insanın hər hansı bir yaşayış zamanında olursa olsun onda namünasib əsər qoyub və onun rəftarında özünü büruzə verəcəkdir. Çox vaxt haram yemək zahid və abidləri belə dünya toruna salaraq onları harama doğru sürükləmişdir.

### *ÖVLAD TƏRBİYƏSİNDƏ ŞEYTANIN SƏYİ*

Quran buyurur:

"(Ey şeytan, Adəm övladından hər kəs sənin ardınca getsə) Öz malın və övladlarınla gedib onlarla şərik ol və yalan vədələrlə onları aldadıb, məğrur et. Bəli! Şeytanın vədəsi yalan və qürurdan başqa bir şey olmayacaqdır."[1]

Hədisdə deyilib ki, şeytanın şərik olması nümunələrindən biri də uşağın nütfəsinin haram yeməkdən bağlanmasıdır. Yəni, əgər uşağın nütfəsi atasının haram bir fikirdə olması zamanında bağlansa ya uşaq layiqi surətdə tərbiyə olunmasa ondan əməlisaleh insan olmayacaqdır. Həqiqətdə şeytan bu uşağın tərbiyəsində ata-anası ilə şərik olmuşdur.

### *"BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM"İN YEMƏK YEYƏN ZAMAN TƏSİRİ*

Məhz elə buna görə də öz yeməklərinizdə halal-harama riayət edərək yeməyi dua, Allah-Taalanın adı, məsumları xatırlamaq və xalis əqidə ilə yeməyiniz lazımdır. Əgər müsəlman qəlbinin aynası paslanmasa və İslamın hökmlərinə qarşı bəndəçiliyi olarsa, çox işlər görə biləcəkdir. "Bismillahir-

---

1"İsra" surəsi, ayə:64

Rəhmanir-Rəhim” zikri ilə şübhəli yeməyin əsəri aradan gedir. Buna görə də analar uşaqlarına süd verərkən və ya onların ağzına yemək qoyarkən “Bismillahir-Rəhmanir-Rəhim” zikrini söyləmə-lidirlər.

**ON BEŞİNCİ FƏSİL**

## *FİTRƏT*

Quran və hədislər baxımından insan fitrəti İslamı, eləcə də onun bütünlüyünü qəbul edir. Yəni İslam və onun ümumi qanunları insanın xislətində qoyulmuşdur. Buna görə, əgər bir şəxs İslam və onun ümumi qanunlarından uzaqlaşarsa, ilk növbədə ata-ana, daha sonra müəllimlər, üçüncü mərhələdə isə mühit və cəmiyyət müqəssirdirlər. Çünki, Quran buyurur:

"(Ey Bizim Rəsulumuz, sənin yolunu gedənlərlə birlikdə) İslamın pak ayinlərinə tərəf üz tut və həmişə Allahın insanların fitrətini onun əsasında yaratdığı dinə tabe ol, itaət et. Belə ki, Allahın yaratdığı qanunlarda heç bir dəyişiklik olmaz. Budur haqqın möhkəm və sütunlu dini. Lakin camaatın əksəriyyəti bunun həqiqətindən xəbərdar deyildirlər."[1]

Həmçinin digər bir hədisdə buyurulur:

"Hər uşaq öz fitrəti olan İslam əsasında doğulur. Lakin onu yəhudi, xristian (məsihi) və ya atəşpərəst edən onun valideynləridir."[2]

Yəni İslama meyl dünyaya göz açan hər bir uşağın fitrətində, zatında qoyulmuşdur. Əgər həmin bu uşaq sonralar yəhudi, məsihi və ya atəşpərəstə çevrilərsə onun bu yoldan sapmasının səbəbkarı ata-anasıdır.

Deməli, dünyaya gələn hər bir körpə İslami-fitrət binası əsasında doğulur ki, belələri də sağlam ruh sahibi olurlar. Əgər uşaqlıqda övladlarınızda ruhi çatışmazlıq müşahidə etsəniz, bilin ki, bu, valideynin nöqsanının nişanəsidir ki,

---

1 "Rum" surəsi, ayə:30

2 "Səfinətül-bihar", 2-ci cild, səh.373.

yemək və tərbiyə qaydalarına fikir verməməklə, irsi yolla onlara zülm etmişdir.

Hikmətli Quran buyurmuşdur ki, əgər ata-ana uşaqlarının tərbiyəsində süstlük, səhlənkarlıq etsələr, Qiyamət günü ziyankarlardan hesab olunacaqlar.

Məsələn, bir qızın iffətsizliyi ya öz dini məsələlərində zəiflik göstərməsi və yaxud oğlanın İslam yolundan çıxması ki, bunların da səbəbi ata-ananın tərbiyə işlərində zəif olmaları ilə əlaqədardır. Qiyamət günü həmin oğlan və ya qızın Cəhənnəmə getməsindən əlavə, ata-anaları da odda yanacaqlar.

"Hilyətül-müttəqin" kitabında mərhum Əllamə Məclisi bu barədə hədislərin dili ilə çox sözlər demişdir.

Hər halda uşaqların xoşbəxt, yaxud bədbəxt olmaları ata-analarından asılıdır. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurub:

"Bədbəxt o kəsdir ki, bədbəxtliyə ana bətnində düçar olur və xoşbəxt o kəsdir ki, ana bətnində səadətə yetişir."[1]

Buna görə də İslam ruhi nəzərdən naqis və ziyankar nəsillərin qarşısını almaq üçün lazımlı və faydalı göstərişlər vermişdir ki, əgər bu təlimlər əməl mərhələsinə yetərsə, bu cür yoldan sapmalar və azğınlıqların da kökü kəsilər. Çünki bu zaman günahın aşkar olması zəminəsi çox zəif olacaqdır. Əgər bir övladın ata-anası İslam təlimlərinə riayət edərsə və bununla belə, o yenə də yolunu azarsa, valideynləri deyil, tənha özü müqəssir olacaqdır.

---

1"Səfinətül-bihar", 1-ci cild, səh.709

### *ŞEYX FƏZLULLAH NURİDƏN BİR HEKAYƏ*

Görkəmli şəxsiyyətlərdən biri belə deyir: Şeyx Fəzlullah Nurinin şəhadətindən bir neçə gün qabaq onunla zindanda görüşüb dedim ki, oğlunuz çox əxlaqsızdır və sizin əleyhinizə iş aparır. Şeyx buyurdu: Bunu əvvəldən bilirdim, çünki bu oğlan Nəcəfdə dünyaya gələndə anasının südü yox idi. Ona görə də süd vermək üçün başqa bir qadını görməyə məcbur olduq. Uzun müddət bu uşaq o qadından süd yedikdən sonra, bildik ki, o qadın çox iffətsiz və əxlaqsızdır. Bundan əlavə, ürəyində Əmirəl-möminin (əleyhissalam)-a qarşı kin vardır. O vaxtdan başa düşdük ki, bunun xoşbəxt olub səadətə yetməsi çox çətindir.[1]

### *XƏBƏRDARLIQ*

Bu bizim üçün bir xəbərdarlıqdır ki, yeməyimizdən muğayat olub son dərəcədə səy edək ki, uşaqlarımızın nütfəsi əhli-beytin (əleyhissalam) məhəbbəti ilə bağlansın. Bu böyük məsuliyyət ən çox siz kişilərin öhdəsinədir. Əgər Allah göstərməsin, haram yeməyin nəticəsində uşaqlarınız İslam və öz ilahi fitrətlərindən azsalar, cavabdeh sizsiniz və Qiyamət günü sizin əlinizdən Allah-Taalaya şikayət edəcəklər.

### *VALİDEYNİN FİKRİNİN TƏSİRİ*

Hədisdə deyilib ki, ağ dərili bir qadının qara dərili uşağı olur və bu zaman qadının iffətinə şəkk yaranır. Getdikcə ixtilaf şiddətlənir, nəhayət həzrət Əli (əleyhissalam)-ın hüzuruna gedirlər.

İmam (əleyhissalam) sual-cavab nəticəsində bu qənaətə gəlir ki, qadın günahkar deyildir. Buna görə, məsələni başqa tərzdə araşdırmağı qərara alıb soruşur: Bu uşağın nütfəsi

---

[1] Nurəddin Kyanuri dağılmış tudə (kommunist) partiyasının rəhbəri idi ki, Şeyx Fəzlullah Nurinin nəvəsi idi. Atası dar ağacında e'dam ediləndə o əl çalıb күlür, sevinirdi.

bağlanan zaman sizin otağınızda şəkil vardımı? Dedilər: "Bəli, divarda qara bir qulam şəkli var idi.

Əmirəl-möminin (əleyhissalam) buyurdu: Bu uşaq sizindir və halalzadədir. Amma, nütfənin bağlanması zamanı kişinin nəzəri o şəkildə olub ki, bu baxış nütfədə əsər qoyub uşağı qara etmişdir!

## *BƏDƏN ÜZVLƏRİNİN QEYRİ-NORMAL OLMASINDA VALİDEYNİN GÜNAHI*

Allah-Taala ananın bətnindəki körpəyə sağlam və gözəl surət verir. Lakin, ata-ananın səhvi ucbatından uşaq iflic ya başqa naqislik tapıb bədrəftar olur.

Bu zaman qadın hamiləlik dövründə öz ruhiyyəsindən muğayat olub günah etməməli, qəmgin və solğun olmayaraq dinin vacib məsələlərinin yerinə yetirməkdə zəiflik, səhlənkarlıq və süstlük göstərməməlidir. Bütün bunlarla yanaşı, şeytanın vəsvəsələrindən qorunaraq çoxlu Quran, dua, ziyarətnamələr oxumalıdır. Həmişə Allahı xatırlayıb Quran ayələrini dilində təkrar etsin ki, uşağının ruhu və bədəni sağlam qalsın, öz balasının səadət və xoşbəxtlik zəminəsini hazırlasın. Dünyaya yeni gəlmiş iflic və ya hansısa bədən üzvü naqis və ya başqa ruhi xəstəliklərə düçar olmuş uşaqların bu acınacaqlı vəziyyətə düşmələrində ata-anaları müqəssirdirlər.

Əgər qadının hamilə olduğu ev günaha batıb, narahat və qəm-qüssəli olarsa, uşaq da ya lal və ya ruhi xəstəliklərə düçar, yaxud hansısa bir bədən üzvü dünyaya naqis gələcəkdir və s.

## ON ALTINCI FƏSİL

### *UŞAĞIN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA NİYYƏTİN ROLU*

Yaxşı iş haqqında niyyət və fikirləşməyə Allah dərgahında savab verilir. Amma bu Allahın böyük nemətlərindəndir ki, günah haqqında fikir etdikdə insana əzab verilmir, yəni nə qədər ki, insan günaha düçar olmayıb ilahi əzaba da giriftar olmayacaqdır. Amma günah və haram işlərin fikrini etmək qəlbdə mənfi təsir qoyub öz əsərini göstərir.

Buna görə, həzrət İsa (əleyhissalam) həvarilərə buyurur ki, "qardaşım həzrət Musa (əleyhissalam) buyurub: "Zina etməyin". Mən isə deyirəm: "Hətta zina etmək fikrini belə etməyin, çünki zina haqda fikirləşmək qəlbi qaraldır."

Baxmayaraq ki, günahın fikrini etmək günah sayılmır, amma insanın qəlbində və ana bətnindəki uşağın ruhiyyəsində pis əsər qoyur.

### *HƏCCACIN BƏDBƏXTLİYİ*

Həccac ibni Yusif Səqəfi çox alçaq və nanəcib bir adam idi. O, daşürəklilikdə demək olar ki, hamını ötmüşdü. Öz etirafına görə yüz iyirmi min şiəni Əhli-beytə məhəbbət bəslədiklərinə görə öldürmüşdü. O, qızmar günəş altında bir zindan düzəltmiş, məhbusların yeməyini iki tikə torpaq qarışıq çörək qərar vermişdi. Belə ki, zindana düşənlər bir-birinin ardınca, elə birinci gündən canlarını tapşırardılar.

Bu namərd o qədər qansız və nanəcib idi ki, "şiənin qanına qəltan olub əl-ayaq çalmasından çox ləzzət alıram", deyərdi. Buna görə də nahar yeməyi zamanı əmr edərdi ki, qarşısında bir şiənin başını kəssinlər ki, o yeməyini qurtarana qədər başı kəsilmiş şiə qanına qəltan olaraq əl-ayaq atıb çırpınsın!! Bütün

bu zülm və şəqavətliliyin səbəbi bu idi ki, şeytan bu murdar şəxsin nütfəsinin bağlanmasında şərik olmuşdur. Belə ki, İmam Səccad (əleyhissalam) və İmam Sadiq (əleyhissalam) buyurmuşlar ki, "Həccacın qəsavətli və şəqavətli olması şeytanın onun nütfəsində şərik olmasına görə olmuşdur."

Həmçinin tarixə nəzər salsaq, görərik ki, Həccacın anası iffətsiz bir qadın olmuşdur.

### *NÜTFƏNİN BAĞLANMASINDA NİYYƏTİN ROLU*

Mərhum Şeyx Ənsari haqqında deyilmişdir ki, anası hamilə olduğu dövrdə təharətini heç vaxt əldən verməyib şeyxə, iki yaşı tamam olana qədər süd vermiş və həmişə dəstəmazlı gəzərmiş.

Şəkk yoxdur ki, nütfənin bağlanması dövründə saleh və savab işlərin fikri və niyyətini etmək uşaqların gələcək ruhiyyəsində müsbət və mənəvi əsər qoyur. Amma günaha bulaşmış fikirlər isə pis və mənfi təsir göstərir. Buna görə, analar hamiləlik dövründə, habelə körpəyə südvermə zamanı təharətli olmalı, həm onlar, həm də atalar özlərini naməhrəmə baxmaqdan saxlamalıdırlar ki, bu məsələ uşaqların daşürəkli olması üçün zəminə yaradır. Pak və sağlam uşaqlara malik olmaq üçün nütfənin bağlanması zamanı səmimi və xoşhal olun. Allah zikrini və məsumları xatırlamağı unutmayın.

### *KÖRPƏ UŞAQLARDA QƏRİZƏLƏR*

İnsan dünyaya gələn gündən bəzi istedadları yavaş-yavaş özünü büruzə verərək üzə çıxır, bəziləri isə hələ gizlin qalır. Məsələn, anadan olduğu ilk saatda körpə yemək (süd əmmək) istedadına malik olub anasından süd əmir.

Həqiqəti arayıb elm sorağında gəzmək və s. kimi qərizələr insanın zatında əmanət qoyulmaqla, zamanın keçməsi ilə əməli olaraq özlərini göstərirlər.

Məşhur "beşikdən qəbrə kimi elm öyrən" hədisindən məlum olur ki, uşağın təlim-tərbiyəsi dünyaya gəldiyi andan etibarən başlanır.

***HEKAYƏ***

Hekayə ikinci dünya müharibəsində almanların Fransanı işğal etdiyi zamana aiddir. Bir fransız qadının beynində cərrahiyyə əməliyyatına ehtiyacı olur. Cərrahiyyə əməliyyatı zamanı cərrah həkimin bıçağı qadının beynində bir damara toxunur və qadın bihuş halda alman nəğmələri oxumağa başlayır. Elə ki, cərrah bıçağı beyinin damarından çəkir qadının oxumağı kəsilir. Cərrah ikinci dəfə bıçağını həmin damara toxundurarkən qadın yenidən oxumağa başlayır. Bu iş həkimləri çox heyrətləndirir. Qadın huşa gələndən sonra həkimlərin təəccübü daha da artır. Çünki o qadın alman dilində danışmağa qadir olmadığını bildirir

Bu qəribə əhvalatı araşdırmaq üçün bir dəstə həkim-psixoloq bu barədə təhqiqata başlayır. Nəhayət məlum olur ki, müharibə vaxtı alman əsgərləri bunların evinə hücum edərkən o qadın kiçik yaşlı bir uşaq olubmuş və almanların o zaman oxuduqları mahnılar onun beynində əsər qoymuş və zehnində əbədi qalmışdır.

Belə hadisələr hədislər vasitəsi ilə də təsdiq olunmuşdur. Hədislərdə deyilir ki, "körpə doğularkən qulağına azan və iqamə söyləyin."

Eləcə də ər-arvadın körpə yanında bir yerdə yatması, yaxud bir-biri ilə cinsi əlaqədə olmağa haqqları yoxdur. Əgər belə hərəkətə yol versələr və gələcəkdə uşaq zinakar olarsa özlərini müqəssir bilib danlamalıdırlar.

Uşaq tərbiyəsinin yaşayış dövranına namütənasib olaraq üç qismətə bölünür.

1–Anadan olandan yeddi yaşına qədər.

2-Yeddi yaşdan on dörd yaşa qədər.

3–On dörd yaşdan evlənmə müddətinə qədər.

## ON YEDDİNCİ FƏSİL

### *İSLAM TƏRBİYƏSİ QANUNLARI*

Əgər valideynlər uşağın düzgün tərbiyə olunmasında çalışıb İslamın tərbiyə qayda-qanunları ilə tanış olsalar və bu qaydalardan istifadə etsələr bir çox çatışmazlıqlar, o cümlədən irsi və ruhi müşküllər həll olunar. Başqa sözlə, əgər uşaqda müəyyən səbəblərə görə daşürəkli olmaq zəminəsi yaranarsa, bunu aradan aparmaq üçün düzgün və səhih İslami tərbiyə mühüm amildir. Belə ki, insanın yoldan çıxmasına hətta pozğun mühit, pis yoldaş, dinsiz müəllim və s. təsir edə bilmir.

Beləliklə, tərbiyə əsas amildir ki, ona çox diqqət etmək lazımdır.

Validenylər İslamda tərbiyə qaydalarını öyrənməklə yanaşı uşağın müxtəlif yaş dövrlərində bu qaydaları həyata keçirməlidirlər.

### *HƏQİQƏTİ AXTARMAQ*

Qeyd olundu ki, körpə anadan olandan sonra ilk hiss və qərizəsi aclıq və ya toxluğu duymaqdır. Həqiqət axtarmaq və elm öyrənmək də başqa qərizələrdəndir ki, əvvəlkindən sonra yaranır və uşağın başqa qərizələri zaman keçdikcə aşkar olur. Valideynlər isə öz növbəsində uşaqlarının qərizə və istedadları ilə yaxşı tanış olaraq qiymətləndirməli, onları ilahi təlimlərdən ilham almaqla düzgün İslam tərbiyəsi altında qərar verməlidirlər. Qərizələrin düzgün tərbiyə olunma üsullarından biri də uşaqlarımızın təbii və fitri qərizə hissiyyatlarının müəyyən vaxtda yaranması sahəsinə qədəm qoymaq və onların qeyri-təbii qərizələrinin baş qaldırıb, güclənməsinə səbəb ola biləcək işlərdən özümüzü qorumaqdır. Məsələn,

uşaqlar həddi-büluğa çatmazdan əvvəl cinsi səhnələrlə rastlaşmamalı, onların yanında bu mövzuda söhbət olunmamalı, həyəcanlandırıcı şəkil və filmlərə baxmamalıdırlar. Əks halda onlar vaxtından erkən büluğa yetməyə düçar olacaqlar. Başqa sözlə, təbii yaşdan aşağı yaşlarda baliğ olacaqlar ki, bu da onların bir sıra istedadlarının aradan getməsinə səbəb olacaqdır. Bu zaman onların zehin və hafizəsinə də ziyan dəyir. Bundan əlavə bir çox insani və mənəvi xüsusiyyətlərini də əldən verirlər.

Buna görə də psixoloqlar təkid edirlər ki, uşaqların qərizələri adi və təbii həddən tez əmələ gəlməməli və yaranarsa da tənzim olunmalıdır. Beləliklə, uşağın şad və xoşhallığını, onun qərizə və hissiyyatlarının ölməməsi ya yoldan çıxmaması üçün, həmişə qorumaq lazımdır.

### *DİNƏ OLAN MEYLLƏR*

Uşaq yaşları, hətta körpəlikdən hökmən diqqət yetirilməli olan mühüm qərizələrdən biri də onların dinə olan meylləridir. Artıq hamı üçün məlumdur ki, insan fitrətən dinə meyl adlı qərizəyə malikdir. Əzəmətli Quran bu qərizənin fitri olmasını "Rum" surəsinin 30-cu ayəsində aşkar surətdə buyurmuşdur.

Buna görə də valideynlər uşaqlarını kiçik yaşlarından namaz qılmağa təşviq edərək onları bu istəqamətdə rəğbətləndirməlidirlər. Əlbəttə, təşviq zamanı məhəbbət və mülayim mehribanlıqdan istifadə etmək lazımdır. Belə ki, uşaqlar zor gücünə, əxlaqsızlıq və əsəbiləşməklə deyil, öz xoşları və təbii surətdə namazqılan olmalıdırlar.

### *HEKAYƏ*

İslamın müqəddəs etiqadlarını ələ salıb məsxərə edən bir həkim olur. İslami mühitdə böyüyüb, tərbiyə almasına baxmayaraq, İslama qarşı çox bədbin olması təəccüb doğu-

rurdu. Təhqiqat aparılandan sonra məlum oldu ki, bu həkimin xəstəliyi atasının həddən artıq tələbkar olmasından irəli gəlmişdir.

Həkimin dediklərindən: Atam hər sübh əlində çubuq başımın üstünü kəsdirib, məni sübh namazı qılmağa oyadardı. Əgər bir an gec dursaydım çubuqla baş, üz və bədənimə vurardı."

Beləliklə o, uşaq yaşlarından atasının kobud, düzgün olmayan və qeyri-İslami rəftarı nəticəsində ruhi xəstəliyə düçar olub, ürəyi kin bağlamışdır və yetkinlik həddinə çatdıqdan sonra da həmin kin-küdurət onun İslam və dini müqəddəsata qarşı bədbin olub, onlara hörmətsizlik etməsinə səbəb olmuşdu.

## *QƏRİZƏLƏRİN DÜZGÜN TƏRBİYƏSİ*

Din qərizəsini uşaqlarda körpə yaşlardan tərbiyələndirməyin lazımlığı ilə eyni zamanda bu iş qeyri-İslami qaydalarla olmamalıdır. Məsələn, on yaşlı zəif uşağı yayın 30 dərəcə istilikdə oruc tutmağa vadar etməməliyik. Bu, din qərizəsinin inkişaf yolu deyildir. Uşağı təşviq, rəğbət və məhəbbətlə tərbiyə etmək lazımdır ki, onun qərizələri bu əsasda tərəqqi edib, hidayət olunsun. Bu iş üçün uşaqlar arasında adət olan bir neçə saatlıq oruc tutmaqdan istifadə etmək daha faydalı və münasibdir. Belə oruc tutmaqla uşaqları bu böyük ibadətə təşviq edib, onların məzhəbi qərizəsini düzgün yola yönəldə bilərik.

Həmçinin, uşaqların şəxsiyyətinə ehtiram göstərib onlara hədiyyə almaq vasitəsi ilə hissiyyatlarını rahatlıqla tənzim və hidayət edə bilərik. Məsələn, əgər uşağınız başqasının arxasınca söz danışsa onu danlamayın, əksinə nəvazişlə rəftar etməklə onu bu işdən çəkindirmək lazımdır ki, qeybət əhli olmasın.

## *TƏRBİYƏDƏ MƏHƏBBƏT*

"Ey bizim Rəsulumuz, Loğmanın oğluna nəsihət və moizə etdiyi vaxtı xatırla ki, dedi: Ey əziz oğlum, heç vaxt Allaha şərik qərar vermə ki, şirk çox böyük zülmdür."

Bəzi alimlərin nəzəri budur ki, "ona moizə edərkən" qeydinin şərif ayədə gəlməsi bunu göstərir ki, Loğman məhəbbət və mehribanlıqla moizə etmək məqamındadır.

Beləliklə, bu qərizələrin hər birinin yaranıb aşkara çıxdığı zamanlarda düzgün hidayət etmək mümkün olarsa, övladlarımız müsəlman olub cəmiyyətə xeyir verən olacaqlar. Əks halda isə ya inadkar, ya ürəyi kinli, ya təkəbbürlü, ya da zalım olacaqlar. Onların pis tərbiyə olunmasında özümüz müqəssirik, çünki, pis tərbiyə nəticəsində öz övladlarımızı bədbəxtliyə, dünya və axirətdə isə ziyankarlığa çəkmişik.

## *YEZİDİN OĞLUNDA TƏBİYƏNİN TƏSİRİ*

Bilirsiniz ki, məlun Yezid üç il hakimiyyətdə oldu. Birinci il Həzrət Seyyidiş-Şühəda İmam Hüseyni (əleyhissalam) şəhid etdi, ikinci il müqəddəs Mədinə şəhərinin əhalisini kütləvi surətdə qətlə yetirdi, o qədər adam öldürdü ki, küçələrdə qan su yerinə axdı, hökumətinin axırıncı ilində isə Allah Evini– müsəlmanların qibləsi, müqəddəs Kəbəni yandırdı.

Yezid Cəhənnəmə vasil olandan sonra nadanlar onun oğlunun başını tovlayaraq "sən atanın canişini olmalısan"- dedilər. O da qəbul etdi. Sonra məscidə getdi. Bütün camaat məscidə yığılmışdı. Çox böyük bir mərasim idi. O məscidə daxil oldu, minbərə çıxıb, oturdu. Camaat müsəlmanların təzə xəlifəsinin xütbə və söhbətinə qulaq asmaq intizarında idilər. O minbərin üstündə Allaha həmd və şükür edəndən sonra dedi: "Ey camaat, biz siziy, siz də bizim vasitəmizlə imtahan olunduq. Babam Müaviyə ibni əbu-Süfyan xəlifəlik üstündə

elə bir şəxslə vuruşdu ki, Allah peyğəmbəri ilə qohumluqda ondan ləyaqətli və İslamda isə ondan daha layiqli idi. O, (həzrət Əliyyibni Əbutalib) müsəlmanların həqiqi rəhbəri, İslama ilk iman gətirib müsəlmanlığı qəbul edən şəxs, Peyğəmbərin (səlləllahu əleyhi və alih) əmisi oğlu, eləcə də Xatəmül-ənbiyanın nəvələrinin atası idi. Atam Yeziddən heç bir xeyir gözlənilmədiyi bir halda hökuməti öhdəsinə götürüb, nəfsi çəkən işləri gördü. Günahlarına haqq qazandırmağa başlayıb, onları yaxşı cilvələndirdi. Bu zaman Yezidin oğlu, Müaviyə ağlamağa başladı və dedi: Bizim üçün xoşagəlməz və narahatedici məsələ budur ki, hamımız Yezidin ömrünün rüsvayçılıqla sona çatmasını bilirik. Belə ki, o Peyğəmbər (səlləllahu əleyhi və alih) övladını qətlə yetiri, Allahın haram buyurduğu işlərə qurşandı, hörməti aradan aparıb Kəbəni yandırdı. Mən sizin işlərinizi boynuma götürüb, sizin məsuliyyətlərinizə dözə bilmərəm. İndi özünüz öz xəlifəliyinizlə nə edirsiz edin. Hazırda, həqiqi İmam Əliyyibnil-Hüseyn, (İmam Səccad) Mədinədədir. Bu sözü eşitcək anası məclisin ortasından durub etiraz etməyə başladı və dedi: "Ey kaş bir qətrə qan olaydın və dünyaya gəlməyəydin ki, səni bu cür görməyəydim." O da cavabında dedi: "Bəli ana! Düz deyirsən, kaş bir qətrə qan olub, dünyaya gəlməyədim ki, Yezid kimi bir atanın oğlu olmuşam".

Sonra minbərdən aşağı düşüb bir kənara çəkildi. Bir evə çəkilib orada yaşadı və o qədər qüssə çəkdi ki, axırda 23 yaşında öldü.

## *YAXŞI MÜƏLLİMİN ROLU*

Sual oluna bilər ki, necə mümkündür Yezid kimi adamdan bu cür oğul dünyaya gəlib. Bu məsələni araşdırıb belə qənaətə gəliblər ki, bu oğlanın pak və islah olunmuş bir müəllimi olmuşdur ki, onu düzgün tərbiyə edərək zəlalət, azğınlıq kimi

ən çirkin yoldan və ən bədbəxt ailənin içindən haqq yoluna hidayət edib, həqiqəti ona anlatmışdır.

Bu bir şahiddir ki, düzgün İslam tərbiyəsi haram nütfə, haram yemək, pozğun mühit və günhakar ata-ananın təsirini qüvvədən salır.

## *İFRAT VƏ TƏFRİTƏ YOL VERMƏMƏK*

Xatırladılmalıdır ki, uşaqlarımızın qərizələrini məhəbbət və təşviq etmək yolları ilə tənzim və hidayət etməklə yanaşı diqqətli olmalıyıq ki, bu işdə ifrat olmasın çünki, əgər bu işdə həddimizi aşsaq, nəticəsi xoşagəlməz olacaqdır.

Yəni əgər uşaq ərköyün, yaltaq olarsa, onda təkəbbür və özünü başqalarından üstün tutmaq halları yaranacaqdır. Buna görə də uşağı həddindən artıq təşviq edib bir işə həvəsləndirməklə yanaşı, onda özünü böyük tutmaq və özbaşınalıq ruhiyyələrini söndürməliyik. Məhəbbət və mehribanlığın yeri və ölçüsü vardır, əgər məhəbbət və mehribanlıq yersiz və hədsiz olarsa, sizin övladınız cəmiyyətə nəinki faydasız, həm də cəmiyyətə artıq yük olacaqdır.

Ən yaxşı tərbiyə üsulu, əməli tərbiyədir. Əgər insan evdə İslami və insanlıq qaydalarına riayət edib ailə üzvlərinin hüququna ehtiram qoysa, namazı əvvəl vaxtında və aramlıqla qılıb yersiz zarafatlar etməsə, faydasız sözlər danışmasa, qeybət etməsə, yalan danışmasa, acıdilli və əxlaqsız olmasa, təbiidir ki, ailə üzvləri, xüsusilə də uşaqlar valideynlərin əməli tərbiyəsi təsiri altında tərbiyə olunacaqlar. Bu tərbiyə növü bütün tərbiyə üsullarından ən yaxşısı və müvəffəqiyyətlisidir.

# MÜNDƏRİCAT


**BİRİNCİ FƏSİL**

*ƏXLAQ UYĞUNLUĞU*............................................................ 10

**İKİNCİ FƏSİL**

*MEHRİBANLIĞIN AİLƏ HƏYATINDA ROLU*...................... 19

**ÜÇÜNCÜ FƏSİL**

*LƏYAQƏTLİ QADININ SİFƏTLƏRİ*......................................... 28

**DÖRDÜNCÜ FƏSİL**

*QADIN VƏ KİŞİ HÜQUQU*........................................................ 36

**BEŞİNCİ FƏSİL**

*ACI DİLLİLİK VƏ ONUN ÖVLADDAKI TƏSİRİ*.................. 44

**ALTINCI FƏSİL**

*QARŞILIQLI GÜZƏŞT VƏ MƏHƏBBƏT*................................. 50

**YEDDİNCİ FƏSİL**

*İSLAMDA EVLƏNMƏYİN ƏHƏMİYYƏTİ*............................. 58

**SƏKKİZİNCİ FƏSİL**

*AİLƏ NEMƏTİ VƏ ONUN ƏSƏRİ*........................................... 68

**DOQQUZUNCU FƏSİL**

*AİLƏ TƏRBİYƏ VƏ İNSANI İSLAH MƏHƏLLİDİR*............ 78

**ONUNCU FƏSİL**
*XOŞRƏFTARLIQ* ........................................................... 85

**ON BİRİNCİ FƏSİL**
*VƏFADARLIQ* ............................................................... 95

**ON İKİNCİ FƏSİL**
*ÇOX TƏLƏBKAR OLMAQ* ................................................ 99

**ON ÜÇÜNCÜ FƏSİL**
*KİÇİK YAŞLI UŞAQLARIN TƏRBİYƏSİ* .............................. 104

**ON DÖRDÜNCÜ FƏSİL**
*ÖVLADIN ŞƏXSİYYƏTİNDƏ QİDANI TƏSİRİ* ................. 110

**ON BEŞİNCİ FƏSİL**
*FİTRƏT* ........................................................................ 115

**ON ALTINCI FƏSİL**
*UŞAĞIN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA NİYYƏTİN ROLU* ........................................................ 119

**ON YEDDİNCİ FƏSİL**
*İSLAM TƏRBİYƏSİ QANUNLARI* ....................................... 122